**Cild: 14 Say: 2** **ISSN 2218 – 0346**
**2011**

# AZƏRBAYCAN ARXEOLOGIYASI

**Təsisçi**
Hamlet İsaxanlı

**Baş Redaktor**
Qüdrət İsmayılzadə

**Redaktor müavinləri**
Roza Arazova
Tarix Dostiyev
Bəhlul İbrahimli

**Məsul katib**
Sevda Hüseynova
Mərziyə Əlizadə

**Redaksiya heyəti**

Alp Arslan (Türkiyə)
İsmayıl Hacıyev (Azərbaycan)
Vadim Masson (Rusiya)
Bertyill Lyonnet (Fransa)
Rauf Munçayev (Rusiya)
Mehmet Ösdoğan (Türkiyə)
Vəli Baxşəliyev (Azərbaycan)
Otar Caparidze (Gürcüstan)
Övez Gündoğdiyev (Türkmənistan)
Maya Rəhimova (Azərbaycan)
Mehmet İşıqlı (Türkiyə)
Viktor Sarianidi (Rusiya)
Lauren Listven (ABŞ)
Andreas Şaxner (Almaniya)

**Volume: 14 Number: 2** **ISSN 2218-0346**
**2011**

# AZERBAIJAN ARCHAEOLOGY

**Founder**
Hamlet Isaxanli

**Editor in Chief**
Qudrat Ismayilzadeh

**Editorial Assistants**
Roza Arazova
Tarikh Dostiyev
Bahlul Ibrahimli

**Deputy Editors**
Sevda Huseynova
Marziya Alizade

**Editorial Board**
Alp Arslan (Turkey)
İsmail Haciyev (Azerbaijan)
Vadim Masson (Russia)
Bertille Lyonnet (France)
Rauf Munchayev (Russia)
Mehmet Ozdoghan (Turkey)
Vali Baxshaliyev (Azerbaijan)
Otar Japaridzeh (Georgian)
Ovez Gundoghdiyev (Turkmenistan)
Maya Rahimova (Azerbaijan)
Mehmet Ishikli (Turkey)
Viktor Sarianidi (Russia)
Lauren Listvest (USA)
Andreas Schachner (Germany)

© COPYRIGHT©1999 BY KHAZAR UNIVERSITY PRESS
ALL RIGHTS RESERVED

AZ1096 Azərbaycan Respublikası
Bakı şəhəri, Məhsəti küçəsi, 11
Xəzər Universitəsi

Khazar University 11 Mehseti str.,
Baku AZ1096 Republic of
Azerbaijan

Üz qabığında: Tuncdan maral fiquru.
Cover page depicts: Deer figure made from bronze.
На обложке: Бронзовая фигурка оленя.

Telefon: (99412) 4217927
Faks: (99412) 4989379
E-mail: contact@khazar.org
jaa@khazar.org
website: http://www.khazar.org
www.azerbaijanarcheology.com

KHAZAR UNIVERSITY PRESS



***Keçmişsiz millət – məntiqi bir uyğunsuzluqdur. Çünki milləti millət edən məhz keçmişdir, yalnız keçmiş onun mövcudluğuna haqq qazandırır, tarixçilər isə bu keçmişi yaradanlardır.***

Erik Hobsbaum

***Nations without a past are contradictions in terms. What makes a nation is the past, what justifies one nation against others is the past, and historians are the people who produce it.***

Eric Hobsbawm

***Нация без прошлого – это логическая несообразность. Ибо нацию делает нацией именно прошлое, именно оно оправдывает её существование, а историки – те, кто его создают.***

Эрик Хобсбаум

# MÜNDƏRİCAT


**TƏDQİQATLAR**

***Toğrul Xəlilov.*** Milli-mənəvi dəyərlərimizin arxeoloji materiallarda əksi .............11

***Əzizəxanım Həsənova.*** Çarxanqala kurqanlarından aşkar olunmuş metal məmulatın tədqiqi .........................................................................................20

***Bəhlul İbrahimli.*** Daşdan hazırlanmış toppuz başlarının dövrü və arealı haqqında...........................................................................................29

***Mübariz Xəlilov.*** İnzibati ərazi, toponim dəyişiklikləri və arxeoloji abidələr.........37

***Həbib Şahbazi Şiran.*** Köhnəqalanın arxeoloji səciyyəsinə dair............................42

***Müşfiq Bayramov.*** IX-XIII əsrin əvvəllərində Azərbaycan kəndlərinin təsərrüfat həyatı (arxeoloji materiallar əsasında).............................................49

**MARAQLI TAPINTILAR**

***Ramil Rüstəmov.*** İmişli abidələrində keramika nümunələri..................................57

**ELM TARİXİ**

***Əmrah Dadaşov.*** Azərbaycanda Kür-Araz mədəniyyəti abidələrinin öyrənilmə metodları...............................................................................66

***Vəli Cahani.*** Gilanda dəmir dövrünə aid aparılan arxeoloji qazıntıların tarixi.........................................................................................................73

**KÖMƏKÇİ FƏNNLƏR**

***Nasir Quluzadə.*** Azərbaycanda maldarlığın yaranmasını şərtləndirən amillər ..................................................................................................83

***Şirin Bünyadova.*** Arif Ərdəbilinin "Fərhadnamə" əsərində etnoqrafik məsələlər..................................................................................................95

**TƏLƏBƏLƏRƏ KÖMƏK**

***Tarix Dostiyev.*** Arxeoloji lüğətin tərtibinə dair....................................................106

**BİZİM ARXİVİMİZDƏN**

***Məhəmməd Məmmədov.*** Repressiya qurbanı Vəli Xuluflunun folklorşünaslıq fəaliyyəti .......................................................................115

**YAXIN VƏ UZAQ SƏLƏFLƏRİMİZ**

***Qüdrət İsmayılzadə.*** Zati aliləri ser, arxeoloq – Çarlz Leonard Vulli..................124

**BİZİM MÜSAHİBƏ .........................................................................................130**

**XRONİKA, RƏYLƏR, XƏBƏRLƏR............................................................133**

## CONTENTS

**RESEARCHES**
***Togrul Khalilov.*** Reflection of national spiritual values in archaeological materials ....................11
***Azizakhanum Hasanova.*** Researching of metallic wares from of Chalkhangala barrows ....................20
***Bahlul Ibragimli.*** The area of distribution and dating of stone tips of maces from Nakhchivan ....................29
***Mubariz Khalilov.*** Administrative – territorial – toponymy changes and archaeological monuments ....................37
***Habib Shirazy Shiran.*** About archaeology charakterist of Kehnagala....................42
***Mushfig Bayramov.*** Economy life of Azerbaijan rurals in IX, beginning of XIII centuries (on the basis of archaeological materials) ....................49

**INTERESTING FINDINGS**
***Ramil Rustamov.*** Ceramics sample on Imishli monuments ....................57

**SCIENTIFIC HISTORY**
***Amrah Dadashov.*** The problem of studying the monuments Kuro-Araxes culture in the territory of Azerbaijan ....................66
***Vali Jahani.*** The history of archaeological monuments of the Iron Age in Gilan ....................73

**SUBSIDIAIRES**
***Nasir Guluzade.*** Factors causing arising and development in Azerbaijan of the cattle-breeding ....................83
***Shirin Bunyadova.*** Ethnoqraphic problems in "Farhadname" of Arif Ardebili ....................95

**FOR STUDENTS**
***Tarikh Dostiyev.*** Archaeological dictionary creation ....................106

**FROM OUR ARCHIVE**
***Mahammad Mammadov.*** Folkloristic Activity of Vali Khuluflu, a Victim of Repression....................115

**OUR PREDECESSORS**
***Gudrat Ismayilzade.*** The archaeologist, sir Charles Leonard Woolley ....................124

**OUR INTERVIEW ....................130**

**CHRONICLES, REVIEWS, INFORMATION....................133**

## СОДЕРЖАНИЕ


**ИССЛЕДОВАНИЯ**

***Тогрул Халилов.*** Национальные ценности в археологических материалах ....11

***Азизаханым Гасанова.*** Исследование металлических изделий из Чалхангалинских курганов ....20

***Бахлул Ибрагимли.*** Ареал распространения и датировка каменных наверший булав из Нахчывана....29

***Мубариз Халилов.*** Административно – территориальные, топонимические изменения и археологические памятники ....37

***Габиб Шахбази Ширан.*** К археологической характеристике Кегнагала....42

***Мушфиг Байрамов.*** Хозяйственная жизнь сельских поселений Азербайджана в IX - начале XIII века (по археологическим материалам) ....49

**ИНТЕРЕСНЫЕ НАХОДКИ**

***Рамил Рустамов.*** Керамические образцы в памятниках Имишли ....57

**ИСТОРИЯ НАУКИ**

***Амрах Дадашев.*** Проблема изучения памятников Куро-Аракской культуры на территории Азербайджана ....66

***Вели Джахани.*** История археологических раскопок памятников эпохи железа в Гилане....73

**ВСПОМОГАТЕЛЬНЫЕ ДИСЦИПЛИНЫ**

***Насир Гулузаде.*** Факторы способствующие возникновснию скотоводства в Азербайджане ....83

***Ширин Бунядова.*** Этнографические мотивы в «Фархаднаме» Арифа Ардебили....95

**ПОМОЩЬ СТУДЕНТАМ**

***Тарих Достиев.*** О составлении археологического словаря ....106

**ИЗ НАШЕГО АРХИВА**

***Магомед Мамедов.*** Фольклористская деятельность жертвы репрессии Вели Хулуфлу....115

**НАШИ ПРЕДШЕСТВЕННИКИ**

***Гудрет Исмаилзаде.*** Археолог, сэр Чарльз Леонард Вулли ....124

**НАШЕ ИНТЕРВЬЮ ....130**

**ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ ....133**

TƏDQİQATLAR
RESARCHES
ИССЛЕДОВАНИЯ

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN ARXEOLOJİ MATERİALLARDA ƏKSİ

**Toğrul Xəlilov**
(AMEA-nın Naxçıvan Bölməsi)
x.toqrul@gmail.com

**Açar sözlər: milli dəyərlər, Naxçıvan, qədim bəzəklər, gil qablar.**

Hər bir xalq milli-mənəvi dəyərlər sisteminə malikdir. Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Milli-mənəvi dəyərlərimizin dəqiq elmi və mənəvi-əxlaqi mahiyyətini açan ümummilli lider deyirdi: "Milli ideologiyamızın əsas tərkib hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz". Xalqımızın əsrlər boyu yaratdığı zəngin milli-mənəvi və maddi irsə yüksək qiymət verən ulu öndər arxeoloji və etnoqrafik tədqiqatları daim diqqət mərkəzində saxlayıb, bu sahəyə qayğı göstəribdir. Ümummilli lider hələ keçmiş sovetlər dönəmində tariximizin qədimliyi və zənginliyinin mühüm göstəricisi olan tarixi abidə və eksponatların qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədilə Azərbaycanın bütün bölgələrində tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında sərəncam imzalamışdır. Ulu öndərin milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir"- bəyanatı problemə təkcə dövlət rəhbərinin yox, həm də müdrik bir el ağsaqqalının münasibəti idi. "Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik"-deyən ümummilli liderimizin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir. Ulu öndərin zəngin dövlətçilik ənənələrini davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov cənabları tərəfindən milli-mənəvi dəyərlərimizin dərindən öyrənilməsi, onun

qorunub saxlanılması istiqamətində mühüm işlər görülür. Arxeoloji və etnoqrafik tədqiqatlar daim diqqət mərkəzində saxlanılır, tarixi abidə və eksponatlar qorunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov cənabları tərəfindən 2012-ci ilin Naxçıvanda milli dəyərlər ili elan edilməsi milli-mənəvi dəyərlərimizin dərindən öyrənilməsi, onun qorunub saxlanılması və gənc nəsillərə çatdırılmasında mühüm yer tutur. Dövlət tərəfindən abidələrimizə, arxeoloji tədqiqatlara göstərilən yüksək diqqət və qayğı nəticəsində aparılan elmi araşdırmalar zamanı milli-mənəvi dəyərlərimizi özündə əks etdirən çoxlu arxeoloji material aşkar olunmuşdur. Aparılan arxeoloji tədqiqatlar zamanı qəbir abidələrindən aşkar olunmuş sklet qalıqları milli-mənəvi dəyərlərimizin tərkib hissələrindən olan qədim dəfnetmə adətimizin öyrənilməsində mühüm yer tutur. Xalqımızın tarixi, onun etnogenezisi ilə bağlı bəzi üzdəniraq tədqiqatçılar tərəfindən irəli sürülmüş saxta fikirlərin heç bir elmi əsasının olmadığını göstərir.

Naxçıvan Muxtar Respublikasınında aparılan arxeoloji tədqiqatlar zamanı qəbir abidələrindən sklet qalıqları tək və ya kollektiv formada aşkar olunmuşdur. I Kültəpə yaşayış yerinin Eneolit dövrünə aid təbəqəsindəki qəbirlərdən sağ və ya sol böyrü üstə, arxası üstü uzadılmış vəziyyətdə sklet qalıqlar aşkar olunmuşdur (3, s. 50). Bəzi qəbirlərdə insanla birlikdə müxtəlif heyvanlar da dəfn edilmişdir. Sarıdərə nekropolundan it, Kükü nekropolundan öküz (30, s. 25, 44), Şahtaxtı nekropolundan at (2, s. 99) və s. skletləri tapılıbdır. Sağ və ya sol böyrü üstə, arxası üstü uzadılmış vəziyyətdə dəfnetmə ilə bağlı sklet qalıqları Şumer-Ubeyd, Hələf mədəniyyətində, Ön Asiyadakı Təpə Sialk, Təpə Cəmşid, Təpə Giyan, Mesopotomiyadakı Tepə Gaur abidələrində aşkar olunmuşdur (36, s. 38, 39). İtlə və atla bağlı dəfnetmə adəti Cənubi Qafqazdan Sibir, Altay bölgəsinə, Mesopotomiyaya qədər olan ərazidə yayılmışdır. İtlə bağlı dəfnetməyə Cənubi Mesopotomiyadakı Erudu (12, s. 100), Şərqi Anadoludakı Yoncatəpə nekropollarında (32, s. 154) və digər abidələrdə rast gəlinmişdir. At skeletləri Bozkır Türk boylarından qalma qəbirlərdə, Asiya Hun, Göytürk, Avropa Hun və Avropa avarlarının qəbirlərində aşkar olunmuşdur.

Milli-mənəvi dəyərlərimizi özündə əks etdirən arxeoloji materiallardan bir qrupunu qədim təsviri incəsənətimizin tərkib hissəsi olan sənətkarlıq məhsulları təşkil edir. Arxeoloji abidələrimizdən tapılan gil qablar, xəncərlər, heykəllər, bəzək əşyaları, qayaüstü təsvirlər bu tip arxeoloji materiallardandır.

Gil qablar Naxçıvandakı arxeoloji abidələrdən xeyli miqdarda tapılmışdır. Qızılburun, II Kültəpə (16, tab. 41), Nəhəcir (8, s. 74), Şahtaxtı (4, s. 27) və digər abidələrdən tapılan gil qablardan bir qrupunda milli-mənəvi dəyərlərimiz əks olunmuşdur (tab. I, 23, 24). Qızılburun abidəsindən əldə

olunmuş boyalı küpələrdən birinin üzərində həndəsi naxışlarla birlikdə insanlar qarşı-qarşıya dayanmış, qolları dirsəkdən bükülmüş, əlləri yuxarı qalxmışdır. İnsanın birinin əli yanındakının dizi üzərinə qoyulmuşdur (3, s. 142). Qobustan qayaüstü təsvirlərində olduğu kimi bu qabın üzərindəki təsvirdə də xalqımızın qədim milli-mənəvi dəyərlərindən olan yallı rəqsi əks olunmuşdur (tab. I, 22). Musiqi digər maddi mədəniyyət nümunələri kimi insanın formalaşmasında əsas amillərdən biridir. Musiqinin milli-mənəvi dəyərlərimizin əsasını təşkil etməsi haqqında ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Musiqi ayrı-ayrı dillərdə danışan, müxtəlif inkişaf yolları keçmiş, bir-birindən fərqlənən mənəvi və maddi dəyərlərə malik xalqların ən gözəl qarşılıqlı anlaşma və ünsiyyət vasitəsidir".

Naxçıvandakı Qumluq (17, s. 119), Boyəhməd (9, s. 22) nekropollarından tapılmış konus başlıqlı, üzəri çarxıfələk formalı üçbucaqlarla bəzədilmiş xəncərlər (tab. I, 25) milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan qədim inanclar sistemimizlə bağlı müəyyən süjeti əks etdirir. Fikrimizi əsaslandırmaq üçün mənbələrə nəzər salsaq görərik ki, konus formasının göyü, çarxıfələk rəsminin günəşi, dünyanın dördtərəfli olduğunu simvolizə etməsi ilə bağlı xeyli əfsanə və rəvayətlər vardır. Sibir xalqlarının, xüsusi ilə də yakutların xalq inanclarında çarxıfələk rəsmi qoryucu ruhu bildirir (33, s. 39). Qədim türklər Göy Tanrısına qüdrətli Allah kimi inanmışdırlar. Onlar belə düşünmüşdürlər ki, Göy Tanrısı insanların taleyini həll edir (34, s. 45).

Qədim heykəl nümunələri Naxçıvanda heykəltaraşlıq sənətinin tarixinin qədimliyini sübut etməklə yanaşı insanın əmək fəaliyyətini, mənəvi etiqadını, estetik təsəvvürlərini də əks etdirir. Onlar it, at, keçi, öküz, insan fiqurlarından ibarətdir (tab. I, 1-4, 6-10). İt fiqurları I Kültəpənin Erkən Tunc dövrü təbəqəsindən (3, s. 141), (tab. I, 1-4, 6, 7), I Maxta Kültəpəsindən (1, s. 66) tapılmışdır. Onların bənzərləri Cənubi Qafqazdakı Böyük Kəsik və II Poylu (23, s. 25), Şimali Mesopotomiyadakı Ubeyd mədəniyyətinə aid III Yarımtəpə (25, s. 148), Cənubi Mesopotomiyadakı Ur, Suriyadakı Tell Xəzinə (27, s. 5-24) arxeoloji abidələrində aşkar olunmuşdur.

Öküz fiqurlarına I Kültəpənin Erkən Tunc dövrü təbəqəsində (3, s. 140, 141), I Maxta Kültəpəsində (1, s. 65) təsadüf olunmuşdur. Onların bənzərləri Baba Dərviş (18, s. 95-97), Göytəpə, Təpə-Hisar, Təpə-Gavur və Maykop mədəniyyətindən (26, s. 15-18) əldə olunmuşdur. Misir, Şumer, Babilistan, Assur, Hett mədəniyyətlərində öküzlə bağlı müxtəlif arxeoloji materiallar vardır. Qədim Şumer dövlətinin qüdrətli şəhərlərindən olan Urdan e.ə. IV minilliyə aid qızıldan öküz başı, Altıntəpədən (Cənubi Türkmənistan) e.ə. III minilliyin sonu-II minilliyin əvvəlinə aid qızıldan öküz maskası (5, s. 127), Antakiya mozaikalarındakı daş piltələrin üzərindən öküz təsviri (37) aşkar olunmuşdur. E.ə. II minilliyin sonu-I minilliyin əvvəllərinə aid Xurvin (Tehranın şimal-şərqində), Kaliraz (Gilan), e.ə. V minilliyə aid Hələf (Me-

sopotamiya), e.ə. V-IV minilliyə aid Kalibanqan (Hindistan) abidələrindən də öküzlə bağlı çoxlu arxeoloji materiallar (qulağı qızıl sırğalı öküz rəsmi, qoşqulu öküz fiqurları və s.) tapılmışdır (36, s. 17, 25).

I Kültəpə (6, s. 32), I Maxta (1, s. 65) abidələrindən aşkar olunmuş at fiqurlarının bənzərləri də dünyanın müxtəlif yerlərində vardır. I Maxta yaşayış yerində tapılmış Erkən Tunc dövrünə aid gil at fiqurunun boynunda Anadoludakı Karaz (20, s. 351), Boğazqala (38) arxeoloji abidələrindən tapılmış at fiqurları kimi bu heyvanın yalını xatırladan naxış vurulmuşdur (tab. I, 7).

Milli-mənəvi dəyərlərimizin öyrənilməsində Qızılburun abidəsindən tapılmış Orta Tunc dövrünə aid olan kişi fiquru da mühüm yer tutur (tab. I, 10). Şamaxıdan, Tovuzdan, Ağdamdan tapılmış kişi fiqurlarından fərqli olaraq Qızılburun kişi fiquru daha yaxşı düzəldilmişdir. İnsanın üzü yastı, alnı bir az qabarıq, baş və bədən üzvləri çox mütənasib şəkildədir, paltarlı, çəkməli və papaqlıdır. Bədəni incə xətlərlə qara və qəhvəyi rənglə boyanmıştır. İnsanın sol əli kəmərinin üzərinə qoyulmuşdur. Bu fiqur bəzi xüsusiyyətlərinə görə İrandan əldə olunmuş kişi fiquru ilə bənzərlik təşkil etməsinə baxmayaraq ondan daha qədimdir (7, s. 62).

Qızılburun kişi fiqurunun milli-mənəvi dəyərlərimizin öyrənilməsində elmi əhəmiyyəti ondan ibarətdir ki, orada qədim geyim mədəniyyətimizin bütün xüsusiyyətləri (başmaq, arxalıq) əks olunmuşdur. Xalqın tarixi ilə möhkəm bağlı olan geyim, onun mədəniyyətini öyrənmək üçün qiymətli mənbələrdən biridir. Geyim maddi mədəniyyətin bütün başqa ünsürlərindən daha çox xalqın milli xüsusiyyətini əks etdirməklə yanaşı sabit etnik əlamətlər sırasına daxildir. Geyim etnogenez məsələlərini aydınlaşdırmaq, xalqlar arasında mədəni-tarixi əlaqə və qarşılıqlı təsir məsələlərini müəyyənləşdirmək işində yardımçı material rolunu oynayır. Xalq yaradıcılığının tarixi, etnoqrafik və bədii xusüsiyyətləri öz əksini geyimlərdə tapır. Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvandan tuncdan hazırlanmış iynə və bizlərin, bəzək əşyalarının tapılması da sübut edir ki, Azərbaycan sakinləri qədimdən özlərinə paltar tikməyi bacarmış və öz geyim mədəniyyəti ilə seçilmişlər. Bəzək əşyalarının bir qrupu sadə, bəziləri naxışlı düzəldilmişdir. Naxışlar həndəsi, nəbati, zoomorf, antropomorf ornamentlərdən ibarətdir. Zoomorf ornamentli bəzək əşyaları içərisində quş fiqurlu asma bəzəklər, heyvan başlıqlı sancaqlar, ilanbaşlı bilərziklər və boyunbağılar maraqlı təsviri incəsənət nümunələrimizdəndir. Qarabağlar, Şahtaxtı nekropollarından (10, s. 89, 90) tapılmış ilanbaşlı bilərziklərin (tab. I, 20), Qızılburun nekropolundan əldə olunmuş ilan formalı boyunbağıların (11, s. 66) oxşarları Qobustanda (24, tab. X), Gəncəçay bölgəsində (29, tab. VII, 5, 9), Muğanda (13, tab. XI, 3), Quşçuda (21, s. 135) və Cənubi Qafqazdakı digər arxeoloji abidələrdə tapılmışdır. Sarıdərə, Kolanı (30, s. 57, 65) Qızılburun (3, s. tab.

XXXII, 12) nekropollarından tapılmış quş fiqurlu asma bəzəklərin (tab. I, 21) hamısı döymə, heyvan başlıqlı sancaqlar isə tökmə üsulu ilə düzəldilmişdir (tab. I, 26). Onların üzəri üçbucaqlardan ibarət şəbəkələrlə bəzədilmişdir. Bu tip asma bəzəklər Naxçıvanla yanaşı olaraq Azərabaycanın digər bölgələrindən (Çovdardan, Şamxordan (35, s. 254), Quşçudan (21, s. 115) və s.) aşkar olunmuşdur.

Milli-mənəvi dəyərlərimizin öyrənilməsində qayaüstü təsvirlər də mühüm yer tutur. Naxçıvan Muxtar Respublikasındakı Kolanı (9, s. 63), Sarıdərə (30, s. 50) nekropollarından (tab. I, 11, 12) və Gəmiqaya abidəsindən milli-mənəvi dəyərlərimizi özündə əks etdirən qayaüstü təsvirlər aşkar olunmuşdur.

Kolanı nekropolundakı təsvirlərdən birində günəş tanrısı, digərində isə hami ruh çəkilmişdir (9, s. 63) (tab. I, 11). Bu təsvirdəki bəzi xüsusiyyətlər Sibir, Cənubi Qafqaz, Gəmiqaya, Xatınçay, Anadolu qayaüstü təsvirlərində, Xocalı-Gədəbəy mədəniyyətinə aid gil qabların üzərində, Misir heroqliflərində, Orxan Yenisey kitabələrində vardır. Gəmiqaya abidəsindəki bəzi öküz, keçi, quş, insan təsvirlərində milli-mənəvi dəyərlərimizlə bağlı maraqlı süjetlər vardır. Belə maraqlı qayaüstü təsvirlərdən birini yırtıcı heyvanların dırnaqlıları parçalaması səhnəsi təşkil edir. Bu tip təsviri incəsənət nümunələri Mesopotomiyadan Orta Asiya və Qara dəniz sahillərinə qədər olan geniş bir ərazidə yayılmışdır (14, s. 50; 22, s. 96). Gəmiqaya abidəsindəki bu tip qayaüstü təsvirlərdən olan aslanın öküzü parçalaması rəsminin (tab. I, 13) bənzəri Diyarbəkirdəki Ulu məscidin girişində (37), Ur abidəsindən (tab. I, 14) tapılmış möhürün üzərində vardır (15, s. 126). Bu tip arxeoloji materiallar Yaxın Şərq mədəniyyətinə aid digər abidələrdən də aşkar olunmuşdur (12, s. 35). Gəmiqaya abidəsində qeydə alınış yırtıcı heyvanların dırnaqlılara hücum etməsi ilə bağlı maraqlı qayaüstü təsvirlərdən birini canavarın keçiyə hücum etməsi təşkil edir (tab. I, 15). Bu təsvirdə canavarla keçi arasında uzun dalğalı xət çəkilərək milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan inanclar sistemimiz əks olunmuşdur. Təsvirdə bütün türk xalqları arasında geniş yayılan (19, s. 314) və Azərbaycanda öz varlığını günümüzədək qoruyub saxlayan "Qurd ağzı bağlanılması" ayini verilmişdir. Xalqımızın qədim inanclarını əks etdirən bu tip qayaüstü təsvirlərdən bir qrupunu quş və insan rəsmləri təşkil edir. Gəmiqayadakı bəzi quş təsvirlərinin (tab. I, 16) bənzərləri Hələf (tab. I, 17) mədəniyyətində vardır. Anadoludakı Neolit dövrünə aid Çatal Höyük abidəsindən (tab. I, 18) Gəmiqaya abidəsində olduğu kimi ayaqlarını və qollarını yuxarı qaldırmış insan təsvirləri aşkar olunmuşdur (tab. I, 19). Bu abidədəki atlı insan təsvirlərindən bir qrupunun bənzərləri Yaxın Şərq mədəniyyətində vardır (tab. I, 27). Onların bəzilərində Sialk B nekropolundan tapılmış təsvirlərdə olduğu kimi insan ayaqlı çəkilmişdir (tab. I, 28).

Aparılan araşdırma sonda onu qeyd etməyə əsas verir ki, hər bir arxeoloji material milli-mənəvi dəyərlərimizi özündə əks etdirir. Onlar Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın qədim sivilizasiya mərkəzlərindən biri olduğunu göstərir. Ulu öndərimizin qeyd etdiyi kimi "biz tarixi köklərimizi həmişə iftixar hissi ilə qiymətləndirməliyik və tarixi köklərimizin mənasını dünyaya bəyan etməliyik, yaymalıyıq, təbliğ etməliyik, onunla fəxr etməliyik. Ölkəmiz keçmişdəki kimi, xüsusən də bu gün bəşəri dəyərləri xüsusilə bərqərar edərək, onları öz milli ənənələri ilə, milli-mənəvi dəyərləri ilə birləşdirir". Azərbaycan xalqının tarix boyu qazandığı milli-mənəvi dəyərlər ümummilli liderimiz tərəfindən əsası qoyulan azərbaycançılıq ideyasının yaranmasında xüsusi əhəmiyyət kəsb edir. Azərbaycançılıq ideyası və Azərbaycan xalqının yaratdığı milli-mənəvi dəyərlər tarixən dəyişmişdir. İnanclar sisteminin, mifik görüşlərin, həyati idrak formasının, soy psixikasının, xalq yaradıcılığının başlıca türkdilli qəbilələrlə bağlılığı milli-mənəvi dəyərlərimizin ən mühüm elementlərindəndir. Azərbaycanlıların milli ideyası və milli-mənəvi dəyərlərində ümumtürk ruhunun və milliliyin üstün amil olmasının başlıca səbəbi tarixən burada türkdilli tayfaların yaşamasıdır.

## ƏDƏBİYYAT

1. Aşurov S.H. Naxçıvan ilk tunc dövrü keramikası. Bakı: Nafta-Pres S.2002,158 s.
2. Ağayev Q.H. Şahtaxtının dörd tunc dövrü qəbir abidəsi haqqında / Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son naliyyətlərinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Elm, 1992, s. 98-101
3. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.
4. Абибуллаев О.А. Материалы Шахтахтинского погребения // Известия АН Азербайджанской ССР, № 5, Баку: Элм, 1961, с. 27-36.
5. Авдиев В.И. История древнего Востока. Москва: Гос. изд-во полит. лит-ры, Изд-е 2-е, 1953, 758 с.
6. Алекперов А.В. Террокота древнего Азербайджана. Баку: Элм, 1994, 134 с.
7. Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 163 s.
8. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədənyyəti. Bakı: Elm, 2004, 320 s.
9. Baxşəliyev V.B. Naxçıvanın erkən dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
10. Бахшалиев В.Б., Селимханов И.Р. О змееивидных браслетах из сел Шахтахты и Карабаклар в Нахичеванской АССР // Док. АН. Аз. ССР, 1987, с. 89-92.
11. Бахшалиев В.Б. Древняя металлургия и металлобработка на территории Нахичеван. Баку: Элм, 2005, 120 с.

12. Чайлд Г. Древнейший Восток в свете новых раскопок. Москва: Наука, 383 с.
13. Джафарзаде И.М. Элементы археологической культуры древней Мугани // Известия АН Азербайджанской ССР, № 9, 1946, с. 29-51.
14. Джафарзаде И.М. Связи Азербайджана со странами Передней Азии в эпоху бронзы и раннего железа. Баку: Элм, 1984, 106 с.
15. Флиттнер Н Д. Культура и искусство Двуречья и соседних стран. Ленинград-Москва: Госиздат, 1958 г. 298 с.
16. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı, "Elm" nəşriyyatı, 1959, 134 s.
17. Xəlilov T.F. Qumluq nekropolundan tapılmış tunc xəncərlər // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, № 1, 2008, s. 117-121.
18. Исмайылов Г.С. Глиняные фигурки поселения Баба-Дервиш близ города Казаха // Док. АН. Аз. ССР, 1962, с. 95-97
19. Kalafat Y. Balkanlardan Uluğ Türkistana Türk halk inançları (Tatarlar, Hakaslar, Kırkızlar, Boşnaklar, Acarlar, Edigeyler, Albanlar, Karaçaylar, Qreqoryanlar, Romanya, Şumnu-Burkaz, Gürcistan-Karaçöp, Kıbrı S. Rodo S. Tacikistan, Suriye Türkleri). III-IV cilt. Ankara: Berikan yayın, 2006, 556 s.
20. Koşay H., Turfan K. Erzurum-Karaz kazisi raporu // Türk Tarih Kurumu, Belleten, XXIII, № 91, Ankara: 1959, s. 349-413.
21. Гуммель Я.И. Археологические очерки. Баку: Аз. ФАН СССР, 1941, 166 с.
22. Ллойд С. Археология Месопотомии. Москва: Наука, 1984, 280 с.
23. Müseyibli N.E. Qədim Azərbaycanda itlərdən istifadə və it kultu // Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı: Nafta-Pres S. 2008, s. 5-30.
24. Muradova F.M. Qobustan tunc dövründə. Bakı: Elm, 1979, 118 s.
25. Мерперт Н.Я., Мунчаев Р.М. Поселения Убейдской культуры Ярымтепе III в Северной Месопотомии // Советская археология, Москва: Наука, 1982, № 4, с. 144-150.
26. Мунчаев Р.М. Памятники Майкопской культуры в Чечено-Ингушетии // Советская археология. Москва: Наука, 1962, № 3, с. 15-25.
27. Мунчаев Р.М., Мерперт Н.Я., Бадер Н.О. Телль Хазна I // Советская археология. Москва: Наука, 1990, № 3, с. 5-24
29. Nərimanov İ.H. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı: "Elm" nəşriyatı, 1958, 142 s.
30. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şahbuz bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1992, 143 s.
31. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Culfa bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1993, 103 s.
32. Oktay B., Erkan K. Excavations of Van Yondjatepe Fortress and Necropolis (1997-1999). İstanbul University s contributions to Archaeology in Turkey (1932-2000), İstanbul: 2001, p. 150-156.
33. Окладникова Е.А. Петроглифы Средней Катуни. Новосибирск: Наука, 1984, 111 с.

34. Стеблева И.В. К реконструкции древнетюркской мифологической системы. Тюркологический сборник 1971, Москва: Наука, 1972, с. 213-226.
35. Шарифов Д.А. Раскопки близ села Човдар Ганджинского уезд // Известия Азкомстариса, вып.. IV, 1928, с. 239-260.
36. Yusifov Y.B. Qədim Şərq tarixi. Bakı: Bakı Universiteti, 1992, 496 s.
37. www.indigodergisi.com/72/kevser-yalcin.htm.
38. http://www.rehberim.net/forum/corum

## REFLECTION OF NATIONAL SPIRITUAL VALUES IN ARCHAEOLOGICAL MATERIALS

**Toghrul Khalilov**

### Summary

**Key words:** national spiritual values, Nakhchivan, decorative thing, Earthenware crockey.

During the archaeological investigation in Nakhchivan examples of material-cultures belong to our national spiritual values are acquired. In the article they are systematized and learned. Gained archaeological materials have great importance in learning our national spiritual values.

## НАЦИОНАЛЬНЫЕ ЦЕННОСТИ В АРХЕОЛОГИЧЕСКИХ МАТЕРИАЛАХ

**Тогрул Халилов**

### Резюме

**Ключевые слова:** национальное достояние, Нахчыван, древние украшения, глиняные сосуды.

Во время археологических исследований памятников Нахчывана найдены уникальные находки, обогощающие материальную культуру Азербайджана и являющиеся национальными ценностями. В статье они рассматриваются в хронологическом порядке. Одной из самых многочисленных и разновидных находок является керамика, которую исследователи называют «азбукой» археологии. Особое место в материальной культуре Азербайджана занимают металлические изделия, которые отражают не только уровень развития древней металлургии и металлообработки, а также социальную дифференциацию древнего общества.


1 2 3 4
5 6 7 8 9
10 11 12 13 14
15 16 17 18
19 20 21 22 23
24 25 26 27 28

# ИССЛЕДОВАНИЕ МЕТАЛЛИЧЕСКИХ ИЗДЕЛИЙ ИЗ ЧАЛХАНГАЛИНСКИХ КУРГАНОВ

**Азизаханым Гасанова**
(Институт Археологии и Этнографии НАН Азербайджана)
dr_azizagasanova@yahoo.com

**Ключевые слова**: Азербайджан, курганы, Чалхангала, Нахчыван, аналитическое исследование, металлические предметы, бронза, олово, рудные месторождения.

Известные в археологии Азербайджана курганы Чалхангала расположены в 36 км северо – западнее от г. Нахчыван, около села Чалхангала. Они представляют собой небольшие курганы с насыпями, которые состоят, в основном, из разных камней, с преобладанием крупных скалистых глыб, местами земляные. Высота курганов по краям 0.3 – 0.4 м, в центре 2 м, диаметры 8 – 10 м; для них характерно одиночное захоронение.

Следует отметить, что они состоят из четырех курганов, обнаруженных при сельскохозяйственных работах, три из них были разрушены. Один курган был сохранен. При археологических раскопках этого кургана после снятия насыпи в середине была выявлена грунтовая могила четырехугольной формы. Среди обнаруженного инвентаря имеются также металлические изделия, преобладают чернолощеные, серые черепки и монохромно- расписная керамика.

В кургане № 1 выявлен ромбовидный наконечник копья, в кургане № 2 – кинжалы, втульчатые наконечники копий, булавки, фрагменты пластинчатого украшения.

Автор раскопок В. Г. Алиев отмечает также, что металлические изделия – ромбовидный и зубчатый наконечники копий, а также плоскоклинковые кинжалы характерны для культуры эпохи средней бронзы всего Южного Кавказа, в том числе Азербайджана. На основании, выявленного археологического материала по расписным и простым сосудам, автор раскопок датирует вышеотмеченные курганы XVIII – XVII вв. до нашей эры [1, с. 72 – 74].

Аналитическому исследованию было подвернуто десять изделий – это пять булавок, фрагмент ромбовидного наконечника копья, два кинжала, втульчатый наконечник копья и фрагмент пластинчатого украшения, который напоминает височную подвеску.

Необходимо отметить, что изделия, представленные для анализа, были в удовлетворительной сохранности. Поверхность всех изделий была покрыта толстым слоем окислов металла. Булавки и подвеска бы-

ли полностью подвергнуты коррозии. Металл кинжалов и наконечников копий был сохранен. Поэтому пробы, отобранные для анализа от булавок и подвески, представляли собой, в основном, порошок окислов металла, а пробы кинжалов и наконечников копий – металлические опилки.

Все изделия анализировались методом количественного спектрального анализа по унифицированной методике, разработанной проф. И. Р. Селимхановым, специально для археологического металлического инвентаря [5, с. 96, 118]. Аналитическое исследование проводилось в Секторе археологической технологии Института Археологии и Этнографии НАН Азербайджана.

Результаты анализов представлены в нижеследующей таблице. Анализы показали, что все изделия на медной основе с примесями различных элементов.

Следует отметить, что среди исследуемых изделий четыре изделия оказались медными, три изделия содержат повышенную примесь олова, содержание которого доходит до 12 %. Три из них содержат мышьяк, два предмета изготовлены из медно – мышьякового сплава, содержание мышьяка находится в пределах 1.7 – 2.5%.

Следует отметить, что в четырех предметах наблюдается повышенная примесь свинца, содержание которого доходит до 0.82 %.

Исходя из результатов анализа, исследуемые изделия можно интерпретировать следующим образом: обнаружение четырех медных изделий с незначительными естественными примесями исходных медных руд, которые представлены, в основном, украшениями не предъявляющие особых требований (к твердости и прочности сплава), вполне допустимо. Однако втульчатый наконечник копья № 10 (см. табл.), который выплавлен из меди, по-своему назначению должен быть из твердого более прочного сплава. Поэтому его состав вызывает сомнение.

Необходимо отметить, что металл этого изделия был местами сохранен. Проба, отобранная для анализа, представляла собой смесь окислов и металла. Поэтому результаты анализов по отдельным элементам показали пониженное содержание легирующих примесей. Однако, 0.3% мышьяка и 0.44% цинка, которые являются естественными примесями, в совокупности они могли придать сплаву определенную твердость. Медно – мышьяковые изделия, по-видимому, были получены переплавкой лома, так как в более древних изделиях содержание мышьяка высокое. При этом необходимо отметить, что мышьяк является природным индикатором многих медных руд Малого Кавказа [6, с. 134, 206, 213].

Содержание свинца в четырех предметах объясняется использованием свинцовых руд, которые имеются на территории Нахчыванской АР – это Гюмушлугское и Агдаринское месторождения.

Гюмушлугское месторождение расположено в гористой местности на левом склоне долины реки Арпачай, на высоте 1100 – 1200 м. Минералогическое изучение руд Гюмушлугского месторождения показало, что там содержится, в основном, такие минералы, как галенит и сфалерит. Редко встречаются халькопирит, аргентит, малахит, блеклые руды, халькозин, ковеллин и другие. Галенит составляет 80 - 85% руды [3, с. 219, 225].

Особо следует обратить внимание на состав руд Агдаринского месторождения, расположенного в Ордубадском районе Нахчыванской АР. Оно находится на склоне горы Карангуч на высоте 2300 – 2500 м. вдоль русла ручья Агдара. В геологической литературе имеются сведения о минералогическом составе руд Агдаринского месторождения – это, в основном, свинцовые, цинковые и медные минералы. Главными минералами являются галенит, сфалерит, халькопирит. Другие характерные для этого месторождения минералы – это тетраэдрит и теннантит (мышьяковые минералы). Среды редких минералов заслуживают внимание аргентит (минерал серебра) и касситерит (минерал олова).

Агдаринское месторождение относится геологами к медно – полиметаллическому типу. Процентное содержание свинца и цинка в руде непостоянно, колеблется в больших пределах. В геологической литературе отмечается, что снизу (от подошвы) кверху рудной залежи происходит увеличение содержания свинца и уменьшение цинка [3, с. 230 – 231].

Результаты наших анализов показывают, что в исследуемый период разработка велась, в основном, в верхних горизонтах.

Содержание серебра в исследуемых изделиях связано с аргентитом, который находится в вышеотмеченных месторождениях. Обычно серебро сопутствует галениту, поэтому не исключена возможность нахождения серебра в галените.

Обращает на себя внимание малое содержание касситерита в рудах Агдаринского месторождения. Результаты анализа показали также незначительное содержание олова в изделиях № 4, 6, 7, 8, 9, 10 (см. табл.).

Серебро содержится почти во всех предметах: его содержание можно связать с аргентитом Агдаринского месторождения, что во многом свидетельствует об использовании этих руд при изготовлении исследуемых изделий. Содержание в руде Агдаринского месторождения мышьяковых минералов теннантита и тетраэдрита, а также содержание

мышьяка в исследуемых изделиях, говорит о том, что они могли перейти в сплав при плавке этих руд. По набору минералов, Гюмушлугское месторождение отличается от Агдаринского месторождения. В пользу использования Агдаринского месторождения говорят также небольшие естественные примеси цинка, присущие этому месторождению. Поэтому использование руд Агдаринского месторождения не должно вызывать сомнение при выплавке сплавов, из которых изготовлены исследуемые изделия. Вероятность использования руд Агдаринского месторождения в данном случае очевидна.

Необходимо отметить, что зона окисления на Агдаринском месторождении распространяется на глубину около 2 м., которая характеризуется наличием соединений свинца [3, с. 231 – 234]. Руда добывалась в верхних горизонтах, о чем свидетельствует малое содержание цинка, которое находится в глубинных горизонтах.

Месторождения меди на территории Нахчыванской АР имеются также в Ордубадском районе – это в основном Мисдагское, Диахчайское, Агюртское, Шекердеринское, а также несколько проявлений Гек – Гельское, Шалалинское, Шилядзорское, Пазмаринское, Ванандчайское. Заслуживает внимание Мисдагское месторождение, которое расположено на юго – западном склоне Зангезурского хребта. Оно находится в верховьях р. Ванандчай, на высоте 3000 – 3800 м. Протяженность отдельных рудных зон 300 – 2560 м, мощность 0.1 – 1.3 м. В руде этого месторождения присутствуют, в основном, халькопирит, борнит, ковеллин, халькозин, альдогонит (медно – мышьяковый минерал) и другие минералы в небольшом количестве. На поверхностных зонах месторождения содержание меди находится в пределах от 0.3 до 11% (преобладают 2 – 3 % а для всех зон, в том числе и глубинных) в среднем, содержание меди 2.5% [4, с. 235].

Особенностью этого месторождения является то, что с глубиной содержание меди уменьшается до 0.3%. Такое положение, естественно, во многом способствовало разработке этого месторождения с древнейших времен.

Следует отметить, что в остальных вышеперечисленных месторождениях содержание меди резко увеличивается с глубиной (до 1.6%), а поверхностные руды, характеризуются незначительным содержанием меди (от 0.1 до 0.5%).

Необходимо отметить, что во всех перечисленных месторождениях медные руды представлены, в основном, халькопиритом, встречается также арсенопирит, альдогонит; другие минералы незначительны.

При изучении результатов анализов выяснилось, что примеси микроэлементов в исследуемых изделиях во многом соответствуют ру-

дам Мисдагского и Агдаринского месторождениям. Использование халькопирита подтверждается наличием в исследуемых изделиях примеси железа. Примеси висмута и мышьяка также соответствуют рудам Мисдагского месторождения. Примеси свинца, цинка, сурьмы, мышьяка, серебра, никеля и незначительное содержание олова, во многом, сходно с рудами Агдаринского месторождения.

Известно, что оловянистая бронза еще в III тыс. до нашей эры широко применялась на всей территории Малой Азии [11, с. 107 – 108].

Однако, на территории Азербайджана единичные изделия, содержащие олово, начинают появляться с начала III тысячелетия до н. э. в археологических памятниках Бабадервиш, Гобустан, Карабулак. Эти изделия, вероятно, являются привозными – Анатолийского происхождения. Это можно сказать, ссылаясь на древнейшие разработки оловянных проявлений, которые находятся на территории Малой Азии.

При этом, следует отметить, что оловянные проявления Малой Азии малочисленные и маломощные. Они расположены в районе современных городов Турции Гюмеле и Биледжик и в настоящее время полностью истощены [11, с. 107 – 108].

Однако, изделия исследуемого периода, содержащие повышенную примесь олова, вряд ли можно связать с Анатолийскими проявлениями.

При этом следует отметить, что в исследуемый период в развитые Переднеазиатские страны олово доставлялось из оловоносных месторождений Средней Азии, где проходит мощный оловянный пояс и Ирана [10, с. 39 - 64]. Высокое содержание олова в исследуемых изделиях говорит о том, что его было достаточно на территории Нахчыванского края. Следует также отметить, широкое развитие в исследуемый период торгово – экономические связи племен, населявших территорию Нахчывана, с племенами стран Ближнего Востока, которое способствовало становлению и развитию бронзовой металлургии в этом регионе. Познания о бронзе и его получение были заимствованы у металлургов восточных стран, где бронза появилась раньше [8, с. 102 – 111].

Изготовление медных украшений в исследуемый период является закономерным.

Следует отметить, что выплавка меди по сравнению с бронзой более трудоемкий процесс. Это связано, во-первых, с высокой температурой восстановления меди из руд (1000 С), во – вторых, быстрым окислением кислородом воздуха полученной меди. Поэтому получение меди требует тщательной регулировки процесса плавки. В начале плавки для достижения высокой температуры необходимо достаточное

содержание кислорода в печи. При достижении необходимой температуры следует прекратить доступ кислорода, чтобы предотвратить окисление полученной меди. Уловить момент восстановления меди и остановить вовремя подачу кислорода, с целью предотвращения окисления меди, может только опытный плавильщик, обладающий большим мастерством. Для этого необходимо вовремя накрыть печь или тигель, где плавится медь, специальной крышкой [7, с. 84 – 85].

Таким образом, на основании результатов анализов и проведенных исследований с привлечением геологических данных выяснилось, что при изготовлении исследуемых изделий использовались руды Мисдагского и Агдаринского месторождений [4, с. 242 – 245]. При этом необходимо отметить, что в исследуемый период на территории Нахчыванского края сохранились традиционные медно – рудные источники, которые снабжали металлургов еще в период Куро – аракской культуры [9, с. 275 – 278]. В заключение следует отметить, что исследуемые изделия являются продукцией местного производства из руд локальных месторождений с добавкой привозного олова.

**Таблица**

**Результаты количественного спектрального анализа еталлических изделий из курганных захоронений эпохи средней бронзы с. Чалхангала Нахчыванской АР**

| | Предмет, вес. | Содержание элементов в вес % | | | | | | | | | | | Тип сплава |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Sn | Pb | Zn | As | Sb | Aq | Au | Bi | Ni | Co | Fe | |
| 1 | Булавка,2 г. | 0 | 0.5 | 0.1 | 2.5 | 0 | 0.08 | 0 | 0.015 | 0 | 0 | 0 | Cu-As-Pb |
| 2 | Фраг.наконечника копья 3 г. | 12.0 | 0.55 | 0.01 | 0.4 | 0.05 | 0.07 | 0 | 0.02 | 0.015 | 0.002 | 0.03 | Cu-Sn-Pb |
| 3 | Кинжал, 300 г. | 9.2 | 0.82 | 0.01 | 0.5 | 0.03 | 0.05 | 0 | 0.02 | 0.03 | 0.005 | 0.2 | Cu-Sn-Pb-As |
| 4 | Фраг. височной подвески, 4 г. | 0.3 | 0.3 | 0.1 | 0.2 | 0 | 0.08 | 0 | 0.02 | 0 | 0 | 0.02 | Cu |
| 5 | Фрагмент клинка, 6 г. | 8.5 | 0.55 | 0.01 | 0.4 | 0.3 | 0.05 | 0 | 0.005 | 0.03 | 0.005 | 0.3 | Cu-Sn-Pb |
| 6 | Булавка , 7 г. | 0.01 | 0.2 | 0.2 | 1.7 | 0.002 | 0.056 | 0 | 0.03 | 0.01 | 0 | 0.07 | Cu-As |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 7 | “---------“ 7 г. | 0.01 | 0.07 | 0 | 0.33 | 0.005 | 0.03 | 0 | 0.01 | 0.01 | 0 | 0.12 | Cu |
| 8 | “---------“ 7 г. | 0.04 | 0.2 | 0 | 1.75 | 0.005 | 0.02 | 0 | 0.03 | 0.01 | 0 | 0.03 | Cu-As |
| 9 | “---------“ 7 г. | 0.005 | 0.3 | 0.3 | 0.3 | 0.4 | 0.005 | 0 | 0.03 | 0.01 | 0 | 0.01 | Cu |
| 10 | **Наконечник копья, 280 г.** | 0.05 | 0.04 | 0.44 | 0.3 | 0 | 0.0051 | 0 | 0 | 0.004 | 0 | 2.0 | Cu |

Примечание: Все изделия на медной основе, обнаружены археологом В.Г.Алиевым. Датированы XVIII - XVII вв. до. н. э.

## ЛИТЕРАТУРА

1. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, Элм, 1991 – 256 с.
2. Бэр Д. Ч. Откуда добывалось олово, входящее в состав древнейшей бронзы? Издательство Московского археологического общества. т. VII, вып. 3. Москва, 1877, с. 234 – 240.
3. Геология Азербайджана. Рудные полезные ископаемые. т. VI. Издательство АН Азербайджанской ССР, Баку, 1961 - 368 с.
4. Геология СССР. Азербайджанская ССР. Полезные ископаемые. т. XLVII, Издательство Недра, Москва, 1976 – 357 с.
5. Селимханов И.Р. Историко – химические и аналитические исследования древних предметов из медных сплавов. Издательство АН Азербайджанской ССР. Баку, 1960 – 184 с.
6. Эфендиев Г.Х. Гидротермальный рудный комплекс северо – восточный части Малого Кавказа. Издательство АН Азербайджанской ССР, Баку, 1957 – 345 с.
7. Coghlan H.H. Notes on the Prehistoric Metallyrgy of Copper and bronze in the Old World. 2 ndedn. Oxford, 1975, pp. 75 – 84.
8. Lamberg – Karlovsky C.C., Martha An. Early city in Iran, Scientific American, 1972, vol. 224, № 6, pp. 102 – 111.
9. Seyidov A. Q., Hasanova A.M. The ancient metal of Nakhchivan. Baku, Elm, 2005 – 315 p.
10. Stech T., Pigott V.C. The metals trade in South West Asia in the third Millennium BC. Iraq: 1986. vol. XLVIII, pp. 39 – 84.
11. Ufuk Essin. Kuantaif spectral analiz yardımıyla Anadoluda baştangıcından Aşur kolanileri caqına kadar barık ve tunc madenciliyi. Tac matbaası. İstanbul, 1969 - 243 s.

## ÇALXANQALA KURQANLARINDAN AŞKAR OLUNMUŞ METAL MƏMULATIN TƏDQİQİ

**Əzizəxanım Həsənova**

**Xülasə**

**Açar sözlər:** Azərbaycan, kurqanlar, Çalxanqala, Naxçıvan, analitik tədqiqat, metal əşyalar, tunc, qalay, filiz yataqları.

Təqdim olunan işdə Naxçıvan MR – nın Çalxanqala kəndində kurqan qəbirlərdən aşkar olunmuş metal məmulatlar tədqiq olunur. Bu məmulatlar arxeoloq V.Q.Əliyev tərəfindən aşkar olunmuşdur. Bunlar: 2 nizə ucluğu, 5 sancaq, 2 xəncər və asma parçasından ibarətdir. Qazıntının müəllifi tədqiq edilən kurqanları e. ə. XVIII – XVII əsrlərə aid etmişdir. Tədqim olunan əşyalar AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Arxeoloji Texnologiya Sektorunda miqdari spektral analiz metodu ilə tədqiq olunmuşdur. Analizin nəticələri göstərmişdir ki, bu əşyalar mis əsasında olan ərintilərdən hazırlanmışlar. Tədqiq olunan əşyaların dördü xalis misdən hazırlanmışdır və onların tərkibində olan cüzi miqdarda müxtəlif təbii qarışıqlar istifadə olunan filizlərdən keçmişdir. Onlardan üçü tuncdur və yüksək faizli qalaydan [12% qədər] hazırlanmışlar. İki əşya mis – arsen ərintisindən hazırlanıb, arsenin miqdari 2.5% - ə qədər təşkil edir.

Analizin nəticələri göstərmişdir ki, tədqiq olunan əşyalar Naxçıvan MR ərazisində olan mis və digər filizlərdən və Yaxın Şərqdən ticarət yolu ilə gətirilən qalaydan hazırlanmışlar.

## RESEARCHING OF METALLIC WARES FROM OF CHALKHANGALA BARROWS

**Azizakhanim Hasanova**

**Summary**

**Key words:** Azerbaijan, barrow, Chalkhangala, Nakhchivan, analytical investi-gation S. metallic artifact S. bronze, tin, ore S. deposits.

In present work investigated metallic objects discovered in kurgan burials in village Chalkhangala of Nakhchivan AR. Those artifacts discovered by the archaeologist V.Q. Aliyev and date him to XVIII-XVII BC. They are 2 spear’s head, 5 pin S. 2 dagger and fragment of hanging. Those artifacts analyzed in the Sektor of Archaeological technology of Institute of Archaeology and Ethnography of National Academy of Sciences of Azerbaijan by the methods of quantitative spectral analysis.

The result of analysis of those artifacts show that they basis of copper. Four of them prepared from the pure copper of some different impurities containing in ores. Two of those artifacts contain high percentage of tin, containing until 12%. Two of them prepared from the copper-arsenic alloy S. arsenic - until 2.5%.

Analytical investigations show that, all of those artifacts are of local production and made from the copper ores there are on the territory of Nakhchivan AR and import tin from the Near East.

# DAŞDAN HAZIRLANMIŞ TOPPUZ BAŞLARININ DÖVRÜ VƏ AREALI HAQQINDA

**Bəhlul İbrahimli**
(AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu)
ibrahimlib@mail.ru

**Açar sözlər:** Naxçıvan, qəbir, daş toppuz, tunc dövrü.

Qəbir abidələrində aşkar edilən ən qədim silah növlərindən biri də daşdan hazırlanmış toppuz başlarıdır. Naxçıvan abidələrində müxtəlif cinsli daşlardan hazırlanmış toppuz başları Qızılburunda, I Kültəpədə, II Kültəpədə və Plovdağda aşkar edilmişdir. Naxçıvan daş toppuzları haqqında O.Həbibullayevin (1, s.60-61), V.Əliyevin (2, s.91) və M.Seyidovun (3, s. 49-50) əsərlərində onların ölçüləri və formaları haqqında kifayət qədər məlumat verildiyindən və analoqları göstərildiyindən bu haqda ətraflı bəhs etməyəcəyik.

Daş toppuzlar Kür-Araz mədəniyyəti abidələrində daha geniş yayılmışdır. Bu baxımdan Xçanaket, və Xankəndi kurqanlarını, Mingəçevir, Kültəpə, Baba-Dərviş, Qaraköpəktəpə, Qobustan yaşayış yerlərini və Xaçbulaq kurqanlarını göstərmək olar (3, s. 49).

Aşkar edilmiş toppuz başları əsasən iki formadadır – şar şəkilli və armudşəkilli. Üçüncü – yumurtaşəkilli daş toppuz başlarına çox az təsadüf olunur. (4. tab. X, şək. 13). V.Əliyevin fikrincə, eneolit və ilk tunc dövründən məlum olan şarşəkilli daş toppuzlar orta tunc dövrü üçün daha xarakterikdir (2, s.91). Qızılburun nekropolunda aşkar edilmiş üç ədəd armudşəkilli daş toppuzu B.Piotrovski e.ə. II minilliyə aid edir (5. s.48).

O.Həbibullayev, I Kültəpədə daş toppuz başları ilə birlikdə aşkar olunmuş əşyaları təhlil edərək onların əkinçilik mədəniyyəti üçün xarakterik olduğunu müəyyənləşdirmiş və qədim kültəpəlilərin də əsas təsərrüfat sahəsinin əkinçilik olduğunu qeyd etmişdir (1, s.61-62).

Daş toppuz başlarının ortasında, şaquli istiqamətdə deşiyi vardır. Bəzi toppuz başlarında bu deşiklər yuxarıya doğru daralaraq konus formasını alır. Axıradək hazırlanmamış və ya hazırlanarkən sınmış nümunələrin tapılması daş toppuzların yerlərdə hazırlandığını göstərir. Naxçıvan abidələrindən yüksək möhkəmliyə və zəngin ehtiyata malik, qaramtıl göy rəngli, qranit tərkibli çay daşlarından hazırlanmış təkcə toppuz başları deyil, eyni zamanda çoxlu sayda müxtəlif əmək alətləri də əldə olunmuşdur.

Eyni cinsli daşdan və identik formada hazırlanmış toppuz başlarının bir mərkəzdə hazırlandığını da ehtimal etmək olar.

I Kültəpənin alt təbəqəsindən (eneolit dövrünə aid) həm şarşəkilli, həm də armudşəkilli daş toppuz başları aşkar edilmişdir (1, s. 60). Şarşəkilli top-

puz başları çay daşından (qranitdən) və ağ mərmərdən hazırlanmışdır. Çay daşından hazırlanmış toppuz başları ağ mərmərdən hazırlanmış toppuz başlarına nisbətən daha yaxşı cilalanmışdır (1, s.60).

Armudşəkilli toppuz başları da müxtəlif cinsli daşlardan hazırlanmışdır. Onlardan biri boz rəngli dağ daşından, digəri isə mərmərə oxşar möhkəm daşdandır. Daş toppuzların əksəriyyətinin ağ rəngli mərmərdən və qara rəngli qranitdən və ya hematitdən hazırlanması heç də təsadüfi deyil. Belə ki, bu iki rəng (ağ və qara) daş toppuzların yayıldığı qədim əkinçilik mədəniyyətlərində, eneolitdən ta son tunc dövrünə qədər, uzun bir xronoloji dövrdə dəyişilməz qalmışdır. Əgər ağ və qara rənglərin qəbirlərdə aşkar edilən keramikada və muncuqlarda da rast gəlindiyini nəzərə alsaq, onda təkcə əşyaların deyil, onların rənglərinin də kult xarakteri daşıdığını və müəyyən semantik mənası olduğunu ehtimal etmək olar.



I Kültəpədən tapılmış daş toppuzlar. M. M. Seyidovun "Naxçıvan ərazisində son tunc və erkən dəmir dövrü mədəniyyəti" kitabından.

I Kültəpədə tapılmış toppuz başları Naxçıvan ərazisində aşkar olunmuş ən qədim silah növləridir (1, s. 60). O.Həbibullayev qeyd edir ki, əgər toppuz başları nəzərə alınmazsa, demək olar ki, eneolit dövrü təbəqəsindən heç bir silah növü tapılmamışdır (1, s. 62). Bu əşyaların qədim silah növü olmasını Mingəçevir tapıntıları da təsdiq edir (4, s. 31). Mingəçevirdə yaşayış yerinin alt təbəqəsindən tapılmış daş toppuz başları və onların təyinatı haqqında tədqiqatçıların fikirləri olduqca maraqlıdır. Tədqiqatçılar bu əşyaları "toppuza oxşar silahlar" adlandıraraq onların bəzilərinin heç də toppuz başı olmadığını əsaslandırmağa çalışmışlar. Mingəçevir daş toppuzlarının demək olar ki, hamısı eyni ölçüdə olub (az fərqlə), yalnız formalarına görə fərqlənirlər (4, s.31). Onların çoxu armudşəkilli, qalanları isə şarşəkilli və yumurtaşəkilli formadadırlar. Deşik əşyanın hər iki tərəfindən açılaraq ortada birləşir və kəsikdə ucları bir-birinə birləşmiş iki konusa oxşayır (4, s.31). Bu deşiklər onların toppuz başı olduğunu təkzib edir, ona görə ki, belə deşikli toppuz başını düz saplağa keçirmək mümkün deyil (4, s.31). Ola bilsin ki, bu alətlər qayışa bağlanırmış və onlardan əmud (kisten) və bola (üçdaşlı tulazdırma) kimi istifadə olunurmuş. Ehtimal ki, qayışın bir ucunu düyünləyib, o biri ucunu daş alətin deşiyindən keçirib dartırdılar. Deşik konusvari quruluşa malik olduğundan qayışın düyünlü tərəfi əşyanın ortasında dayanırdı. Beləliklə çox yaxşı uzaqvuran silah alınırdı (4, s.31). Mingəçevirin alt təbəqəsindən (e.ə. III minilliyə aid) tapılmış toppuz başlarının əksə-

riyyəti yuxarıda təsvir olunan formadadır. Mingəçevir tədqiqatçıları bu silahların, insanların daşı deşməyi öyrəndiyi vaxtdan mövcud olduğu fikrini irəli sürürlər və arxeoloji ədəbiyyata (4, iqt.5) istinad edərək oxşar daş toppuz başlarının Şimali Qafqazın, Cənubi Sibirin və İranın neolit və eneolit dövrü abidələrində (o vaxtkı xronoloji bölgüyə görə) tapıldığını qeyd edirlər (4, s. 31).

Arxeoloji ədəbiyyatda daş toppuzların hazırlanmasında yumşaq daşlardan da istifadə olunduğu qeyd olunur (3, s.49). Bu toppuzlardan döyüş silahı kimi istifadə olunması bir qədər şübhəlidir və onlar ola bilsin ki, qəbrə şan-şöhrət rəmzi kimi qoyulmuşdur. Naxçıvanın daş toppuzları haqqında M.Seyidovun aşağıdakı fikirləri də maraqlıdır: "Daş toppuzlar mövcud olduqları müddət ərzində, başlıca olaraq, döyüş silahı kimi istifadə olunmuşdur. Onlardan bəzi vəhşi heyvanların ovlanmasında da istifadə edildiyi istisna olunmur. Bununla yanaşı ehtimal etmək olar ki, bəzi toppuzlardan, məsələn, cilalanmış mərmər və gematit toppuzlardan çomaq (çomaq başı – B.İ.) kimi də istifadə edilmişdir" (3, s.50).

V.Baxşəliyev də toppuz başlarından ovda istifadə olunduğu fikrini irəli sürür. Lakin tədqiqatçılardan heç biri toppuzdan ovda necə istifadə olunduğunu açıqlamır. Toppuz yaxın döyüş silahıdır və onunla vəhşi heyvana zərbə endirmək üçün kifayət qədər yaxınlaşmaq təhlükəlidir və mümkün deyil. Ehtimal ki, ov zamanı bu toppuz başlarından toppuz kimi yox tulazdırma kimi istifadə olunmuşdur. Kəmənddən fərqli olaraq tulazdırma ovu tutmur, onun ayaqlarına dolaşaraq yerə yıxır və ya güclü zərbənin təsirindən ov yıxılır. Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisindən tapılmış ilk dəmir dövrünə aid daş toppuzlardan çox güman ki, ancaq ov silahı kimi istifadə olunmuşdur. Bu daş toppuzlar, ola bilərdi ki, güclü və bacarıqlı, lakin kasıb adamların qəbrinə bir fərqləndirmə rəmzi kimi də qoyulardı.

Qafqazda ovçuluğun qədimdə olduğu kimi son tunc dövründə də xüsusi əhəmiyyət daşıdığını və bunun yarımköçəri (yaylaq) maldarlıqla bağlı olduğunu N.Y.Marr və B.B.Piotrovski qeyd etmişlər (5, s. 91-93).

M.Seyidovun irəli sürdüyü toppuz başlarından çomaq başı kimi istifadə olunması da maraqlı və inandırıcı ehtimaldır. Bu ehtimalı gücləndirən, toppuz başlarının tapıldığı qəbir-



R.Vahidovun "Qədim Mingəçevir" kitabından (X tablo).

lərdə tağalaqların da aşkar olunmasıdır. Tağalaq və çomaq qoyunçuluq təsərrüfatında geniş istifadə olunan əmək alətləridir. Lakin qeyd etmək lazımdır ki, yalnız kiçik həcmli, nisbətən yüngül toppuz başlarından çomaq başı kimi istifadə etmək olardı. Uzunluğu 1,5-2,0 m olan belə çomaqlar eyni zamanda (ən azı vəhşi heyvanlardan qorunmaq üçün) müdafiə silahı kimi də istifadə oluna bilərdi. Çox güman ki, son tunc və ilk dəmir dövründə çomaqların başı daha çox tuncdan bir tərəfi bağlı boru şəklində hazırlanır və üzərində mıxça ilə ağaca bərkitmək üçün deşikləri olurdu (6, s. 109).

Naxçıvanda e.ə. II minilliyin sonlarına qədər daş toppuz başlarının formasında, çox az dəyişikliklər olmuşdur. Bu dəyişikliklər armudşəkilli toppuz başlarının boğaz hissəsinin nisbətən uzanmasında və boğazının kənarında relyefik kəmərin – boyunluğun qoyulmasında özünü göstərir.

Tunc dövründə daşdan hazırlanmış toppuz başları Ön Asiyada, Mərkəzi Asiyanın cənub-qərb bölgələrində və Cənubi Qafqazın Qabaq Asiyaya yaxın rayonlarında geniş yayılmışdı. Daşdan hazırlanmış toppuz başlarının yayılma arealı boyalı qablar mədəniyyətinin yayılma arealı ilə nisbətən üst-üstə düşür. Daşdan hazırlanmış toppuz başları Yaxın Şərqin əkinçilik mədəniyyətləri üçün xarakterik olub müəyyən zaman çərçivəsində mövcud olmuşdur (7, s.50).

Cənubi Qafqazda daş toppuz başları digər regionlardan daha əvvəl tunc toppuz başları ilə əvəz olunmağa başlayır. Məsələ ondadır ki, Cənubi Qafqazın, ilk növbədə I Kültəpənin daş toppuz başlarının tarixi Elamın və Cənub-qərbi Türkmənistan toppuz başlarının tarixindən olduqca qədimdir. Belə ki, I Kültəpənin eneolit dövrü təbəqəsindən tapılmış daş toppuz başlarının oxşarları həmin regionların son tunc dövrü abidələrində aşkar olunmuşdur və adətən dəfn olunanın cəmiyyətdə nüfuz sahibi olduğunu bildirir. Bu dövrdə isə daş toppuz başları Cənubi Qafqazda, o cümlədən Naxçıvanda artıq istifadədən çıxmış, onları öz lokal xüsusiyyətləri ilə seçilən və dəfn olunanın cəmiyyətdə yüksək mövqe tutduğunu bildirən tunc toppuz başları əvəz etmişdir. İ.N.Xlopin II Parxay nekropolunun e.ə. III minilliyin əvvəllərinə aid edilən 9N-li qəbrində, ağ əhəng daşından hazırlanmış həlqə və tunc mıxça (toppuz başını ağaca bərkitmək üçün) ilə birlikdə tapılmış, yaşılımtıl rəngli daşdan, çox gözəl cilalanmış yumurta formalı toppuz başını bu adətin ən qədim variantı hesab edir (7, s.69,). Yuxarıda qeyd etdiyimiz kimi, bu adət I Kültəpədə artıq eneolit dövründə mövcud idi.

İ.N.Xlopin Cənub-qərbi Tükmənistanın və Elamın həmdövr abidələrində aşkar edilmiş daş toppuz başlarının müqayisəli təhlilini aparmış və maraqlı nəticələr əldə etmişdir (7, s.50-53). Cənub-qərbi Türkmənistandan şərqə tərəf yalnız Tacikstanda bir ədəd daş toppuz başı tapılmışdır ki, onu da import hesab etmək olar. Sumbar vadisində 12 ədəd, Elamda isə, təkcə Kiririşi məbədində onlarla daş toppuz aşkar edilmişdir. Hər iki regiondan tapıl-

mış toppuz başları demək olar ki, formaca bir-birinin eynidir. Hər iki regionda toppuz başları qara və ağ rəngli daşlardan hazırlanmışdır. Sumbar vadisində ancaq şarşəkilli toppuz başları qara daşdan hazırlanmışdır. Elamda isə qara daşdan hazırlanmış armudşəkilli toppuz başlarına da rast gəlinir.

Elam abidələrindən tapılmış bir çox toppuz başlarının üzərində e.ə. 1310-1300-cü illərdə hakimiyyətdə olmuş Elam çarı Attarkittahın adına rast gəlinən yazı vardır (7, s.51).

Elam özünün şimal qonşularına – gələcək Midiya tayfalarına güclü təsir edərək burada dövlətin əmələ gəlməsinin əsasını qoymuşdur.Elamın eyni siyasi-mədəni təsiri Cənub-qərbi Türkmənistana da olmuşdur. Sumbar nekropollarında aşkar edilmiş toppuz başları ilə hər cəhətdən oxşar olan Elam toppuz başlarının, Sumbar mədəniyyətinin xronoloji çərçivəsini təsdiq etmək üçün cəlb olunması düzgündür (7, s.52).

Naxçıvan abidələrində aşkar edilmiş toppuz başlarının dövrünün müəyyən edilməsində bu təcrübədən istifadə etmək məntiqə uyğundur. Belə ki, Elam qədim sivilizasiya mərkəzi sayılan Mesopotamiya ilə yaxındır və mədəni inkişafın təsir yollarından biri də Elamdan Urmiya ətrafına oradan da Cənubi Qafqaza keçmişdir. Lakin, arxeoloji tədqiqatlar göstərir ki, mədəni təsir bütün sahələrdə bir tərəfli olmamışdır. Bəzi regionların (bir çox tədqiqatçıların qeyd etdiyi kimi periferiyanın) da sivilizasiya mərkəzinə müəyyən qarşılıqlı mədəni təsiri olmuşdur. Bu təsir, özünü Kür-Araz mədəniyyəti üçün səciyyəvi olan dairəvi planlı yaşayış evlərinin Yaxın Şərq ölkələrində yayılmasında, əlində kasa dəfn adətində və s. özünü göstərir. Beləliklə, aydın olur ki, Cənubi Qaf-qaz, o cümlədən Azərbaycan (Urmiya gölü hövzəsi də daxil olmaqla) Qədim Şərqin inkişaf etmiş ölkələri üçün həmişə xammal mənbəyi olmamış, eyni zamanda həmin ölkələrə müəyyən mədəni təsir də göstərmişdir. Belə mədəni təsiri daş toppuzların yayılmasında da görürük.

Yuxarıda adı keçən regionlarda aşkar edilmiş toppuz başlarının böyük əksəriyyəti formaca eyni olsalar




Toppuz başları. 1-3 Sumbar qəbristanlıqlarından, 4-6 Elamdan. (İ. N. Xlopinin "Cənub-qərbi Türkmənistan son tunc dövründə" kitabından).

da onlar yerlərdə istehsal olunmuşdur. Aralıq dənizinin şərq sahillərindən başlayaraq Cənub-qərbi Türkmənistanda və Cənubi Qafqazda rast gəlinən hematitdən, çox nəfis şəkildə hazırlanmış armudşəkilli toppuz başlarının bir istehsal mərkəzində hazırlandıqlarını onların həm materialı, həm forması, həm də ölçüləri təsdiq edir.

I Plovdağ nekropolunda aşkar edilmiş simmetrik şəkildə nəfis hazırlanmış toppuz başı bu sıradandır. Bu toppuz başının da, Elam və Cənub-qərbi Türkmənistan abıdələrində aşkar edilmiş analoji toppuz başlarında olduğu kimi boğaz hissəsində relyefik boyunluğu vardır. Şarşəkilli toppuz başlarında bu əlamətə rast gəlinməmişdir. Armudşəkilli toppuz başlarını fərqləndirən bir cəhət də onların çox yaxşı cilalanması və simmetrik hazırlanmasıdır. Bu toppuz başlarının istehsal mərkəzi hələlik müəyyən edilməmişdir.

Daşdan hazırlanmış toppuz başlarından yalnız döyüş silahı kimi istifadə olunduğunu demək çətindir. Müxtəlif tarixi dövrlərdə onların müxtəlif funksiyaları olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi O.Həbibullayev I




Qızılburundan (1-A. Spitsin), Plovdağ (2) nekropollarından tapılmış daş toppuzlar.

Kültəpədən tapılmış eneolit dövrünə aid toppuz başlarını ilk silah növü kimi səciyyələndirir (1, s. 60). İ.N.Xlopin Sumbar vadisində aşkar edilmiş son tunc dövrünə aid toppuz başlarını isə şan-şöhrət rəmzi kimi qiymətləndirir (7, s. 50-52).

Elamın armudşəkilli daş toppuzlarının üzərindəki yazıları və Mingəçevirin eyni formalı daş toppuzları üzərindəki paralel xətləri nəzərə almasaq daş toppuz başlarının üzərində naxışa demək olar ki, rast gəlinmir. İran, Elam, Cənubi-qərbi Türkmənistan və Aralıq dənizinin şərq sahillərində geniş yayılmış, aşağısındakı deşiyinin ətrafını haşiləyən relyefik kəməri olan armudşəkilli toppuz başı Azərbaycanda, hələlik, yalnız Plovdağda aşkar edilmişdir. Bir faktı da qeyd etmək lazımdır ki, son tunc dövründə ən çox armudşəkilli toppuzların tuncdan oxşarlarının istehsalı genişlənmişdir. Ümumiyyətlə, e.ə. IX-VIII əsrlərdə dəmirin geniş yayılması ilə dəvəgözü və çaxmaq daşlarından hazırlanmış ox uclarının, oraq dişlərinin, bıçaqların,

qranit, hematit və ağ mərmərdən hazırlanmış toppuz başlarının istifadəsi dayanır.

Maraqlıdır ki, son tunc dövründə Xəzər dənizinin cənub-şərq, cənub və cənub-qərb sahilyanı ölkələrində yayılmış mədəniyyətlərin bir çox sahələrdə, iqtisadi-siyasi və mədəni əlaqələrdən doğan oxşar cəhətləri vardır. Bu oxşar cəhətlər özünü təkcə toppuz başlarında deyil, eyni zamanda bəzi keramika tiplərində (“camış dərisi rəngli keramikada”, çaynik tipli qablarda), dəfn adətlərində və bəzi qəbir tiplərində göstərir. Bu isə Yaxın Şərq ölkələrinin ona yaxın ərazilərlə intensiv iqtisadi-mədəni əlaqələrinin olduğunu sübut edir.

## ƏDƏBİYYAT:

1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, Элм, 1982.
2. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, Элм, 1991.
3. Seyidov M.M. Naxçıvan ərazisində son tunc və erkən dəmir dövrü mədəniyyəti. Bakı, Bakı Universiteti nəşriyyatı, 2012.
4. Асланов Г.М., Р.Ваидов, Г.И.Ионе. Древний Мингечаур (эпоха энеолита и бронзы). Изд-во АН Азерб. ССР, Баку, 1949.
5. Пиотровский Б.Б. Археология Закавказья. Ленинград, Изд-во Гос.Университета им. А.А.Жданова, 1949.
6. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Azərb. SSR EA nəşriyyatı, Bakı, 1959.
7. Хлопин И.Н. Юго-западная Туркмения в эпоху поздней бронзы. Наука, Ленинград, 1983.
8. Спицын А.С. Некоторые Закавказские могильники. Известия ИАК, выпуск 29, СПб, 1909.

## THE AREA OF DISTRIBUTION AND DATING OF STONE TIPS OF MACES FROM NAKHCHIVAN

**Bahlul Ibragimli**

### Summary

**Key words:** Nakhchivan, tomb, mace, Bronze Age.

One of the weapon types found in the monuments of the Bronze Age, are stone tips of maces. Experts consider them as characteristic subject to the ancient agricultural cultures. In Nakhchivan they are found in Kizilburun, Kultepe I, Kultepe II and Plovdagh. The shapes of the stone tips of maces are mainly spherical and pear-like.

They are made of different types of stone - of hematite, of white marble, and very rarely, of gray tuffite. Most professionals consider stone mace tips as one of the oldest weapons. There are other opinions. Since M.Seidov considered some types of stone mace tips of Nakhchivan as shepherds` club tip S. I. N. Khlopin consider stone mace tips found in burial tombs of Sumbar as objects of prestige.

Widely used in the Bronze Age in the South-western Asia, South Caucasus and South-western Turkmenistan, stone mace tips in our opinion, have different purposes depending on their shape.

## АРЕАЛ РАСПРОСТРАНЕНИЯ И ДАТИРОВКА КАМЕННЫХ НАВЕРШИЙ БУЛАВ ИЗ НАХЧЫВАНА

**Бахлул Ибрагимли**

### Резюме

**Ключевые слова:** Нахчыван, погребение, навершие булав из камня, эпоха бронзы.

Одним из видов оружия, обнаруженных в памятниках эпохи бронзы, являются каменные навершия булав. Специалисты считают их характерным предметом для древних земледельческих культур.

В Нахчыване они найдены в Кызылбуруне, Кюльтепе I, Кюльтепе II и на Пловдаге.Форма каменных наверший булав, в основном, шаровидная и грушевидная. Они изготовлены из разных пород камня – из гематита, из белого мрамора, и очень редко, из серого туфита.

Большинство специалистов каменные навершия булав считают одним из самых древних видов оружия. Есть и другие мнения: так некоторые виды каменных наверший булав Нахчывана М.Сеидов считает навершиями дубин пастухов, а И.Н.Хлопин, обнаруженные в погребениях Сумбарских могильников каменные навершия булав - предметами престижности.

Широко распространённые в эпоху бронзы в Передней Азии, на Южном Кавказе и в Юго-западной Туркмении каменные навершия булав, по нашему мнению, имели разное назначение в зависимости от своей формы.

# İNZİBATİ-ƏRAZİ, TOPONİM DƏYİŞİKLİKLƏRİ VƏ ARXEOLOJİ ABİDƏLƏR

**Mübariz Xəlilov**
(AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu)
xalilov_az@yahoo.com

**Açar sözlər:** toponim dəyişiklikləri, arxeoloji abidələr, xəritə, Azərbaycan, eyniləşdirmə.

Azərbaycan ərazisində yaşayış məntəqələrinin tarixi adlarının bərpası, yeniləri ilə əvəz olunması və ya dəqiqləşdirilməsi üzrə 1990-cı ildən etibarən başlanan proses indi də davam etməkdədir. Bununla yanaşı ölkənin inzibati-ərazi bölgüsündə edilən dəyişikliklər nəticəsində bəzi rayonlar bərpa edilir, yeni rayonlar təşkil edilir, müəyyən rayonlar isə ləğv edilir.

Məlumdur ki, konkret bir toponimdən müxtəlif sahələrdə tətbiq edilən bir sıra adlar meydana çıxır və təkcə bir toponimin dəyişilməsi ondan törənmiş müxtəlif adlara yenidən baxılmasını zəruri edir. Belə sahələrdən biri də arxeologiyadır. Arxeoloji abidələri adlarına görə 3 qrupa bölmək olar:

1) yaxınlığında və ya ərazisində yerləşdiyi yaşayış məntəqəsinin adını (oykonim) daşıyan abidələr;

2) relyef və digər xüsusiyyətlərinə görə yerli əhalinin verdiyi adları (oronim və ya mikrotoponimlər) daşıyan abidələr;

3) arxeoloqlar tərəfindən verilən süni adları daşıyan abidələr.

Yuxarıda qeyd edilən proses çərçivəsində mövcud rayon adlarının dəyişdirilməsi arxeoloji abidələrin eyniləşdirilməsi, yəni tanınması ilə bağlı ciddi problem yaratmır. Arxeoloji ədəbiyyatda abidənin yerləşdiyi rayonun adı o qədər də tez-tez çəkilmir. Rayonun adı bilavasitə abidənin adı ilə əlaqədar deyildir. Rayon adlarının dəyişdirilməsi hallarına nisbətən az təsadüf edilməsi onların asanlıqla yadda saxlanılmasını təmin edir. Buna görə də, arxeoloqlar tədqiqat əsərləri yazarkən hər 3 qrupa daxil olan abidələrin yerləşdikləri rayonların adlarında etdikləri düzəlişlər diqqətli oxucunun abidəni eyniləşdirməsi üçün heç bir çətinlik yaratmır. Hər hansı bir rayon tam şəkildə başqa bir rayonun tərkibinə daxil edilərkən adını itirdiyi hallarda da abidənin tanınması ilə bağlı eyni vəziyyət yaranır.

Hər 3 qrupa daxil olan abidələri tədqiq edən arxeoloqlar üçün problem yeni rayonun bir neçə rayonun ərazilərinin müəyyən hissələri əsasında yaradıldığı və ya ləğv edilən rayonun ərazisinin bir neçə rayon arasında bölüşdürüldüyü hallarda meydana çıxır. İnzibati-ərazi bölgüsündə rayonlarla bağlı dəyişikliklər haqqında parlament fərmanlarında, adətən, bir rayondan

digərinə keçən bütün kəndlərin adları deyil, yalnız kənd inzibati-ərazi vahidinin mərkəzi yerləşən yaşayış məntəqəsinin adı qeyd olunur. Bu zaman fərmanda hansı kəndlərin nəzərdə tutulduğunu müəyyənləşdirməkdə arxeoloq çətinliklə üzləşir. Kənd inzibati-ərazi vahidlərində dəyişikliklərin çox tez-tez baş verdiyini nəzərə alsaq, onlar haqqında müəyyən nəşrlərdə əks olunmuş məlumatların çox tez köhnəldiyini təsdiq etmək olar.

İnzibati-ərazi bölgüsündəki dəyişiklikləri özü üçün tam aydınlaşdıra bilməyən arxeoloqun isə yazdığı tədqiqat əsərində dolaşıqlığa yol verməsi labüddür. Məsələn, 1984-cü ildə Şamaxı arxeoloji ekspedisiyasının R.M. Vahidovun rəhbərliyi altında yeni yaradılan Pirsaatçay dəstəsi bir neçə il ərzində Pirsaatçayın Şamaxı rayonu ərazisindəki sahillərində digər abidələrlə yanaşı ilk orta əsrlərə aid Qubalı yaşayış yerində, Güngörməz müdafiə istehkamında, kurqan qəbirlərində tədqiqatlar aparmış (4, s. 3, 8, 11, 13; 5; 6, s. 91; 7) və həmin abidələrin Pirsaatçay dəstəsi tərəfindən «aşkar edilərək qeydə alınması» (5; 6, s. 91; 7) barədə məlumatlar çap etdirmişdir. Lakin hələ 1958-ci ildə C.Ə. Xəlilovun nəşr etdirdiyi «Qazıməmməd rayonunun bəzi arxeoloji abidələri haqqında» məqaləsində Qubalı ilk orta əsr yaşayış yeri (2, s. 917), Yumru qalaq və Yastı qalaq istehkamları adı altında Güngörməz müdafiə istehkamı (2, s. 919, 921-922), habelə bu abidələrin yaxınlığındakı kurqanlardan bəhs edilmişdir (2, s. 917). Beləliklə, aydın olur ki, həmin abidələr ilk dəfə 1958-ci ildə aşkar edilərək qeydə alınmışdır. 1959-cu ildə Qazıməmməd rayonunun ləğv edilməsi ilə əlaqədar yuxarıda qeyd olunan abidələrin yerləşdiyi ərazi Şamaxı rayonu hüdudlarına daxil olmuşdur.

1990-cı ildə Qubalı, Güngörməz abidələrinin və kurqanların yerləşdiyi Udullu kənd sovetliyi ərazisi Şamaxı rayonundan alınaraq yeni təşkil olunmuş Hacıqabul rayonuna verilmişdir. Beləliklə, bu abidələrin «səyahəti» davam etmiş və onları «qovub çata bilməyən» arxeoloqlar yenidən büdrəmişlər. 1998-ci ildə müdafiə etdiyi «Dağətəyi Şirvanın ilk orta əsr arxeoloji abidələri (Şamaxı rayonu materialları əsasında tarixi – arxeoloji tədqiqat)» adlı dissertasiya işində və eyni adlı kitabında N.N.Xasayev yuxarıda qeyd olunan abidələri Şamaxı rayonu abidələri kimi qələmə almışdır (3). Müəllif Poladlı, Cəmcəmli və başqa ilk orta əsr abidələrinin yerləşdiyi ərazinin hələ 1990-cı ildə Şamaxı rayonundan yeni yaradılmış Qobustan rayonuna verilməsini nəzərə almamışdır. Beləliklə, adından da göründüyü kimi, Şamaxı rayonunun abidələrinə həsr olunmuş dissertasiya və kitabda təqdim olunmuş abidələrdən əslində yalnız bir neçəsi Şamaxı rayonu ərazisində yerləşmişdir. İnzibati-ərazi bölgüsündəki dəyişikliklərin nəzərə alınmaması tədqiqat əsərinin adı ilə məzmunu arasında uyğunsuzluğun yaranmasına səbəb olmuşdur.

Kənd adlarının dəyişdirilməsi yuxarıda verdiyimiz təsnifatın 1-ci qrupuna daxil olan abidələrin adlarına yenidən baxılmasını zəruri edir. 1991-ci ildə Vartaşen rayonunun adı dəyişdirilərək Oğuz, həmin rayonun Vardanlı kəndi Kərimli, Daşkəsən rayonunun Xaçbulaq kəndi Xoşbulaq adlandırılmışdır. Bununla əlaqədar arxeoloji ədəbiyyatda Vardanlı abidələri və Xaçbulaq abidələri adları altında əks olunmuş məşhur arxeoloji komplekslərin indi necə adlandırılması məsələsi hələlik müzakirə obyektinə çevrilməmişdir. Xaçbulaq abidələrində tədqiqatlar aparmış H.P. Kəsəmənli 1999-cu ildə nəşr etdirdiyi kitabında nəinki abidəni, hətta kəndi də onların köhnə adı ilə Xaçbulaq adlandırmışdır (8). Arxeoloji abidələrin 2 paralel ad altında arxeoloji ədəbiyyata düşməsi hallarına təsadüf olunmuşdur. Məsələn, keçmiş Mardakert rayonu ərazisindəki Araçadzor kurqanları tədqiqat əsərlərində həm də Dovşanlı kurqanları kimi qeyd olunmuşlar. 1993-cü ildə Araçadzor kəndinin tarixi Dovşanlı adı bərpa olunmuş və bu kənd Kəlbəcər rayonunun tərkibinə daxil edilmişdir. Əvvəllər hətta Azərbaycan arxeoloqlarının əsərlərində də özünə yer tapmış Araçadzor kurqanları adından indi imtina etməyin zəruri olduğu heç bir şübhə doğurmur. Dovşanlı adının bir vaxtlar Araçadzor adı ilə paralel çəkilməsi (1) müasir oxucu tərəfindən həmin kurqanların asanlıqla tanınmasını təmin edir. Vardanlı və Xaçbulaq abidələrinin isə ikinci paralel adları olmamışdır. Artıq bu qəbildən olan bəzi abidələrin köhnə adından imtina edilmişdir. Məsələn, Xaçmaz rayonunun Borispol kəndi kənarında yerləşmiş abidə Borispoltəpə adı altında arxeoloji ədəbiyyata düşmüş, lakin 1992-ci ildə Borispol kəndinin adı dəyişdirilərək Sərkərli olduqdan hələ bir neçə il əvvəl tədqiqat əsərlərində abidə yeni adla Sərkərtəpə adlandırılmışdır. Bizim fikrimizcə, Vardanlı və Xaçbulaq abidə adlarını mikrotoponim kimi qoruyub saxlamaq olar. Belə olduqda həmin abidələr bizim təsnifatın 1-ci qrupundan 2-ci qrupuna keçir. Əks təqdirdə, xüsusilə, Oğuz rayonunun Kərimli kəndi yaxınlığında yerləşmiş «Kərimli abidəsi» ilə Vartaşen rayonunun Vardanlı kəndi yaxınlığında yerləşmiş Vardanlı abidəsini eyniləşdirmək müasir oxucu üçün müəyyən çətinliklər törədəcəkdir.

Hesab edirik ki, bundan sonra Azərbaycan Respublikası ərazisindəki kəndlərin adları dəyişdirilərkən onların arxeoloji ədəbiyyata düşmüş abidə adları ilə əlaqədar olub-olmaması nəzərə alınmalıdır. Arxeoloqların indiyədək qeydə alınmış arxeoloji abidələrin adları ilə əlaqədar yeni tədqiqat əsərlərində müvafiq düzəlişlər edə bilmələri üçün 1990-cı ildən başlayaraq adları dəyişdirilmiş yaşayış məntəqələrinin və habelə bir rayondan çıxarılıb digər rayonun tərkibinə daxil edilmiş kəndlərin ümumi siyahısının əldə edilib, çoxaldılaraq arxeoloqlar arasında paylanılması və tədqiqatçıların vaxtaşırı yeni dəyişikliklər barədə məlumatlandırılması məqsədəuyğun olar, yuxarıda qeyd etdiyimiz dolaşıqlıq faktlarının aradan qaldırılaraq bir daha təkrarlanmamasına şərait yaradardı.

## ƏDƏBİYYAT

1. Araçadzor kurqanları, Dovşanlı kurqanları. – Azərbaycan Sovet Ensiklopediyası, I c., Bakı, 1976, s. 384.
2. Xəlilov C.Ə. Qazıməmməd rayonunun bəzi arxeoloji abidələri haqqında. – Azərbaycan SSR EA Məruzələri, XIV c., № 11, 1958, s. 917-923.
3. Xasayev N.N. Dağətəyi Şirvanın ilk orta əsr arxeoloji abidələri (Şamaxı rayonu materialları əsasında tarixi-arxeoloji tədqiqat). Tarix elmləri namizədi… dissertasiya işinin avtoreferatı. Bakı, 1998.
4. Ахмедов Ш.С. Раннесредневековые памятники долины реки Пирсаат. Автореферат диссертации... кандидата исторических наук. Баку, 1992.
5. Ваидов Р.М. Работа Пирсаатчайского отряда. – В сборнике: Археологические открытия 1985 года. Москва, Наука, 1987, с. 548.
6. Ваидов Р.М., Ахмедов Ш.С. Археологические работы Пирсаатчайского отряда в 1984 году. – Тезисы докладов Всесоюзной археологической конференции «Достижения советской археологии в XI пятилетке». Баку, 1985, с. 90-91.
7. Ваидов Р.М., Ахмедов Ш.С. Итоги археологических работ Пирсаатчайского отряда 1985 года. – В сборнике: Археологические и этнографические изыскания в Азербайджане (1985 г.). Баку, Элм, 1986, с. 39-40.
8. Кесаманлы Г.П. Археологические памятники эпохи бронзы и раннего железа Дашкесанского района. Баку, 1999.

## ADMINISTRATIVE - TERRITORIAL, TOPONYMY CHANGES AND ARCHAEOLOGICAL MONUMENTS

**Mubariz Khalilov**

### Summary

**Key words:** toponymy changes, archaeological monuments, map, Azerbaijan, identification.

According to establishment, to specify or rename of the settlements formation recent, abolition previous regions on the map of Azerbaijan Republic at the present time were established new toponymy, regions.

Changes of administrative - territorial divide different renames wants to proof name of the archaeological monuments, previous name of settlement which were settled those or these sites.

If toponymy names not necessarily, archaeological names must be indicated by their name other wise administrative - territorial reforms were established some difficulties for archaeologists for localization those or these archaeological sites. Specially it’s happened when some part of land of one region gives to another one.

For the liquidation of confusion it would be better government organizations supply archaeologists with new maps or lists of different regions.

# АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНЫЕ, ТОПОНИМИЧЕСКИЕ ИЗМЕНЕНИЯ И АРХЕОЛОГИЧЕСКИЕ ПАМЯТНИКИ

**Мубариз Халилов**

## Резюме

**Ключевые слова:** топонимические изменения, археологические памятники, карта, Азербайджан, идентификация.

В результате процесса восстановления, уточнения или же изменения названий ряда населенных пунктов, образования новых, ликвидации прежних районов в последние годы на карте Азербайджанской Республики появились новые топонимы и районы.

Изменения в административно-территориальном делении, различные переименования требуют корректировку названий археологических памятников, носящих название населенного пункта, где расположен тот или иной памятник.

Если топонимические изменения не в обязательном порядке должны отразиться в названии археологических памятников, то административно-территориальные реформы в ряде случаев создают определенные трудности для археологов в локализации того или иного памятника. Особенно, это касается ситуации, когда часть территории одного района передается другому.

Для предотвращения путаницы хорошо было бы если соответствующие государственные органы своевременно обеспечивали археологов новыми картами и списками населенных пунктов отдельных районов.

# KÖHNƏQALANIN ARXEOLOJİ SƏCİYYƏSİNƏ DAİR

**Həbib Şahbazi Şiran**
(Ərdəbil Universiteti, İran İslam Respublikası)
shahbazihabib@yahoo.com

**Açar sözlər:** Köhnəqala, qala, kitabə, bürc, Meşkin.

Meşkinşəhər Ərdəbildən 74 km şimal-qərbdə, Savalanın cənub ətəyində, 1830 m hündürlükdəki düzdə yerləşir. En dairəsi 38`23˝, uzunluq dairəsi 47`41˝dir. Əhər şəhəri ilə məsafəsi 72 km-dir. Meşkinşəhərin orijinal adı Xiyovdur. Meşkin rayonunun şərq və şimalında Azərbaycan Respublikası, cənubunda Sarab, qərbində isə Əhər rayonu yerləşir (1).

Meşkin rayonu qədim mədəniyyət mərkəzlərinin qovşağında yerləşməsi, öz coğrafi mövqeyinə, Qafqaz və Anadolu kimi əhəmiyyətli mədəniyyət mərkəzləri ilə əlaqəsinə görə tarixdə önəmli mövqeyə malikdir.

Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə Urmiya və Ərdəbil ətrafında arxeoloji qazıntılar nəticəsində eradan əvvəlki məskunlaşma haqqında müəyyən məlumatlar əldə edilmişdir. Azərbaycan İkiçayarasının erkən sivilizasiyalarının təsirinə məruz qalan ölkələrdən idi. Bunu həmin dövrdə Azərbaycanda istehsal olunmuş saxsı və tunc məmulatın İkiçayarasında hazırlanmış əşyalara çox oxşarlığı təsdiq edir.

Arxeoloji faktlara əsasən Ərdəbil bölgəsinin eradan əvvəl VI minillikdən məskunlaşması şübhə doğurmur. Region arxeoloji abidələr, başqa sözlə vaxtilə qala, şəhər və kənd olmuş yaşayış məskənlərinin xarabalıqları olan təpələr ilə zəngindir. Ərdəbilin bəzi yerlərində, xüsusilə şimal və şərq hissələrində aparılmış ilkin arxeoloji axtarışlar göstərir ki, Ərdəbil və ümumiyyətlə Azərbaycanın şərq hissəsi meqalitik mədəniyyətin yayıldığı ərazilərdən olmuşdur.

Ərdəbil şəhərindən 47 km məsafədə, Qarasu çayının sahilində yerləşən, 400 hektar sahəyə malik Şəhəryeri abidəsindəki son arxeoloji tapıntılar Ərdəbildə və ətraf rayonlarda yaşayan tayfaların 8 min illik mədəniyyətini daha da aydınlaşdırmışdır. Onların nəşr edilməsi bölgənin meqalitik mədəniyyəti ilə Qafqaz və Ön Asiya mədəniyyətləri arasındakı əlaqəni müəyyənləşdirə bilər. Şəhər yerindəki daş heykəllər İqdırın nalvari ocaqları üzərində cızılmış fiqurlarla eynilik təşkil edir. Bu da nəzərə alınmalıdır ki, burada aşkar edilmiş daş heykəllər orijinallığı ilə fərqlənir. Həmin heykəlləri yonan etnosun çox zəngin mədəniyyətə malik olması şübhə doğurmur. Qeyd etmək lazımdır ki, qazıntıların kiçik sahələrlə məhdudlaşmasına görə bu mədəniyyətin xronoloji çərçivəsi və yayılma arealı haqqında qəti fikir söyləmək çətindir. Lakin bir şey məlumdur ki, Şəhəryerində aşkar edilmiş tapıntılar

böyük bir mədəniyyətin tərkib hissəsi kimi neolit dövrünə aiddir. Onun qonşu mədəniyyətlərlə müqayisəsi bunu sübut edir.

Ərdəbil bölgəsində aparılan qazıntılar nəticəsində aşkar edilmiş tapıntılar tunc dövründə buranın sıx məskun olduğunu sübut edir. Arxeoloji, eləcə də qeyri – qanuni qazıntılar nəticəsində və daha çox təsadüfi olaraq Loristan xəncərlərindən daha uzun olan xəncərlər, misdən düzəlmiş böyüklü – kiçikli qəmələr, daş qablar, tunc və mis silahlar, o cümlədən balta, ox ucluqları, dəhrə, bəzək əşyaları, o cümlədən qızıldan və müxtəlif qaş daşlarından hazırlanmış sırğa və bilərzik aşkar edilmişdir.

Cənubi Azərbaycanda istehkamlı yaşayış məskənləri eradan 3 min il əvvəl müəyyən plan əsasında tikilməyə başlanmışdır. E.ə IX-VIII yüzillərdə şəhərsalmanın inkişafına Urartu memarlarının təsiri duyulur. Onların özü də İkiçayarası memarlarından təsir alaraq istehkamların inşasında elə bir metod yaratdılar ki, sonralar o sasanilərin dairəvi bürclü qala memarlığının əsasına çevrildi.

Qalaları möhkəmləndirmək, dairəvi müdafiə bürcləri ilə təchiz etmək sasanilər dövründə inkişaf etdi. Bunun qabarıq nümunəsi Meşkinin Köhnəqalasıdır. Onun darısqal keçidli darvaza binası, şimal- qərb və cənub künclərdə və şimal hissəsinin son şərq nöqtəsindəki dairəvi bürclər daha çox diqqəti çəkir. Bu, sasani memarlığının inkişaf etmiş planını xatırladır. Ehtimal edilir ki, islamdan sonrakı bina həmin qalanın qalıqları üzərində tikilmişdir.

Köhnəqalanın planı sasanilər dövrünə aid sadə bir plandır və islamın ilk dövrlərinə aid rabatların (karvansaraların) planına oxşayır. Oxşarlıq darvaza planlarında daha çoxdur. Təəssüf ki, onun dəqiq tarixi bəlli deyildir. Ehtimal etmək olar ki, Köhnəqala sasanilər dövrünün sonları, yaxud islam dövrünün əvvəllərində tikilmişdir. Binanın şimal-qərb tərəfində və 150 metrliyində, Xiyovçay dərələrinin birində, Novruz bağının qərb yoxuşunda, kolların və ağacların arasında Sasani dövrünə mənsub böyük bir (1.1 x 2.3 metr) daş kitabə aşkarlanmışdır. Daşın üzərində orta fars əlidbası ilə həkk olunan yazı varmış.

Kitabəni 1967-ci ildə birinci dəfə alman alimi Dr. Qird Qrup oxumuşdur. Alim əvvəlcə tarixi araşdırmalar jurnalında onun icmalını vermiş, bir ildən sonra isə mükəmməl formasını çap etdirmişdir (2, 49- 58):

1- İlin Mehr ayı
2- 27 Şapur şahlar
3- Şah, demək Hürmüzd ki,
4- Mən Narsa Hürmüzd
5- Dedim ki, bu qala
6- Dahu Cəlizi tikdim mən
7- Tanrının və şahənşahın adını

8- Bilm və qalanı altı ayda
9- Hazırladım. Bax,
10- Böyük hakim, mərd adam
11- Məndən sonra olacaq, kişi olacaq
12- Bu qalanı bəyənsə,
13- .....
14- Alqış onun ruhuna
15- .....
16- Göndərsin
17- Bəyənməzsə
18- Bir qala
19- Tikdirsin ki,
20- Bundan yaxşı
21- Olsun

Qrupun məqaləsi nəşr edildikdən sonra Henri Samuel Niberq öz oxunuşunu çap etdirdi (3, 144 – 153). O, oxunaqlı olmayan şəkillərə əsaslanaraq qeyri – zəruri bərpa işləri aparmışdır.

Kitabənin aşkar edildiyi il Riçard Fray Meşkinə səfər edərək kitabənin daha dəqiq surətini çıxartdı və onun yeni oxunuşda çap etdirdi (4, 53 – 61).



Kitabə II Şapurun hakimiyyətinin 27-ci ilində yazılıb və iki hissəyə ayrılır: birinci hissə 15, ikinci hissə 6 sətrdən ibarətdir. Onun sağ tərəfində Sasani dövrünə aid iki nəsli gerb həkk olunmuşdur. Lakin pozulduğundan artıq oxunmur. Kitabə məzmun baxımından üç hissədən ibarətdir:

1- birinci sətrdən üçüncü sətrə kimi tarixdir: bu kitabə II Şapur hakimiyyətinin 27-ci ilinin yeddinci ayında yazılmışdır (hicrətdən 267 il qabaq).

2- Kitabənin üçüncü sətrindən doqquzuncu sətrinə kimi qalanın tikilməsində altı il əməyi olan Narse Hürmüzd adlı bir şəxsin adı çəkilmişdir. Onun sosial mövqeyi və rəsmi vəzifəsi bildirilməsə də bələdiyyə başçısı



olması güman edilir. Kitabədə qalanın adı qeyd edilmişdir, amma daşın fəsada uğraması oxunmasına mane olur.

3- 9-cu sətrdən 21-ci sətrə kimi öyüd – nəsihətdir. Narse Hürmüzd həmin öyüdlərdə xatırladır ki, padişahlar və əyanlar bunları oxusunlar və kişi kimi öz fikirlərini bildirsinlər. Qalanı bəyəndikləri təqdirdə onu tikənə afərin desinlər. Bəyənmədikdə isə daha yaxşı bir qala tiksinlər (5, 6 – 9).

Bunu da deyək ki, II və III Şapurun iki kitabəsindən başqa (bu iki kitabə Kirmanşahdadır) Sasanilərin digər bütün kitabələri vətənləri Fars vilayətindədir. Meşkindəki orta fars kitabəsi Cənubi Azərbaycanda aşkar edilən yeganə kitabədir.

Orta fars kitabəsi birinci dəfə Cənubi Azərbaycanda aşkar edildiyinə görə həm məkan, həm də zaman baxımından əhəmiyyətlidir (2, 49 – 58). Məkan baxımından ona görə əhəmiyyətlidir ki, ondan qabaq Cənubi Azərbaycanda Sasani kitabəsi tapılmamışdır (6, 632/1). Zaman baxımından isə ona görə əhəmiyyətlidir ki, II Şapurun hakimiyyəti dövründə, Sasani mədəniyyətinin dəyişildiyi dövrdə yazılmışdır. Bunu da deyək ki, qabaqkı kitabələrdə şahlara 27 titul qoşulurdusa, bu kitabədə cəmi 5 titul qoşulmuşdur. Kitabənin mətnində bələdiyyə başçısı Narsə Hürmüzdün haqqında danışdığı qala yaxınlıq işarəsi ilə bildirildiyinə görə kitabənin yaxınlığındakı (70 – 80 metr) həmin möhtəşəm qala ola bilər (5, 6-9). Deməkqala Sasani dövrünə aiddir. O dövrə aid olmasa da islamın ilk əsrlərinə aid olmasına şübhə yoxdur.

Çünki İranda qala memarlığı islamın meydana gəlməsindən etibarən tədricən təkamül taparaq həm müdafiə, həm də yürüş tələbatını təmin etmək istiqamətində inkişaf etmişdir. Hərb sənətinin inkişafı böyük dairəvi və bir – birinə yaxın bürclər tikilməsini, möhkəm divarlar çəkilməsini, istər qalanın içində, istərsə də qaladan kənarda düşmənin qarşısını almaq, yaxud ən azı onları ləngitmək üçün lazımi tədbirlər görülməsini tələb edirdi. Bu proses heç vaxt dayanmamışdır (7, 177).

Digər tərəfdən isə Sasanilər dövründə inşa olunan qalalar bir – birinə yaxın yarımdairəvi bürclərlə möhkəmləndirilirdi. Topoqrafik baxımdan

Köhnəqala 50 metr hündürlüyü olan, Xiyov çayının sol sahilində kahamar bir zonada yerləşən təbii bir təpə üzərində tikilmişdir. Onun üç tərəfi sərt enişlə çaya qovuşur.

Qalanın iki cinahlarındakı bürclərdəki bəzəklərin izi qalmışdır (8, 13).

Qalanın müdafiə gücünü və sarsılmazlığını təmin etmək üçün təbii və coğrafi şəraitdən istifadə olunmuşdur. Hal-hazırda son dərəcə dağıntıya məruz qalmış qalanın vaxtı ilə nə qədər möhkəm olduğunu müşahidə etmək olur.

Qalanın planından məlum olur ki, burada hökmdar iqamətgahı olmamış və qala yalnız hərbi məqsəd daşımışdır. Burada hərbi bölmə üçün lazım olan bütün şərait varmış.

Qalanın altı bürcü varmış (şimal və cənub künclərində diametri 6 və 10 metr olan dairəvi bürc, şimal hissəsinin şərq kənarında diametrləri 5.7 və 6 metr olan digər 2 bürcün qalıqları müşahidə olunur. Qalan iki bürc tamamilə uçmuş və onların yerində inzibati bina tikilmişdir). Qalın divarlar çiy kərpicdən tikilmiş və kiçik hücrələrə malikdir.

Divarlar çiy kərpic və möhrədən, bürclər daş, kirəmit və əhənglə tikilmişdir. Müəyyən kərpic hörmələri dekorativ xarakter daşıyır. Divarın birinci çinlənməsi daş qırıqlarından, ikinci çinləçməsi çiy kərpicdən, üçüncü çinlənməsi ros daşlardan, dördüncü və beşinci çinlənmələri, eləcə də konqrəsi möhrə divardır (6, 634 – 635/1). Qala divarının hündürlüyü içəridən 4 metr, bayırdan isə 8 metrdir.

Köhnəqala cülgə ya çöl qalası növündəndir. Planı dördbucaq (102 x 250 metr), ətraf mühitdən ucada tikilmiş və vaxtı ilə böyük əhəmiyyətə malik olmuşdur.

Qala ilk dəfə Əlivəli Nuri və Əqil Abidi tərəfindən araşdırılmışdır. Həmin ekspedisiya heyəti 1977-ci ildə qısa müddətli qazıntı aparıb. Bu heyət qalanın tarixi və əsasən islam dövründəki funksiyası haqqında məlumat və faktlar əldə etmək məqsədi ilə bir neçə qazıntı həyata keçirmiş və onların Urartularla əlaqədə olduqlarına dair tapıntılar əldə etmişlər. Bunu əl və dulus dəzgahı vasitəsilə düzəlmiş noxud rəngli və boz saxsılar, eləcə də dəmir dövrünə dövrünə aid tapıntılar tam sübut edir.

Qazıntılar zamanı qalanın şərq hissəsində eni 2.1 m, uzunluğu 20 m olan, daşdan və çiy kərpicdən tikilmiş böyük bir divarın qalıqları aşkar edilib. Divar daş parçaları və bişmiş kərpicdən əhəng məhlulla qoyulmuş bünövrə üzərində tikilmişdir. Su sızması ehtimalı olan hündürlüyə qədər divar hörgüsündə daş və əhəngdən istifadə olunmuşdur. Əlbəttə bu divarların planı qalanın ümumi planı ilə uzlaşmır. Ehtimal etmək olar ki, Sasani dövrünə aid qala divarının bu hissəsi uçmuş, bərpa, yaxud yenidənqurma zamanı plan bir az kiçilmişdir. Qazıntılarda aşkar edilmiş qalıqlar (xüsusilə Parfiya və Sasani dövrlərinə aid qalıqlar) belə bir ehtimalı da meydana -

gətirir ki, qala Sasani sülaləsindən daha qabaq, Əşkanilər sülaləsinin hakimiyyətinin axırlarında tikilə bilərdi (7, 181).



Yekunda qeyd edək ki, aparılan tədqiqat qədim qalanın qalıqları üzərində islam dövründə yenidənqurma işləri aparıldığını və bu qaladan hətta yeni dövrdə də istifadə edildiyini təsdiqləyir. Hal-hazırda isə qaladan yalnız uçuq divarları qalıb. Köhnəqalanı Meşkin şəhərinin ilk özəyi hesab etmək olar.

## ƏDƏBİYYAT


1. Bayat Əzizülla. İranın təbii və fiziki coğrafiyası. IV nəşr, Tehran, Əmir Kəbir nəşriyyatı, 2003 (fars dilində).
2. Grop Gerrd. Die sasanidsche inschrift von Mishkinshahr in Azarbeidjan. // AMI, 1968.
3. Nyberg H. S. The Pahlavi inscription at Meshkin.// BSOA S. 33, part 1, 1970.
4. Fray N. Riçard. Qədim İran tarixi, Məsud Rəcəbniyanın tərcüməsi, Tehran, Elmi – mədəni nəşriyyat, 2000 (fars dilində).
5. Kambəxş Fərd Seyfulla. İranda saxsı və dulusçuluq. İkinci nəşr. Tehran. Quqnus nəşriyatı, 1975 (fars dilində).
6. Türabi Tabatabai Seyid Camal. Azərbaycanda arxeoliji tapıntılar. II cild, Tehran, Milli sərvətlər əncüməni, 1977.
7. Klays Velfram, İranın islam dövrü memarlığı. I cild, Tehran, Cihdi – danişəahi nəşriyyatı, 1988 (fars dilində).

8. Saidi Qulamhüseyn. Xiyov ya Meşkinşəhər. Tehran,Əmir Kəbir nəşriyyatı, 1976 (fars dilində).
9. Pazuki Tərudi Nasir. İranda İslam dövrü müdafiə istehkamları. Tehran, Mədəni sərvətlər təşkilatı, 1997 (fars dilində).

## ABOUT ARCHAEOLOGY CHARAKTERIST OF KEHNAGALA

**Habib Shahbazi Shiran**

### Summary

**Key words:** Kehnagala, fortress, inscription, tower, Meshkin.

Present article dedicates to archaeological monuments Kehnagala, which is situated on suburbs of Meshkinshahar in Ardabil region. Fortress Kehnagala has quadraugle gliding, by the size of 102m x 250m, fortificate by half-circle towers. In building of fortress there applicated stone, lime-stone, burn-brick. Fortress Kehnagala is the something life nucleus of the sity Meshkin.

The authour be intended, that fortress Kehnagala was created in early antic period S. and the switt developes they are reached duration of Sassanid and Islamic periods.

## К АРХЕОЛОГИЧЕСКОЙ ХАРАКТЕРИСТИКЕ КЕГНАГАЛА

**Габиб Шахбази Ширан**

### Резюме

**Ключевые слова:** Кегнагала, крепость, надпись, башня, Мешкин.

Статья посвящена археологическому памятнику Кегнагала, расположенного на окраине Мешкиншехра Ардабильского региона. Крепость Кегнагала, имеющая четырехугольную планировку размером 102м х 250м, укреплена круглыми и полукруглыми башнями. В строительстве крепости применялись камень, известняк, сырцовый и обожженный кирпич. Крепость Кегнагала являлась ядром города Мешкин.

Автор предполагает, что крепость Кегнагала возникла в поздней античности, а большого развития достигла при Сасанидах и в период Ислама.

# IX-XIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN KƏNDLƏRİNİN TƏSƏRRÜFAT HƏYATI
## (arxeoloji materiallar əsasında)

**Müşfiq Bayramov**
(Lənkəran Dövlət Universiteti)
mushfiq76@mail.ru

**Açar sözlər:** kənd tipli yaşayış yeri, arxeoloji qazıntılar, təsərrüfat məşğuliyyəti, əkinçilik, heyvandarlıq.

Azərbaycanın orta əsr şəhərləri üzrə ciddi tədqiqatlar aparıldığı halda kənd yaşayış məskənləri tədqiqatçıların diqqətindən kənarda qalıb. Bu günədək orta əsr kəndlərinə həsr olunmuş ümumiləşdirici tədqiqat əsəri yazılmayıb. Halbuki orta əsrlərdə Azərbaycan əhalisinin böyük əksəriyyəti kəndlərdə yaşayırdı. Ölkə iqtisadiyyatında kənd təsərrüfatının rolu böyük idi. Bütün bunlar kənd məskənlərinin tədqiqini, kənd əhalisinin təsərrüfat məşğuliyyətini və digər məsələlərin araşdırılmasını aktual edir. Hazırki məqalədə məqsəd yazılı qaynaqların məlumatı və arxeoloji materiallar əsasında orta əsr kənd əhalisinin təsərrüfat məşğuliyyətini araşdırmaqdan ibarətdir. Yazılı mənbələrdə dövrün kənd əhalisinin təsərrüfat məşğuliyyəti haqqında az da olsa məlumat vardır. Orta əsr kənd tipli yaşayış yerləri arxeoloji tədqiqatlarla arzu olunan səviyyədə öyrənilməsə də həmin araşdırmalar zamanı əldə olunmuş materiallar müəyyən dərəcədə orta əsr kənd əhalisinin təsərrüfat məşğuliyyətini səciyyələndirmək baxımından böyük elmi əhəmiyyət kəsb edir.

IX-XIII əsrlərdə kənd əhalisinin başlıca təsərrüfat sahələrindən biri əvvəlki dövrlərdə olduğu kimi əkinçilik idi. Bunu orta əsr kənd yaşayış yerlərində aparılmış arxeoloji qazıntılardan əldə olunmuş faktik materiallar təsdiqləyir. Əkinçiliklə təkcə düzən kəndlərdə yaşayan əhali deyil, həmçinin dağətəyi və dağlıq kəndlərdə yaşayan kənd əhalisi də məşğul olurdu. Yaqut əl-Həməvinin məlumatına görə Xalxal vilayətinin əksər kəndləri və əkin yerləri uca dağlarda yerləşirdi (1, s. 160).

Taxılçılıqda əsas yeri buğda və arpa becərilməsi təşkil edirdi. Bu bitkilərin becərilməsi əsasən dəmyə xarakteri daşıyırdı. Dəmyə əkinçiliyi ilə yanaşı kənd əhalisi dağlıq və dağətəyi rayonlarda arxlardan, düzən rayonlarda isə çaylardan çəkilmiş kanallardan, qobulardan istifadə edərək süni suvarma əkinçiliyini inkişaf etdirmişlər. Mil və Muğan düzlərində aparılmış arxeoloji qazıntılar və kəşfiyyat xarakterli axtarışlar zamanı govurarxların geniş şəbəkəsi qeydə alınmışdır. Mil düzündə Arazla Qarqarçayı, Muğan düzündə Bolqarçayı birləşdirən bu kanallardan orta əsrlərdə intensiv istifadə olunduğu arxeoloji tədqiqatlarla sübuta yetirilmişdir (2, s. 99). Kənd tipli

yaşayış yerlərində qazıntılar zamanı aşkar edilmiş tapıntılar - əmək alətləri, taxıl küpləri, üzə çıxarılaraq təmizlənmiş təsərrüfat quyuları və digərləri dənli bitkilərin becərilməsinə böyük əhəmiyyət verildiyini deməyə əsas verir. Yazılı qaynaqların məlumatı və arxeoloji qazıntılar zamanı aşkar edilmiş nəbati qalıqlar dənli bitkilərdən buğda, arpa, düyü, darı, mərci, noxud, lobya və s. becərildiyini sübuta yetirir. Dövrün başlıca əkinçilik alətləri ulamalı xış, qara kotan, dəryaz, yaba, çin, oraq, bel, ağac mala və s. olmuşdur. Əsas şum aləti "qara kotan" idi. El arasında bu əmək aləti əyribazi kotan, kəl kotanı, ağır kotan adı ilə məlumdur. Bu şum aləti ilə torpağı daha dərindən şumlamaq olurdu. Əl-Müqəddəsi Ərdəbil yaxınlığındakı kənd və rustaqlardan bəhs edərkən burada torpağı 8 öküz vasitəsilə 4 cütcünün şumladığını qeyd edir (3, s. 56). Bununla yanaşı dağlıq ərazilərdə sadə və ulamalı xışlardan geniş istifadə olunurdu.

Taxıl ehtiyatı iri təsərrüfat küplərində və quyularında saxlanılırdı. Daha təkmil şum aləti olan qara kotandan istifadə edilməsi nəticəsində orta əsrlərdə məhsuldarlıq xeyli artmışdı. Kənd tipli yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş təsərrüfat quyularının sıxlığı bunu təsdiq edir. IX-XIII əsrlərə aid Sərkərtəpə, Dərəzarat, Daşbulaq, Qıraq Kəsəmən, III Hacıalılı və s. yaşayış yerlərində qazıntılar zamanı çoxlu təsərrüfat quyusu aşkar edilib təmizlənmiş, bəzilərinin dibində taxıl çürüntüsünə də təsadüf edilmişdir (2, s. 101). Təkcə Daşbulaq yaşayış yerində məhsulun saxlanmasında istifadə olunmuş müxtəlif ölçülü və formalı 23 təsərrüfat quyusu aşkar edilmişdir. Quyular kəsikdə konusvari formada olub, yuxarıda dar, aşağıya doğru genişlənirlər (4, s. 228).

Sərkərtəpədə orta əsr təbəqəsindən üzə çıxarılmış eyni formalı təsərrüfat quyularının dibinin diametri 1,1-1,75 m-ə, dərinliyi 1,2-1,7 m-ə qədərdir. Taxılın nəm çəkməməsi üçün təsərrüfat quyularının dibinə və divarlarına süvaq çəkir və ya qalın küləş, qıjı, qamışla örtürdülər (5, s. 193). Bəzən taxılın nəm çəkməməsi üçün təsərrüfat quyularının divarlarını daşla hörürdülər. Məsələn, orta əsr Dərəzarat kənd tipli yaşayış yerində qeydə alınmış təsərrüfat quyularının divarları qaya daşları ilə hörülmüşdür (6, s. 113). Təsərrüfat quyuları ilə yanaşı taxıl ehtiyatının saxlanmasında həmçinin kənd əhalisı təsərrüfat küpləri, çuval, səbət, kod və s. istifadə etmişlər. Taxıl saxlanmasında istifadə olunmuş təsərrüfat küplərinin nümunələri Qıraq Kəsəmən, Daşbulaq, III Hacıalılı, Seyidli, Sərkərtəpə və digər kənd tipli yaşayış yerlərindən məlumdur. Təsərrüfat küpləri həcmcə müxtəlif olmuşdur. Onların hündürlüyü təxminən 0,8 m-dən 1,5 sm-ə qədərdir. Taxılın emalında əsasən əl dəyirmanlarından istifadə olunmuşdur. Arxeoloji qazıntılarla öyrənilmiş kənd yaşayış yerlərinin, demək olar ki, hamısında onlara təsadüf edilmişdir. Əl dəyirmanlarından təkcə kəndlərdə deyil, eyni zamanda şəhərlərdə yaşayan əhali də geniş istifadə edirdi.

Taxılın biçilməsində əsas biçin aləti kimi dəmirdən hazırlanmış oraq və çinlərdən istifadə edilmişdir. Bu alətlər bir-birindən dişli-dişsiz olmaları ilə fərqlənirlər. Biçində istifadə olunmuş oraq və dəryaz kimi kənd təsərrüfatı alətlərinə Gəncəbasarın IX-XIII əsrlərə aid kənd yaşayış yerlərində aparılan arxeoloji qazıntılar zamanı təsadüf olunmuşdur (7, s. 17). Taxılın döyülməsində ağac və daş vəllərdən istifadə edilmişdir. Daş vəllər ağır olduğundan onlardan qoşqu qüvvəsi vasitəsilə istifadə olunurdu. Azərbaycanda taxıl döyülməsində bu əmək alətindən istifadənin tarixi qədimdir. Lakin əsrlər keçməsinə baxmayaraq bu döyüm aləti son dövrlərə qədər öz quruluş və funksiyalarını saxlamışdır. Orta əsrlərə aid xırman yerləri Dərəzarat, Xuray yaşayış yerlərində qeydə alınmış və tədqiq edilmişdir (8, s. 114).

Kənd yaşayış yerlərində becərilən dənli bitkilərdən biri çəltik idi. Ölkəmizdə çəltikçiliyin tarixi çox qədimdir. Ölkə ərazisində bol su ehtiyatlarının və kifayət qədər günəşli günlərin olması bu bitkinin becərilməsinə şərait yaradırdı. Orta əsrlərdə, çaylardan çəkilmiş arxlardan və qobulardan istifadə nəticəsində çəltikçilik daha da inkişaf etdi. Orta əsr yazılı mənbələrində Azərbaycan ərazisində bol çəltik becərilməsi öz əksini tapmışdır. Şimal-şərqi Azərbaycanda aparılmış arxeoloji qazıntılar zamanı yanmış torpaq qatından kömürlənmiş çəltik qalıqları aşkar edilmişdir. Əldə edilmiş faktik materiallar burada çəltikçiliyin qaraqılçaq, sarıqılçaq və digər növlərinin becərildiyini deməyə əsas verir (9, s. 179).

Dənli bitki istehsalı ilə yanaşı kəndlərdə texniki bitkilərin becərilməsinə də diqqət verilirdi. X əsr Ərəb coğrafiyaşünası Əbu əl-Qasim ibn Hövqəl "Kitabi məsalik və-l məmalik" adlı əsərində Müşkür düzündə toxuculuqda istifadə olunan boyaq kökü bitkisinin becərildiyini və əldə olunan məhsulun bir hisəsinin ixrac edildiyi haqqında məlumat verir. Müşkür düzündə yerləşən Sərkərtəpə kənd tipli yaşayış yerində aparılan qazıntılar zamanı toplanmış materiallar içərisində qırmızı boyaq maddəsi qalıqlarının olması yazılı qaynaqların məlumatını təsdiqləyir (9, s. 179).

Orta əsr kənd tipli yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar zamanı əldə olunmuş faktik materiallar və yazılı mənbə məlumatları əhalinin bostan bitkilərinin becərilməsinə böyük əhəmiyyət verdiyini söyləməyə əsas verir. Bostan bitkilərindən əsasən xiyar, lobya, kudu, balqabaq, badımcan, kahı, qovun, yemiş və müxtəlif səbzilər yetişdirilirdi. Əsas bostan bitkilərindən biri qovun idi. X əsrdə yaşamış ərəb coğrafiyaşünas alimi İbn Havqəl özünün "Kitab əl-masalik vəl-məmalik" ("Yollar və məmləkətlər haqqında kitab") əsərində Marağa şəhərindən bəhs edərkən yazır: "əl-Marağa sağlam havalı şəhərdir. Çoxlu rustaq və otlaqları var. Buranın yaşayış yerlərinin birində "azdaqriy" adlanan qovun yetişir. Bu uzunsov, qabığı bozumtul-yaşıl, içərisi isə qırmızıdır. İçi baldan şirindir. Xorasan qovununa oxşayır" (3, s. 107). Kənd tipli yaşayış yerlərindən arxeoloji qazıntılar za-

manı aşkar edilmiş əmək alətlərinin və nəbati qalıqlarının bir qismi bostançılıq və bağçılıq təsərrüfatı ilə bağlı materiallar təşkil edir. Bostançılıq təsərrüfatında istifadə olunan əmək alətlərindən - bel, kətmən tapılmışdır (2, s. 104). Qazıntılarla öyrənilmiş kənd tipli yaşayış yerlərindən əldə olunmuş arxeoloji materiallar içərisində bostan bitkilərinin toxumlarına da təsadüf olunmuşdur.

Yazılı mənbələrdə Azərbaycan kəndlərində IX-XIII əsrlərdə bağçılıq təsərrüfatının yüksək səviyyədə olduğuna dair məlumata rast gəlinir. Ölkə ərazisində zəngin cır meyvə növlərinin olması burada mədəni bitkilərin alınması və inkişafı üçün şərait yaratmışdır. Görkəmli ərəb ensiklopedist alimi, səyyahı Yaqut əl-Həməvi "Mucəm əl-buldən" əsərində Urmiyadan bir mərhələ aralı, Təbriz yolu üzərində yerləşən Mart kəndinin çoxlu bağlara malik olduğunu yazır (1, s. 180). Orta əsr ərəb mənbələrinə istinad edən M.X.Şərifli Azərbaycanda bir sıra meyvələrin: şabalıd, zoğal, üzüm, armud, sarı ərik, şaftalı, gila S. alma, incir, heyva, nar, qoz, fındıq, gavalı, alça, tut və s. yetişdirildiyini yazır (10, s. 263). Meyvələrin bir hissəsi günəş altında və ya xüsusi təndirlərdə qurudulurdu. Çəyirdəkli meyvələr bütöv, çəyirdəksiz meyvələr isə doğranmış halda günün altına sərilirdi. Meyvə qurudulması məqsədilə istifadə olunan təndirlər adi çörək bişirən təndirlərdən iki dəfə böyük olurdu. Meyvələr gildən düzəldilmiş xüsusi gillələrdə təndirə düzülürdü. Meyvə qurudulması üçün istifadə olunmuş təndirlər bir sıra orta əsr abidələrindən məlumdur. Təndirlərlə yanaşı Azərbaycanda meyvəqurudan kürələrdən də istifadə olunurdu (11, s. 183).

Orta əsr kənd əhalisinin məşğuliyyətində heyvandarlıq təsərrüfatı önəmli rola malik idi və əhalinin ət, süd məhsullarına, sənətkarlığın xammala olan ehtiyacını təmin edirdi. Arxeoloji qazıntılarla öyrənilmiş IX-XIII əsrlərin kənd tipli yaşayış yerlərində saysız-hesabsız osteoloji qalıqların olması, heyvandarlıq təsərrüfatı ilə bağlı materiallara tez-tez təsadüf olunması bunu təsdiqləyir. "Əcaib əd-dünya" adlı coğrafi əsərdə bildirilir ki, "Arranda böyük qoyun sürüləri, qaramal naxırları, at ilxıları otarılırdı" (12, s. 207). Heyvandarlıqda əsas yeri qoyunçuluq, iribuynuzlu mal-qara saxlanılması və atçılıq tuturdu. Azərbaycanda coğrafi şəraitə görə maldarlığın oturaq və yarımköçəri formaları mövcüd idi. X əsr ərəb coğrafiyaşünası İbn Havqəl Cənubi Azərbaycanda yerləşən Gülsurə bazarında bir gündə bir milyon davar satılmasını qeyd edir (10, s. 332). Şimal-şərqi Azərbaycan ərazisində yerləşən Seyidli, Sərkərtəpə, Sandıqtəpə yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar zamanı toplanmış osteoloji qalıqların təhlili qeyd olunan yaşayış yerlərində iribuynuzlu mal-qaraya nisbətən davarın üstunlük təşkil etdiyini söyləməyə əsas verir (8, s. 120). Mil düzündə Qaratəpə kənd tipli yaşayış yerindən toplanmış osteoloji qalıqların da çox hissəsini xırdabuynuzlu heyvan sümükləri təşkil edir (13, s. 226). Həmçinin "Kitabi-Dədə

Qorqud" dastanında Salur Qazanın on min qoyunun olması faktı qoyunçuluğun Azərbaycanda yüksək inkişafından xəbər verir (11, s. 240). Qoyunçuluq təsərrüfatı əhalini mühüm ərzaq materialları ilə təmin etməklə yanaşı, kənd sənətkarlığının gön və yun materialları ilə təchizatında mühüm rol oynayırdı. Qıraq Kəsəmən, Daşbulaq, III Hacıalılı kənd yaşayış yerlərindən toplanmış osteoloji qalıqlar içərisində isə iribuynuzlu mal-qara sümükləri daha çoxdur. Orta əsr Mingəçevir qazıntılarından aşkarlanmış iribuynuzlu mal qara sümüklərinin tədqiqi onların müasir cins mal qaraya uyğun gəldiyini göstərir. Sərkərtəpə, Seyidli kənd tipli yaşayış yerlərindən aşkarlanmış osteoloji qalıqlar professor Dəmir Hacıyev tərəfindən tədqiq edilmiş və onların əsasən kiçik boylu inəklərə məxsus olduğu müəyyən edilmişdir (8, s. 121). Kənd tipli yaşayış yerlərində aparılan qazıntılar zamanı maldarlıq təsərrüfatı ilə bağlı, daha dəqiq desək, süd emalı ilə bağlı xeyli saxsı qablar toplanmışdır. Onların böyük bir qismini nehrələr təşkil edir. Yağ emalı üçün istifadə olunan nehrələr son dövrlərə kimi öz formasını dəyişməmiş və indi də tətbiq olunmaqdadır. Qazıntılar zamanı maldarlıq təsərrüfatı ilə bağlı sərnic, goduş, dopu nümunələrinə də tez-tez təsadüf edilir.

Kənd tipli yaşayış yerlərində aparılmış qazıntılardan toplanmış osteoloji qalıqların arasında at və uzunqulaq sümüklərinə rast gəlinir. Yazılı mənbələrdə Müşkür düzündə at ilxılarının bəslənməsi barədə məlumat verilir. "Tarix əl-bab" əsərində Müşkür düzündə 4 min baş madyan at ilxısının olması və 1066-cı ildə Səlcuq türklərinin Xəzərsahili əraziləri qarət edərkən bu ilxını da ələ keçirməsini qeyd edilir (9, s. 180). Şimal-şərqi Azərbaycanın arxeoloji qazıntılarla öyrənilmiş orta əsr abidələrinin əksəriyyətində at sümüklərinə təsadüf olunmuşdur. Sandıqtəpədə aparılan qazıntılar zamanı dəmirdən eşşək və qatır nallarına da rast gəlinmişdir ki, bu da orta əsrlərdə bu heyvanların nallandığını göstərir (8, s. 121-122). Kənd tipli yaşayış yerlərində aparılan qazıntılar zamanı toplanmış osteoloji qalıqlar içərisində toyuq, ördək, qaz və hind toyuğu sümüklərinin qalıqları çoxluq təşkil etməsi ev quşçuluğunun yüksək inkişafından xəbər verir. Kənd əhalisi həmçinin yardımçı təsərrüfat sahələri olan balıqçılıq, arıçılıq, ovçuluqla məşğul olurdu. Azərbaycanın Xəzər dənizi sahilində yerləşməsi, bol sulu çayların sıxlığı burada balıqçılıq təsərrüfatının inkişafına imkanlar yaratmışdır. Şimal-şərqi Azərbaycanın kəndlərində aparılan arxeoloji qazıntılar zamanı toplanmış ixtifauna qalıqları bu bölgədə balıqçılığın yüksək inkişafından xəbər verir. Sərkərtəpə qazıntıları zamanı IX-XIII əsr təbəqəsindən xeyli pullu balıqların tullantıları və nərə balığının sümükləri aşkar edilib. Yaşayış yerinin 6 saylı zibil quyusundan 30 sm qalınlığında balıq pulcuğu qatı aşkarlanıb. Pulcuqlu balıq sümükləri Seyidli yaşayış yerindən də tapılmışdır (9, s. 181). Balıqçılıqda istifadə olunmuş domça, səbət, tor, çürüdüyündən onlara mədəni təbəqədə təsadüf olunmamışdır. Qazıntılar zamanı

kənd yaşayış yerlərindən balıqçılıq təsərrüfatı ilə bağlı əmək alətlərindən qırmaq, tarazılıq daşlarına və s. rast gəlinmişdir (9, s. 181).

Kənd tipli yaşayış yerində aparılan qazıntılar zamanı aşkarlanmış emalatxana qalıqları, istehsal tullantıları, həmçinin yazılı mənbə məlumatları əkinçilik və maldarlıqla yanaşı əhalinin təsərrüfat məşğuliyyyətində sənətkarlığın müəyyən rol oynadığını deməyə əsas verir. Bu dövrdə maldarlıq və əkinçilik təsərrüfatının yüksəlişi sənətkarlığın, xüsusilə dulusçuluğun inkişafına səbəb oldu. Qazıntılarla öyrənilmiş kənd yaşayış yerlə-rində hələlik dulus kürələrinin qalıqları aşkar edilməsə də kənd yaşayış məskənlərində bu sənətin mövcudluğunu sənədləşdirən xeyli material toplanmışdır. Orta əsr Sərkərtəpə yaşayış yerindən qazıntılar zamanı bişmə prosesində deformasiyaya uğramış bardaq qulpu, formalaşdırılmış, lakin bişirilməmiş gil küpə qırığı, şirli qabların istehsalında istifadə olunmuş üçayağın, Xuray yaşayış yerindən yarımfabrikat boşqab qırığının tapılması kənd yaşayış məskənlərində sənət istehsalının mövcudluğunu təsdiqləyən maddi dəlillərdir. IX-XIII əsrlərdə saxsı məmulatı istehsalı texnikası təkmilləşmişdir. Artıq bu dövrdə təkcə şəhər sənətkarları deyil, həmçininn kənd yaşayış məskənlərində də fəaliyyət göstərən ustalar ayaq dulus çarxından istifadə edirdilər.

Kənd tipli yaşayış yerlərindən toplanmış materialların bir hissəsi dəmirçilik sənəti ilə bağlıdır. Arxeoloji qazıntılarla tədqiq olunmuş Qıraq Kəsəmən yaşayış yerinin III və IV qazıntı sahələrindən dəmirçi emalatxanasının qalıqları aşkarlanıb təmizlənmişdir. III qazıntı sahəsinin 13-16 saylı kvadratlarında istehsal tullantılarına, metal masalara və s. rast gəlinməsi burada bəsit quruluşlu, kənd emalatxanasının fəaliyyət göstərdiyini deməyə əsas verir (14, s. 63). Dəmirçiliklə bağlı istehsal qalıqları Seyidli kənd tipli yaşayış yerində də qeydə alınmışdır. Yaşayış yerinin XII əsrə aid inşaat qatında 40-50 sm qalınlığında kül-kömür parçaları, həmçinin istehsal tullantıları tapılmışdır. Arxeoloji materiallar burada XII əsrdə dəmirçi emalatxanasının fəaliyyətini təsdiq edir (8, s. 129).

Dəmirçiliklə bağlı istehsalat qalıqlarına III Hacıalılı kənd yaşayış yerində aparılmış arxeoloji qazıntılar zamanı da təsadüf olunmuşdur. Qazıntı sahəsində dəmirçixana qalığının salamat qalan qalıqlarının sahəsi 14 $m^2$ idi. Kürənin yerləşdiyi sahə döyəclənərək bərkidilmiş, üzərinə süvaq çəkilmişdir. Kürə planda ellipsə yaxın formada olub uzunluğu 33 sm, eni isə 26 sm, divarlarının hündürlüyü 20 sm idi. Dəmirçixananın ərazisindən və ətarfından çoxlu sayda kündə formalı metal pasalar tapılmışdır (15, s. 9)

Beləliklə həm yazılı mənbə məlumatları, həmçinin arxeoloji qazıntılarla öyrənilmiş kənd yaşayış yerlərindən əldə olunmuş faktik materiallar IX–XIII əsrlərdə kənd əhalisinin əsas məşğuliyətinin əkinçilik və maldarlıq olduğunu müəyyənləşdirməyə əsas verir. Bununla yanaşı kənd əhalisi həm-

çinin bağçılıq, bostançılıq, balıqçılıq, ovçuluq və arıçılıq kimi yardımçı təsərrüfat sahələri və sənətkarlıqla məşğul olurdu.

## ƏDƏBİYYAT

1. Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, Çaşıoğlu,1999.
2. Azərbaycan arxeologiyası. Altı cilddə, VI cild. Bakı, "Şərq-Qərb", 2008.
3. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, Elm, 1974.
4. Hüseynov M.M, Cəlilov.B.M. Daşbulaq orta əsr yaşayış yeri. // Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı. I Respublika elmi-praktik konfransının materialları. Bakı,2008.
5. Dostiyev T.M. Sərkərtəpədə orta əsr mədəni təbəqəsi. // Tarix və onun problemləri. 1997, № 1.
6. Xəlilov C.Ə. Dərəzaratda orta əsr kəndi. //Azərbaycan tarixi üzrə materiallar. Azərbaycan Tarix Müzeyinin əsərləri. c.3, Bakı, Azərb.SSR EA nəşr.,1960.
7. Məmmədov A. Gəncəbasar IV-XIII əsrlərdə. Bakı, 1992.
8. Dostiyev T.M Şimal-şərqi Azərbycan IX-XV əsrlərdə. Bakı, Bakı Universitetinin nəşr., 2001.
9. Dostiyev T.M. Orta əsrlərdə Müşkür düzündə təsərrufat həyatı. //Bakı Dövlət Universitetinin xəbərləri, Humanitar elmlər seriyası. Bakı, 1999, №. 4
10. Şərifli M.X. IX əsrin ikinci yarısı XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, Elm, 1978.
11. Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2007.
12. Миклухо-Маклай Н.Д. Географические сочинения на парижском языке.// Ученые записки Института востоковедения, т, IX, Москва, Изд-во АН СССР ,1954.
13. Исмизаде О.Ш. Раскопки холма Кара-тепе Мильской степи (1954-1958 гг.). // МИА № 125. Москва-Ленинград, Изд-во АН СССР, 1965.
14. Dostiyev T., Kvaçidze V. I Qıraq Kəsəmən yaşayış yerində aşkarlanmış emalatxana qalıqları haqqında. // Mingəçevir arxeoloji ekspedisiyasının 60 illiyinə həsr edilmiş elmi konfransın materialları. Mingəçevir, 2006.
15. Dostiyev T.M., Məmmədov A. BTC marşurutunun 302-ci km-də III Hacıalılı yaşayış yerində aparılmış arxeoloji qazıntıların geniş elmi hesabatı. Bakı, 2008.

## ECONOMY LIFE OF AZERBAIJAN RURALS IN IX - BEGINNING OF XIII CENTURIES

**Mushfig Bayramov**

### Summary

**Key words:** rural settlement type, archaeology excavation, agriculture, husbandry, economy business.

Information about business of population of a rural on the base of written sources and archaeological proofs got from dwelling places of rural type relating to the beginning of IX-XIII centuries was given in the article. The main economical business of population of a rural were husbandry and cattle-breeding. Special importance was given to the growing of grain plants in husbandry. It was defined that breeding of cattle, sheep and goat had leading position.

Besides this population of a rural was busy with fishing, hunting and bee-keeping as subsidiary economic spheres too. Archaeological excavations give an opportunity to say that a rural population was busy at a certain degree with separate types of trades including weaving, poetry and the profession of a blacksmith.

## ХОЗЯЙСТВЕННАЯ ЖИЗНЬ СЕЛЬСКИХ ПОСЕЛЕНИЙ АЗЕРБАЙДЖАНА В IX - НАЧАЛЕ XIII ВЕКА

**Мушфиг Байрамов**

### Резюме

**Ключевые слова:** поселения сельского типа, археологические раскопки, хозяйственное занятие, земледелие, животноводство.

В статье на основе данных письменных источников и археологических материалов, найденных на поселениях сельского типа IX - начале XIII века, дается информация о занятости сельского населения. Ведущими отраслями сельского хозяйства являлись земледелие и скотоводство. Особенно большое внимание уделялось выращиванию зерновых культур. Кроме этого сельское население было занято такими отраслями подсобного хозяйства как рыболовство, охота и пчеловодство. Археологические раскопки позволили установить, что сельское население определенной степени было занято также различными отраслями ремесла, в частности, ткачеством, кузнечным делом, гончарством.

MARAQLI TAPINTILAR
INTERESTING EXPLORATIONS
ИНТЕРЕСНЫЕ НАХОДКИ

# İMİŞLİ ABİDƏLƏRİNDƏ KERAMİKA NÜMUNƏLƏRİ

**Ramil Rüstəmov**
**(AMEA-nın Şərqşünaslıq İnstitutu)**
**rustemovramil@mail.ru**

**Açar sözlər**: İmişli, keramika, dulusçuluq, çıraqlar

İlk orta əsrlərdə Qafqaz Albaniyası dövlətinin tərkibində olan İmişli ərazisi təxminən Uti vilayətinin ərazisinə daxil olmuşdur. Azərbaycanın qədim tarixinin bir parçası olan bu məkan unikal abidələri ilə məşhurdur. Bir çoxu tədqiq olunmamış və baxımsız qalmış bu tarixi incilərin öyrənilməsinə ciddi ehtiyac var. Belə abidələr sırasında İmişli kurqanları önəmli yer tutur. Rayonun ərazisində diametri 10-20 m, hündürlüyü 3-5 m olan Yedditəpə kurqanları xüsusi diqqət çəkir. Bu kurqanların yaranma tarixi tunc dövrünün sonuna aid edilir. Abidə sıra ilə düzülmüş və birincidən başlayaraq getdikcə böyüyən yeddi dairəvi təpədən ibarətdir.

Bu abidədə 2011-ci ildə kəşfiyyat xarakterli yerüstü arxeoloji müşahidə aparılmış və ərazidən məişət keramikası məmulatları ox ucluqları müxtəlif metal nümunələrlə yanaşı keramika nümunələri də aşkar edilmişdir.

Dulusçuluq məmulatları ölçüsü, forması, üzərindəki naxışları, hazırlandığı material və hazırlanma texnologiyasına görə bir-birindən fərqlənir [7, s.38].

İlk orta əsrlərdə İmişlidə dulusçuluq istehsalının aparıcı sahəsi kimi daha çox məişət keramikasından söhbət açmaq olar. Bu ərazidə dulus ustaları məişətin müxtəlif sahələrində işlədilən çoxlu gil məmulatları hazırlayırdılar. Etnoqrafik tədqiqatlar göstərir ki, məişətdə işlədilən dulusçuluq məhsulu öz təyinatına görə bir neçə qrupa bölünür. Bunların arasında su qabları, yemək qabları, süd məhsulları üçün qablar, evlərin qızdırılması və işıqlandırılması üçün nəzərdə tutulan qablar əsas yer tuturdular [9, s.67].

Təkcə məişətdə işlədilən su qablarının bir neçə növü su daşımaq üçün (səhəng, cürdək, bardaq, şəhrəng, kuzə), su saxlamaq və süfrədə işlətmək üçün (küp, sürahı, qurqur, dolça, parç, tayqulp), yuyunmaq və dəstamaz almaq üçün (aftafa, lüləyin və s.) çox müxtəlif saxsı qablar istehsal edilirdi.

Ümumiyyətlə, dulus ustaları müxtəlif növlü qab-qacaq istehsal etməyi bacarırdılar [6, s.59].

Orta əsrlərin yazılı mənbələrdə Azərbaycanın Bərdə, Şabran, Şamaxı, Şəki, Ərdəbil, Təbriz, Naxçıvan, Gəncə, Ordubad, Muğan və s. şəhərlərində saxsı məmulatının istehsalı barədə məlumat verilir. Bu məlumatlardan aydın olur ki, Muğanın bir çox kəndlərində və İmişli arxeoloji abidələrində gil qablar hazırlayırdılar [2, s.23].

Digər abidələrlə müqayisədə İmişlinin Muxurtəpə və Göyərçin çalası yaşayış yerlərində saxsı qablar istehsalı haqqında məlumat daha çoxdur.

Dulusçuluq istehsalının Qalaça yaşayış yerində də mövcud olması fikri sübut olunmuşdur. Şəhərin ətrafındakı müxtəlif növ gil yataqları burada saxsı qabların istehsalı üçün şərait yaradırdı. 2011-ci ildə şəhərin qala hissəsində aparılmış qazıntı işləri zamanı ilk orta əsrlərə aid edilən xeyli miqdarda saxsı qablar - kasa, boşqab, badya və s. tapılmışdır ki, bunların da əksəriyyəti yerli istehsalın məhsulları idilər.

İmişlidə aparılmış arxeoloji qazıntılar göstərir ki, IX - XIII əsrlərdə dulusçuluq yüksək inkişaf etmiş bir sənət sahəsi kimi tamamilə formalaşmışdı. Bu dövrdə istehsal edilən saxsı qablar istər hazırlanma texnikasına, istərsə də zəngin bəzək elementlərinə görə həm əvvəlki, həm də sonrakı dövrlərlə müqayisədə çox yüksək səviyyəyə qalxmışdı. Su kəmərləri üçün saxsı boruların, tikinti işlərində geniş istifadə edilən kaşı və bəzək kərpiclərinin istehsalına başlanması da bu dövrlə bağlıdır [10, s.87].

Monqol işğalları Muğanda, ümumiyyətlə Azərbaycanda sənətkarlığın digər sahələri kimi dulusçuluğun inkişafına da ağır zərbə vurdu. Geriləmə özünü məişətdə işlədilən saxsı qabların istehsalında daha aydın göstərirdi. Bununla belə, məişət keramikasının istehsalında yaranmış bu gerilik sonrakı əsrlərdə tikinti keramikasının həcminin artması ilə əvəz olundu. IX-XII əsrlərdə tikinti işlərinin genişlənməsi bəzək işlərində istifadə edilən dekorativ kərpic və kaşı istehsalının həcminin artmasını zəruri edirdi [11, s.53].

Keramika məmulatı sırasına hər birinin müxtəlif növləri olan küplər, qazanlar, səhənglər, bardaqlar, aftafalar, silbiçlər, süd qabları, dolçalar, çıraqlar, qəlyanlar və s. aid edilir. Bu qabların bədii tərtibatı zamanı xətti və nöqtəvari naxışlardan geniş istifadə edilirdi.

Son orta əsrlərdə İmişli ərazisində şirli qablardan da geniş istifadə olunurdu. Bu tipli qablar sırasına bardaq, güldan, vaza, çıraq, kasa və s. daxil idi.

XII-XIV əsrlərdə Azərbaycanda tikinti keramikası da yüksək inkişaf etməsilə əlaqədar Azərbaycanın ayrı-ayrı şəhərlərində, o cümlədən Muğan ərazisində sarayların, karvansaraların, hamamların tikintisi zamanı şirli üzlük materialdan və keramik mozaikadan geniş istifadə edilirdi [3, s.28].

Monqol dövrünü də əhatə edən ümumi iqtisadi tənəzzül dulusçuluğa da mənfi təsir göstərmişdir. Mülki tikinti işlərinin azalması, tikililərdə bəzək materialı kimi kaşı və digər dekorativ bəzək vasitələrindən az istifadə edilməsi tikinti keramikasının istehsal həcminin kəskin şəkildə aşağı düşməsinə səbəb olmuşdu.

Əlverişli coğrafi mühitə malik olan Muğan ən qədim insan məskənlərindən biri olmuşdur. Təsərrüfat sahələri formalaşmış zaman keçdikcə daimi yaşayış məskənləri, müdafiə tikililəri, ilkin şəhər mərkəzləri yaranmışdı.

Muğanın arxeoloji tarixinin tədqiqinə XIX əsrin I yarısından başlanmışdı. Dyubua de Monperonun, A.A.İvanovskinin, İ.İ.Meşşaninovun, A.K.Ələkbərovun, İ.M.Cəfərzadənin, A.A.İyessenin, H.Kəsəmənlinin, Ə.S.Cəfərovun və b-nın tədqiqatları qədim muğanlıların təsərrüfat həyatı, adət-ənənələri, dini-ideoloji görüşləri haqqında dəyərli elmi məlumatlar verir [4, s.121].

Qədim insanların həyat tərzini öyrənmək üçün yaşayış məskənləri mühüm əhəmiyyət daşıyır. Bu cəhətdən İmişlidə Muxurtəpə, Qaratəpə, Qoşatəpə, Qaradonlu yaşayış yeri və s. abidələr böyük maraq doğurur.

Muxurtəpə yaşayış yerinin əhalisi oturaq həyat keçirmiş, əkinçilik, maldarlıqla, sənətin müxtəlif sahələri ilə (dulusçuluq, metalişləmə, toxuculuq, sümükişləmə, daşişləmə və s.) məşğul olmuşlar [3, s.20].

IX əsrdən başlayaraq Azərbaycanda şirli qabların bədii tərtibatını zənginləşdirmək üçün anqob adlanan gil məhluldan istifadə etmişlər. Anqob elə gildən hazırlanmalı idi ki, kürədə bişəndən sonra öz təbii rəngini saxlamış olsun. Anqob gilləri ağ, qırmızı, çəhrayı, sarı və başqa rənglərdə olsun. Anqob məhlul saxsı qabın həm daxili, həm də xarici səthinə çəkilməklə onun təbii qırmızı və ya boz rənginin üstünü örtürdü. Beləliklə, anqob şir ilə çəkilmiş təsvirlər və naxışlar üçün rəngli fon yaradırdı.

Şirli qablar üç vəzifə daşıyırdı: həm yemək qoyulmaq üçün işlənir, həm də otaqları, süfrələri bəzəyirdi. Bundan əlavə qablardan memorial məqsədlər üçün də istifadə edilirdi. Odur ki, bir çox qabların içində şerlərdən parçalara, quran ayələrinə və yaxud dulusçu ustaların adlarına rast gəlirik [5, s.39].

Beyləqandan tapılan qab fraqmenti üzərindəki süjet xüsusilə maraqlıdır. Burada şərti dekorativ üslubda işlənmiş atlı fiquru verilmişdir. Şərtlik fiqurların təkcə real proporsiyadan kənar tərzdə icrasında deyil, istifadə edilən rənglərində də özünü büruzə verir. Məsələn, qab üzərində təsvir olunan at yaşıl, it bənövşəyi, qaçan heyvanlar sarı rəngdə verilmişdir.

Rənglərin belə kontrastlıq prinsipi əsasında quruluşu, fiqurların hərəkətindəki mürəkkəb ritm və fonda verilən böyük həcmli yarpaq, qönçə motivləri qabı bədii cəhətdən xüsusi ilə görkəmli etmişdir.



**Şəkil 1. Duz qabı.**

XI-XIV əsrlərdə Azərbaycanda sənətkarlığın demək olar ki, bütün sahələri inkişaf etmişdi. Bu növlərin bəziləri dulusçuluq, misgərlik, ipəkçilik sənəti və s. bir çox sexləri olan böyük emalatxanalar əsl mənada geniş sənaye istehsalına çevrilir, öz məhsulları ilə xarici ölkə bazarlarında şöhrət qazanırdı. Lakin xalq sənətimizin bu dövrlərdə elə növləri olmuşdur ki, həm yerli xammalın azlığından, həm də ölkədə ona az ehtiyac olduğundan nisbətən zəif inkişaf etmişdir[3, s.35].

Muğanda istehsal olunan VIII-XII əsrlərə aid saxsı qabların bəzilərində emalatxana damğası ilə yanaşı, onu hazırlayan ustanın da adı yazılırdı. Məsələn, Gəncədə tapılmış bir saxsı qabın üzərində “Əhməd Əbubəkr oğlu Gəncəvi”, Beyləqandan tapılmış bir sıra qabların üzərində isə “Əli Əziz oğlu”, “Nəsr”, “Xəttab”, “Rüstəm”, “Seyidəli” və s. adlara rast gəlirik [8, s.87].

Xalq ustaları düzəldilən əşyanın bütün konstruktiv və bədii xüsusiyyətlərini nəzərə alaraq forma ilə məzmun arasında çox düzgün və gözəl vəhdət yaradırdılar. Bu əsrlərdə yaradılmış şirli qablardan birinə nəzər salaq. Məsələn, XII-XIII əsrlərə aid olan bir Beyləqan nimçəsinin üstündə ova çıxmış bir gəncin təsviri verilmişdir. Ritmik hərəkətlə addımlayan gözəl bir at üzərində oturmuş bu gənc zadəganlara məxsus yaşıl əba geymiş və başına tac qoymuşdur. Naməlum şəxsin ova getməsini atın tərkində oturan bəbir də təsdiq edir.

Ancaq XIII əsrin sonu – XIV əsrin əvvəllərində Muğanda bu sənət sahəsinin istehsalı dirçəlir.

Araşdırmalar göstərir ki, Azərbaycanda bu əsrlərdə məişətdə geniş istifadə edilən saxsı məmulatları ilə yanaşı, müxtəlif formalı bədii kaşılar da istehsal edilmişdir. Bu növ məmulat əsas etibarilə memarlıq sahəsində istifadə edilmiş və Azərbaycanın bir çox şəhərlərindəki məscidlərdə, hamamlarda, saraylarda və s. yerlərdə işlədilmişdir [6, s.120].

Ərəb tarixçilərindən Müqəddəsi, Həməvi və başqaları Azərbaycan şəhərlərində bişmiş kərpicdən tikilmiş və kaşılarla bəzədilmiş binaların olma-

sını xəbər verirlər. X əsrin əvvəllərində yaşamış və şəxsən Bəlhab şəhərində olmuş İbn Havqəl yazır ki, Bəlhab çox əhaliyə malik gözəl şəhər olub, kərpicdən tikilmiş evləri kaşılarla bəzənmişdir.

Azərbaycanda saxsı məmulatlarını bəzəmək, onlarda kəsmə, oyma, cızma üsulu ilə naxışlar açıb insan, heyvan və başqa təsvirləri həkk etmək XI-XIII əsrlərdə dekorativ-tətbiqi sənətin geniş yayılmış sahələrindən idi. Bu əsr saxsı bəzəklərinin bədii xüsusiyyətlərinə diqqət yetirsək onların həndəsi, nəbati, insan, heyvan, hətta süjet xarakterli mövzularla icra edildiyini görərik. XI-XII əsrlərdə hazırlanmış keramika nümunələri üzərində daha çox həndəsi və stilizə edilmiş nəbati ornamentlərlə XIII əsrdə və sonralar isə nisbətən real səpgidə işlənmiş, gül-çiçək, insan və heyvan təsvirlərilə qarşılaşırıq [5, s.62].

Onu da qeyd etmək lazımdır ki, oyma işlərinin tərtibatında istifadə edilən yazılarda biz XI-XII əsrlərdə həndəsi və nəbati ornamentlərlə bəzədilmiş bəzəklərə bənzər kufi yazılara rast gəliriksə, XIII və sonrakı əsrlərdə real səpgidə oyulmuş nəbati ornamentlər arasında gül-çiçək rəsmini andıran bədii “nəstəlik” xəttini görürük.

Bu əsərlərdə yaradılmış daş üzərində oyma işlərinin ən böyük və maraqlı səhifəsini nəbati ornament və canlıları təsvir edən rəsmlər təşkil edir [1, s.60].

Azərbaycanın orta əsr incəsənətində bu tipli sinkretik obrazların geniş yayılması heç də təsadüfi olmamışdır.

Araşdırmalar göstərir ki, qədim türkdilli xalqların dastan və rəvayətlərində qəhrəmanlar çox zaman sinkretik obrazlar şəklində qələmə verilirdi. Məsələn, məşhur “Oğuznamə” əsərində oğuz tayfasının mifik əcdadı sayılan Oğuzun meydana gəlməsini yada salaq. “Oğuzun ayağı öküz ayağı tək, beli qurd beli tək, çiyni samur çiyna tək, köksü ayı köksü tək idi”.

Bu dövrdə saxsı qabların yayılması arealı Azərbaycanın demək olar ki, bütün şəhər və vilayətlərini əhatə edirdi. Bir çox yaşayış məntəqələrində, o cümlədən Beyləqanda aparılan arxeoloji qazıntılar nəticəsində Azərbaycanda şirsiz və şirli qablar istehsalının yüksək səviyyədə olduğunu sübut edən çoxlu materiallar aşkar edilmişdir [7, s.37-38]. Beyləqanda tapılmış 9 dulus kürəsindən 8-i saxsı qablar, biri isə kərpic bişirmək üçün nəzərdə tutulmuşdu [8, s. 29]. Azərbaycanın müxtəlif şəhərlərində və digər yaşayış məntəqələrində aparılmış arxeoloji qazıntılar göstərir ki, IX –



Şəkil 2. Deformasiyaya uğramış dolça nümunəsi.

XIII əsrlərdə dulusçuluq yüksək inkişaf etmiş bir sənət sahəsi kimi tamamilə formalaşmışdı. Bu dövrdə istehsal edilən saxsı qablar istər hazırlanma texnikasına, istərsə də zəngin bəzək elementlərinə görə həm əvvəlki, həm də sonrakı dövrlərlə müqayisədə çox yüksək səviyyəyə qalxmışdı. Su kəmərləri üçün saxsı boruların, tikinti işlərində geniş istifadə edilən kaşı və bəzək kərpiclərinin istehsalına başlanması da bu dövrlə bağlıdır [9, s. 57].

Arxeoloji qazıntılar nəticəsində orta əsr təbəqəsindən əldə olunmuş tapıntılar əmək alətləri və silah nümunələrindən, inşaat materialları və məişət əşyalarından, şirli və şirsiz saxsı, fayans qab nümunələrindən, metal, sümük və şüşə məmulatdan, bəzək əşyalarından, mis sikkələrdən ibarətdir. Mavi şirli kirəmit fraqmentləri də maraqlı tapıntılardandır. Əmək alətləri içərisində bıçaqlar çoxluq təşkil edir. Polifunksional əmək aləti olan bıçaqlar ölçü və formalarına görə fərqlənir. Sənətkar alətlərindən balta, çəkic və zərgər zindanını xüsusi qeyd etmək olar. Qarmaqlar da çox tapılır və onlar müxtəlif ölçüdədir. Məişətdə işlədilən ərsinlər iki nüsxə ilə təmsil olunub.

Tapıntıların böyük əksəriyyətini saxsı məmulatı təşkil edir. Şirsiz və şirli olmaqla saxsı məmulatı iki böyük bölməyə ayrılır. Şirsiz saxsı məmulatı, əsasən, təsərrüfat və məişətdə işlədilən müxtəlif təyinatlı qablar – küplər, səhənglər, bardaqlar, sərniclər, güvəclər, tavalar, küpələr, çıraqlar, şarkonusvari qablar ilə təmsil olunmuşdur. Onların əksəriyyətinin gili təmiz olub dulus çarxında hazırlanmış, sabit hərarət rejimində bişirilmiş, saxsısı sıx, rəngi çəhrayı-qırmızıdır. Şirsiz saxsı məmulatın bəzədilməsində cızma düz və dalğalı xətlər, çərtmələr, nöqtələr və batıqlar, yapma düyməciklərdən ibarət naxışlara, bəzən inkrustasiyaya rast gəlinir. Güvəclərin bədii tərtibatına xüsusi diqqət verilməsi də qeyd olunmalıdır. Onlar yapma qurşaqlar, düyməciklər, cızma xətlər, batıqlar, nöqtələr və s. naxış elementləri ilə bəzədilib [11, s.76].

Orta əsr İmişli şəhərinin saxsı məmulatı üçün qırmızı boyalı qablar da səciyyəvidir. Onların arasında orijinal forması ilə seçilən nümunələr də vardır. Misal üçün, ağzı novçalı kiçik tutumlu qabın boğazında simmetrik dörd yarımsilindr formasında bayıra genişlənmə ona bənzərsiz görünüş verir. Digər qab zoomorf forması ilə fərqlənir. Boğazı dövrələyərək dairə yaradan qırmızı zolaqdan qabın gövdəsinin aşağısınadək çəkilmiş əyri zolaqlar orta və kiçik tutumlu bardaq və ya dolçaları daha cazibədar göstərir. Qırmızı boyalı, üzərində möhürlə vurulmuş ornamental kəmər olan küp nümunələrinin çoxluğu da qeyd edilməlidir. Möhürlə salınmış ornamental kəmərlərdə, adətən, keçi, maral, at, it, quş, balıq təsvirlərinə, dirilik ağacına, bəzən insan təsvirinə rast gəlinir [1, s.76].

Erkən şirli saxsı məmulatı içərisində anqob və marqansla naxışlanaraq şəffaf, rəngsiz, açıq sarı və ya yaşıl şirlə şirlənmiş qablar çoxluq təşkil edirlər. Anqob, marqansla və mis oksidi ilə (yaşıl rəng) naxışlanaraq şəffaf,

rəngsiz və ya şəffaf, açıq sarı rəngli şirlə şirlənmiş erkən polixrom şirli qablar da IX-X əsrlər üçün səciyyəvidir. Onlar əsasən həndəsi və stilizə olunmuş nəbati naxışlarla bəzədilib. X əsrin sonundan qabların bədii işlənməsində şir altından cızma üsulla naxışlar salınmağa başlanır. Belə qablar daha çox yaşıl rəngdə şirlə şirlənib [6, s.54].



**Şəkil 3. Şirli saxsı nümunəsi**

İlk orta əsrlərin saxsı məmulatı arasında cızma, qazıma naxışlı monoxrom qablar, orta əsrlər məmulatı arasında isə ağ anqob üzrə şir altından marqansla naxışlanmış qablar, cızma üsulu və müxtəlif rənglərlə işlənmiş nəfis polixrom şirli qablar geniş yayılmışdı. XI-XIII əsrin əvvəllərində polixrom şirli qabların istehsalına üstünlük verilmişdi. Onların bədii işlənməsində həndəsi və nəbati naxışlar, quş təsvirləri geniş tətbiq olunmuşdur. Bir polixrom şirli boşqab üzərində ovçu təsvirinə rast gəlirik. Üzərində süjetli səhnə olan digər qabın üzərində bir əlində qılınc, digər əlində qalxan tutmuş süvarinin fantastik varlıq – əjdaha ilə vuruşması təsvir olunub.

Orta əsr İmişli şəhərinin şirli və şirsiz saxsı məmulatının müqayisəli təhlili onun Gəncə, Beyləqan, Bərdə və Dəbil şəhərlərinin keramikası ilə oxşarlıq təşkil etdiyini, Arran keramika məktəbinin mühüm mərkəzlərindən biri olduğunu təsdiq edir [4, s.211].

İmişli keramikası içərisində fayans qab nümunələri də az deyil. Çıxar nümunələrinə rast gəlinməsi yerli fayans istehsalının mövcudluğundan xəbər verir. Nümunələr əsasında kasa və piyalələrin istehsalının kütləvi xarakter daşıdığını düşünmək olar. Orijinal, az rast gəlinən qablara da təsadüf olunur. Fayans qabların şirlənməsində ağ süd rəngli, mavi, firuzəyi, qəhvəyi, göy rəngli şirlərdən istifadə olunub. Yerli fayans qabların bədii işlənməsində boya, cızma, basma və oyma üsullarından istifadə edilib. Rey və Kaşandan götürülmə fayans məmulatı strukturuna və bədii tərtibatına görə yerli nümunələrdən fərqlənir [10, s.73].

Tapıntılar məişətdə nəfis şüşə qab-qacaqdan geniş istifadə edildiyini təsdiqləyir. Qrafin, bərni, bokal, piyalə, stəkan və flakon fraqmentləri onların əsasən şəffaf şüşədən yüksək peşəkarlıqla hazırlandığını göstərir. Pəncərə şüşələrinin fraqmentləri də maraqlı tapıntılardan hesab edilir və XI-XII əsrlərdə disk şəkilli pəncərə şüşələrinin geniş yayıldığını təsdiqləyir.

# ƏDƏBİYYAT

1. Abbasova F. Ə. Azərbaycanın orta əsr zoomorf əşyaları. Bakı, 2004.
2. Ağamalıyeva S.M. Dulusçuluq. Azərbaycan etnoqrafiyası. I c. Bakı, 1988.
3. Azərbaycan DTA, f. 24, siy. 1, iş 162.
4. Azərbaycan tarixi (Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsi ilə), Bakı, 1994.
5. Cəbiyev Q. C. Azərbaycan keramikası. Bakı, 2003.
6. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı, 1979.
7. Həvilov H.A. Azərbaycan etnoqrafiyası. Bakı, 1991.
8. Hüseynov M. Azərbaycan memarlıq tarixi, Bakı, 2007.
9. Гейдаров М.Х. Города и городское ремеслоАзербайджана XIII-XVIIвв. Баку, 1982.
10. Məmmədov A. M. Gəncəbasar III-XIV əsrlərdə. Bakı, 1993
11. Огранович И.Л. Провинции Персии: Ардебильская и Серабская. КОИРГО. 1876, №2.

## CERAMICS SAMPLE ON IMISHLI MONUMENTS

**Ramil Rustamov**

**Summary**

**Key words:** Imishli, ceramics, pottery, lamps.

The middle age different kind of ceramic materials was used in welfare. This process had characterized for Imishli area. Because Imishli had been in close relation with such mastership city of Ganja, Barda, Beylagan, Ardabil, also Aran pottery school has received widespread here.

IV-VII century was very different with unglazed ceramic plates its variety and form. Many range of dishes related with their different aimed using.

But there were such ways that, but they were typical to Azerbaijan, also for Mughan region. They could be referred to dishes that drawn bird and animal picture as lively between grasses. This group of dishes preparing with pattern by drilling way. Azerbaijan masters of VIII-X century all technical opportunities of producing ceramic especially Beylagan, Barda, Ganja, Mughan potteries has not adopted.

# КЕРАМИЧЕСКИЕ ОБРАЗЦЫ В ПАМЯТНИКАХ ИМИШЛИ

**Рамил Рустамов**

## Резюме

**Ключевые слова:** Имишли, керамика, гончарные изделия, лампы.

В средние века фаянсовые изделия широко использовались для различных целей. Этот процесс был также характерен для территории Имишли, так как Имишли был тесно связан с такими ремесленными городами как Гянджа, Барда, Бейлаган, Ардебиль, а также школа гончарного дела здесь была широко распространена.

Неэмалированные фаянсовые сосуды IV-VII вв. различны по форме и сорту, что, по-видимому, связано с использованием их для различных целей.

Но имеются такие стили, которые характерны только для Азербайджана, а также Муганской области. К ним можно отнести зеленые вязаные ленты, сосуды с изображениями животных и птиц. Узор сосудов этой группы изготавливался путем вырезания.Мастера Азербайджана, особенно гончары Бейлагана, Гянджи, Барды, Мугани своего времени усвоили все технические достижения фаянсового производства.

# ELM TARİXİ
# SCIENTIFIC HISTORY
# ИСТОРИЯ НАУКИ

## АЗЯРБАЙЪАНДА КЦР-АРАЗ МЯДЯНИЙЙЯТИ АБИДЯЛЯРИНИН ЮЙРЯНИЛМЯ ПРОБЛЕМИ

**Ямращ Дадашов**
(Бакы Дювлят Университети)
**vasifnebiyev88@mail.ru**

**Açar sözlər:** arxeoloji mədəniyyət, istehsal təsərrüfatı, əkinçilik, maldarlıq, tərəqqi.

Кечян ясрин 50-60-ъы илляриндя Гафгаз археолоэийасынын диггят мяркязиндя дуран мцщцм проблемлярдян бири Кцр-Араз мядяниййяти олмушдур. Йерли якинчи-малдар ъямиййятлярин игтисади, иътимаи вя мядяни щяйатындакы ясаслы дяйишикликляри сяъиййяляндирян бу гядим археоложи мядяниййятин мцяййян едилмяси эюркямли гафгазшцнас археолог Б.А.Куфтинин ады иля баьлыдыр. Истедадлы алим щяля ютян ясрин 30-ъу илляринин сонларында узун иллярдян бяри Тбилиси Дювлят Музейинин археоложи фондларында йыьылмыш мадди мядяниййят нцмунялярини тясниф етмякля онларын бюйцк бир групуну охшар юзял хцсусиййятляриня, дювр вя ярази мянсубиййятиня эюря мцстягил археоложи мядяниййятя аид етмиш вя бу мядяниййяти Кцр-Араз Енеолит мядяниййяти адландырмышдыр (1). Лакин сонралар Ъянуби Гафгазда вя Юн Асийанын айры-айры реэионларында апарылан археоложи ахтарышларын уьурлу нятиъяляри бу гядим мядяниййятин ярази вя дюврц чярчивяси мясялясиндя ясаслы дяйишикликляр етмяк зярурятини доьурмушдур. Илк нювбядя мялум олмушду ки, Кцр-Араз мядяниййяти вахты иля Бюйцк Гафгаз силсилясиндян Аралыг дянизинин Шярг сащилляринядяк эениш яразиляри ящатя етмиш, йерли якинчи малдар ъямиййятлярин мадди мядяниййятиндя силинмяз изляр гоймушдур. Диэяр тяряфдян мялум олмушду ки, бу мядяниййят Енеолит-мис дюврцня йох, билаваситя еркян тунъ дюврцня аиддир (2).

Диггят ъялб едян башга бир ъящят ондан ибарят олмушду ки, эениш ъоьрафи мяканда тяшяккцл тапан вя йайылан Кцр-Араз мядяниййятинин илк мадди нцмуняляри щяля ХЫХ ясрдя билаваситя Азярбайъан яразисиндя цзя чыхарылмышдыр. Бунлар, 1869-ъу илдя Дашкясян бюлэясиндян тапылан цзяри ъилаланмыш 2 ядяд эил габ нцмунясиндян ибарят олмушдуг (3).

Тяяссцф ки, тарихи Азярбайъан яразисиндя Кцр-Араз мядяниййя-тиня мянсуб археоложи абидялярин ясаслы тядгиги ЫЫ Дцнйа мцщарибясиндян сонракы иллярля баьлыдыр.

1948-ъи илдя инэилис археологу Т.Буртон-Браун Ъянуби Азярбайъандакы чохтябягяли Эюйтяпя абидясиндя Кцр-Араз мядяниййятинин мядяни тябягясини цзя чыхармышдыr (4). Тядгигатчы бу тябягяни шярти олараг «К» ишаряси иля гейдя алмышдыr. Яслиндя Эюйтяпя абидяси Тарихи Азярбайъан яразисиндя Кцр-Араз мядяниййятиня аид илк йашайыш йери олмушдуг. Кяшфиййат га-зынтылары иля Эюйтяпядя гейд олунан мядяниййятя аид тикинти галыглары, ъилалы габ нцмуняляри вя сцни гарышыгдан дцзялдилмиш тунъ яшйалар тапылмышды (5).

1946-1953-ъц иллярдя Минэячевир йахынлыьында Кцр чайы цзяриндя СЕС тикинтисинин апарылмасы иля ялагядар эениш мигйаслы газынты ишляри бурада юйрянилян гядим мядяниййятя аид даща мараглы вя зянэин археоложи комплексин ашкар олунмасы иля нятиъялянмишди. Танынмыш археолог С.М.Газыйевин башчылыг етдийи газынтыларла Кцр чайынын саь сащилиндя гядим йашайыш йеринин галыглары вя щямдюврт торпаг гябирляр цзя чыхарылмышды. Газынтылар заманы йашайыш йериндя йарымгазма шякилли йашайыш евляри ашкар олунмуш чохлу мигдарда мяишят аваданлыьы, тясяррцфат алятляри вя диэяр мадди мядяниййят нцмуняляри тапылмышдыr (6).

Кцр-Араз мядяниййятинин юйрянилмяиндя Нахчыван шящяри йахынлыьында йерляшян Кцлтяпя адлы чохтябягяли абидясиндя башланан газынты ишляри хцсуси ящямийят кясб етмишдиr. Истедадлы азырбайъанлы археолог О.Щ.Щябибуллайевин рящбярлийи алтында апарылан узун мцддятли тядгигатларла (1951-1964) Кцлтяпя абидясиндя палеометал дюврцнцн бцтцн мярщялялярини ящатя едян 21 м галынлыьында зянэин мядяни тябягя ашкар олунмушдуг (7). Щямин мющтяшям тябягянин 9 м галынлыьында олан мядяни гат-ларынын билаваситя Кцр-Араз мядяниййятиня аид олмасы Гафгаз, о ъцмлядян Азярбайъан археолоэийасы цчцн надир щадися кими гиймятляндирилмишдиr.

Газынтыларла щямин тябягядя чий кярпиъ мемарлыьына аид даиряви вя дюрдкцнъ тикинти галыглары цзя ахтарылмыш, якинчилик вя малдарлыг мяшьулиййятини, дашишлямя, тохуъулуг, дулусчулуг, метал истещсалы вя диэяр сянят сащялярини якс етдирян чохлу тапынтылар ялдя едилмишдиr. Тапылан метал яшйалар вя бирбаша онларын истещсалында ишлядилян аваданлыьын елми ящямиййяти хцсусиля бюйцк олмуш, тякъя Азярбайъанда йох, бцтцн Гафгазда гядим металишлямянин башланьыъ тарихи щаггында мювъуд тясяввцрляри ясаслы шякилдя дольунлашдырмышдыr.

Кцлтяпя газынтыларынын мцсбятр нятиъяляриндян бири Кцр-Араз мядяниййятиня аид тябягядян алтда даща гядим мядяни тябягянин цзя чыхарылмасы олмушду. Илк якинчилик мядяниййятиня мяхсус щямин тябягядян тямиз мисдян щазырланмыш яшйаларын тапылмасы Кцр-Араз мядяниййятинин енеолитя йох, еркян тунъ дюврцня аид олмасыны сцбут етмишдиr.

Ютян ясрин 60-ъы илляринин яввялляриндя Нахчыван яразисиндя Кцлтяпя адлы икинъи бир абидянин кяшфи Кцр-Араз мядяниййятиня аид абидяляринин сайыны артырмагла йанашы бу яразинин гядим мядяни мяркязиндян олмасыны бир даща сцбута йетирмишдиr. Нахчыванчайла Ъящричайын говушдуьу йердя йерляшян вя 10 щектара йахын яразини тутан ЫЫ Кцлтяпя абидясиндя археолог В.Щ.Ялийев тяряфиндян апарылан эениш газынтылар бу абидянин Нахчыван яразисиндя Кцр-Араз мядяниййятиня аид ян бюйцк йашайыш йерляри олдуьуну цзя чыхармышдыr (8). Газынтылар нятиъясиндя бурада мцдафия диварлары, бцръляр, йашайыш евляри, тясяррцфат тикинтиляри ашкар олунмуш, чохлу мигдарда эил габ нцмуняляри, отураг щяйатла баьлы мяишят аваданлыьы, якинчи-малдар игтисадиййатыны якс етдирян ямяк алятляри, ев щейван-ларынын сцмцкляри вя диэяр тапынтылар ялдя едилмишдир.

Ону да диггятя чатдырмаг лазымдыр ки, кечян йцзиллийин 50-60-ъы илляриндя Азярбайъанда апарылан археложи тядгiгатлар тякъя Нахчыван ярazisи иля мящдудлашмамышды. Азярбайъанын бцтцн бюлэялярини, хцсусян гярб бюлэялярини ящатя едян тядгигатлар Газах шящяри йахынлыьында Кцр-Араз мядяниййятиня мяхсус Баба-Дярвиш гядим йашайыш йеринин тапылмасы иля нятиъялянмишдиr. Газах шящяриндян 6-7 км ъянуби-гярбдя, Акстафачайын щцндцр сол сащилиндя йерляшян Баба-Дярвиш абидясиндя И.Щ.Няриманов тяряфиндян 1958-ъи башланан илк газынтылар вя сонралар Г.С.Ис-майылзадя тяряфиндян давам етдирилян тядгигатларла бу абидядя чохлу сайда тясяррцфат гуйулары, даиряви тикинти галыглары, эил габлар, оъаг гурьулары, кичик юлчцлц эил фигурлар, сцмцк вя дашdan

щазырланмыш мяишят вя тясяррцфат аваданлыьы, якинчилик алятляри вя диэяр мадdи мəдяниййят нцмуняляри ашкара чыхарылмышдыр. Ялдя едилян дянли битkи галыглары вя остеоложи материал Баба-Дярвиш гядим йашайыш йеринин тясяррцфат щяйатында якинчилик вя малдарлыьын мцщцм йер тутдуьуну нцмайиш етдирмишдиr (9).

Гейд етмялийик ки, 60-ъы иллярин уьурлу археоложи ахтарышлары Баба-Дярвиш гядім йашайыш йеринин тядгиги иля битмямишдиr. Аз мцддятдя Азярбайъанын айры-айры бюлэяляриндя: Мил-Гарабаь дцзцндя, Муьанда, Эянъячай щювзясиндя, Дашкясяндя, Нахчыванда, Кичик Гафгазын ъяннуб-шярг ятякляриндя, Ширванда, еляъя дя Ъянуби Азярбайъанда Еркян якинчилик мядяниййятляриня, ейни заманда Кцр-Араз мядяниййятиня аид мяишят тясяррцфат вя дяфн комплексляри гейдя алынмышдыr. Щямин комплексляр ичярисиндя эюркямли Азярбайъан археологу И.М.Ъяфярзадя тяряфиндян 1960-ъы илдя Дашкясян даьлыг зонасында – Хошбулаг йайлаьында чохтябягяли курган абидясинин газылмасы мцщцм вя мараглы археоложи кяшф кими гиймятляндирилмишдиr (10).

Ютян ясрин 60-ъы илляриндя узун мцддят юзцнцн йалныз гайацстц тясвирляри иля мяшщур олан Гобустанда илк газынты ишляринин башламасы Азярбайъан археолоэийасы цчцн яламятдар олмуш, абидя щаггында тясяввцрляри ясаслы шякилдя дяйишмишди. Йорулмаг билмяйян гоъаман археолог И.М.Ъяфярзадянин ряшбярлийи алтында 1960-61-ъи иллярдя Бюйцкдашдакы Овчулар заьасы адланан абидядя апарылан газынтылар вя ялдя едилян археоложи материаллар Гобустанын гядим дюврлярдян отураг якинчи-малдар тайфаларын мяканы олдуьуну эюстярмишдиr (11).

Сонракы иллярдя И.М.Ъяфярзадянин йетирмяляри Ъ.Н.Рцстямов вя Ф.М.Мурадова тяряфиндян давам етдирилян вя 1971-ъи иля гядяр давам едян эениш мигйаслы ахтарышлар Гобустанда бир сыра йени абидялярин: Ана заьа, Чардаь заьа, Кичик дашда ися Фируз Ы чохтябягяли ибтидаи инсан мяскянляринин цзя чыхарылмасы иля яламятдар олмушдуr. Адлары чякилян абидялярин цст мядяни тябягяляриндя Кцр-Араз мядяниййяти цчцн хас олан якинчи алятляринин, мяишят-тясяррцфат аваданлыьынын, сяъиййяви ъилалы дулус мямулатынын, бязяк вя силащ нцмуняляринин тапылмасы юйрянилян мядяниййятин ъоьрафи чярчивясини вя локал хцсусиййятлярини мцяййян етмяйя имкан йаратмыш, ейни заманда мялум гядим тясвирлярин дюврц тяснифатыны дягигляшдирмишдиr. Гобустанда Кцр-Араз мядяниййятиня аид гябир абидяляринин –

курганларын вя даш гуту гябирлярин ачылмасы да Азярбайъан археолоэийасы цчцн бюйцк йенилик олмушдуr (12).

Кцр-Араз мядяниййятиня мяхсус йени абидяляр силсиляси 1960-1970-ъи иллярдя археолог Г.С.Исмайылзадя тяряфиндян Кичик Гафгазын ъянуб-шярг щиссясиндя, Гуручай-Кюндялянчай вадисиндя ашкар едилмиш вя юйрянилмишдир. Онлардан Фïзули шящяринин эиряъяйиндя йерляшян Гаракюпяктяпя вя Эцняштяпя, Гуручай-Кюндялянчай вадисинин Араз чайына гядярки эениш яразисиндя гейдя алынмыш Мейнятяпя, Узунтяпя, Шомулутяпя, Кцлтяпя вя онларъа диэяр щямдювр археложи комплексляри стратиграфик ъящятдян хцсусиля мараглы вя елми ящямиййятли олмушдуr. Мцхтялиф юлчцлц тяпялярля тямсил олунан щямин абидялярин щамысында Кцр-Араз мядяниййятиня аид гядим йашайыш йерляринин вя тикинти галыглары, якинчилик алятляри, зянэин мяишят аваданлыьы, даш, сцмцк вя метал мямулатына раст эялинмишдиr. Ялдя олунан тапынтылар ичярисиндя чохлу сайда тунъ мямулатынын вя онларын щазырланмасында истифадя олунмуш ямяк алятляри – даш вя эил гялиблярин, бутяляр, металын яридилмяси цчцн истифадя олунан ода-да-вамлы хцсуси эил габлар вя диэяр гиймятли тапынтылар олмушду. Ящямиййятлидир ки, гейд олунан абидялярин бюйцк гисминдя Кцр-Араз мядяниййятиня аид галын мядяни тябягяляр ашкар олунмушдуr (13).

Йухарыда ады чякилян Гаракюпяктяпя абидясиндя Кцр-Араз мядяниййятиня аид мядяни тябягянин галынлыьы 6 м-дян артыг олмушду. Щямин мядяни тябягядя ейни заманда бир нечя тикинти лайы гейдя алынмышдыр. Гаракюпяктяпя абидясиндя даш мемарлыьы даща эениш вцсят тапмышды. Бунунла даиряви формалы тикинтиляр Гаракюпяктяпя йашайыш йеринин дя сяъиййяви хцсусиййятини тяшкил етмишди. Ейни формалы тикинти галыгларына йахынлыгдакы Эцняштяпя абидясиндя дя тясадцф олунмушду.

Гуручай-Кюндялянчай вадисинин абидяляриндян данышаркян беля бир факты да нязяря чатдырмаг лазымдыр ки, онларын чохунда Кцр-Араз мядяниййяти тябягясиндян алтда даща гядим якинчилик мядяниййятиня, цстдя ися тунъ дюврцнцн сонракы мярщялясини якс етдирян мядяни лайлар цзя чыхарылмышдыр.

Кечян ясрин 70-80-ъи илляриндя Кцр-Араз мядяниййятиня аид бир сыра йени абидяляр Нахчыван яразисиндя гейдя алынмыш вя юйрянилмишдиr. Онларын ичярисиндя Ы вя ЫЫ Махта, Хяляъ, Шащтахты, Шортяпя, Яряб Йенэиъя, Ашаьы Дашарх вя Овчулартяпя кими чохтябягяли абидяляр Кцр-Араз мядяниййятинин бир сыра мцщцм проблемлярини щялл етмяйя имкан вермишдиr (14). Бу ъящят-

дян Овчулартяпя абидяси хцсусиля юнямли олмушдур. Эениш газынты ишляри иля тядгиги щяля дя давам едян Овчулартяпя комплексиндян тапылан мадди мядяниййят нцмуняляри Кцр-Араз мядяниййятинин эенезиси мясялясинин ишыгландырылмасында эениш имканлар ачмыш, онун песпертивлярини мцяййян етмишдиr (15).

Кцр-Араз мядяниййятиня аид елми дяйярли комплеслярдян данышаркян Азярбайъанын шимал-шяргиндя, билавасития Хачмаз бюлэясиндя тяърцбяли археолог Д.Л.Мусайев тяряфиндян тядгиг олунан сяркяртяпя гядим йашайыш йеринин адыны чякмяк дя зяруриди. Узун иллярдян бяри апарылан газынтыларла Сяркяртяпядя Кцр-Араз мядяниййятиня аид мющтяшям мядяни лайын мювъудлуъу цзя чыхарылмыш, бу гядим йашайыш йеринин игтисади, иътимаи вя мядяни щяйатына аид мцщцм археложи артефактлар ялдя едилмишдиr (16).

Гейд олунан абидяляр вя цзя чыхарылан сайсы-щесабсыз мадди-мядяниййят нцмуняляри иля Кцр-Араз мядяниййяти иля баьлы мювъуд тясяввцрляр ясаслы шякилдя зянэинляшдирилмиш, эяляъяк тядгигатлар цчцн эениш имканлар ачылмышдыr (17).

## ЯДЯБИЙЙАТ

1. Куфтин Б.А. Урартский «колумбарий» у подошвы Арарата и Куро-Аракский энеолит. БМТ, т. XIII, Тбилиси, 1944.
2. Иессен А.А. Кавказ и Древний Восток в IV и III тыс. до н.э. КСИА, 1960, вып. 78.
3. Исмаилзадя Г.С. Азярбайъанда Кцр-Араз мядяниййяти абидяляринин юйрянилмя тарихи. Аспирант тядгигатлары. Бакы, 1962.
4. T.Burton-Brovn. Excavation in Azerbaijan, 1948. London, 1951.
5. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур, Баку, 1959.
6. Щябибуллайев О.Щ. Кцлтяпядя археложи газынтылар. Бакы, 1959; Йеня онун. Энеолит и бронза на территории Нахчыванской АССР. Баку, 1982.
7. Ялийев В.Щ. Гядим Нахчыван. Бакы, 1979.
8. Исмаилзаде Г.С. Археологическое исследование древнего поселения Баба-Дервиш. Баку, 1978.
9. Иессен А.А. Из исторического прошлого Мильско-Карабахской степи. МИА СССР, № 125, М.-Л., 1965.
10. Джафарзаде И.М. Хачбулагская археологическая экспедиция 1960 года. МКА, т. VIII, Баку, 1976, с. 14-45.
11. Мурадова Ф.М. Гобустан тунъ дюврцндя. Бакы, 1979, с. 12-15.
12. Йеня орада, с. 12-13.
13. Исмайылзадя Г.С. Гуручай вя Кюндялянчай вадисиндя гядим мядяниййят изляри. Бакы, 1981, с. 8-20; Йеня онун. Азербайджан в системе раннебронзовой культурной общности. Баку, 2008.

14. Сейидов А.Г. Нахчыван е.я. ВЫЫ-ЫЫ минилликдя. Бакы, 2003, с. 45-60.
15. В.Бахшялийев, Ъ.Марро, С.Ашуров. Овчулартяпясиндя 2010-ъу илин арашдырмалары. Азярбайъанда археоложи тядгигатлар, Bakı 2010. с. 324-331.
16. Мусаев Д.Л. Серкертепе-поселение эпохи ранней бронзы. Баку, 2006.
17. Азярбайъанын еркян якинчилик дюврц абидяляри (сон тядгигатлар). Бакы, 2011; Азярбайъанын еркян якинчилик дюврц абидяляри (мягаляляр топлусу). Бакы, 2012.

## THE PROBLEM OF STUDYING THE MONUMENTS KURO-ARAXES CULTURE IN THE TERRITORY OF AZERBAIJAN

**Amrah Dadashev**

### Summary

**Key words:** archaeological culture, industrial agriculture, farming, ranching, progress.

In the present article reviews the history of the study of the monuments Kura-Araxes rannebronzovoy culture in Azerbaijan. The first finds the study of culture in Azerbaijan have been identified in the 60-ies of the XIX century. Since that time, the historical territory of Azerbaijan found and studied a large number of domestic and funerary monuments. Among them, it is difficult to overestimate the importance of such monuments as Kultepe I and II, Baba-Dervish, Garakepektepe, Serkertepe, Ovchulartepe and others based on the rich artifacts which shed light on a number of important problems studied the ancient culture of the South Caucasus IV-III millennium B.C.

# ПРОБЛЕМА ИЗУЧЕНИЯ ПАМЯТНИКОВ КУРО-АРАКСКОЙ КУЛЬТУРЫ НА ТЕРРИТОРИИ АЗЕРБАЙДЖАНА

**Амрах Дадашев**

## Резюме

**Ключевые слова:** археологическая культура, производственное хозяйство, земледелие, скотоводство, прогресс.

В представленной статье дан обзор истории изучения памятников Куро-Аракской раннебронзовой культуры на территории Азербайджана. Первые находки изучаемой культуры на территории Азербайджана были выявлены в 60-х годах XIX столетия. За прошедшее время на исторической территории Азербайджана выявлено и изучено большое число хозяйственно-бытовых и погребальных памятников. Среди них трудно переоценить значение таких памятников как Кюльтепе I и Кюльтепе II, Баба Дервиш, Гаракепектепе, Серкертепе, Овчулартепе и др. на основе богатых артефактов которых пролит свет на ряд важных проблем изучаемой древней культуры Южного Кавказа IV- III тыс. до н.э.

# GİLANDA DƏMİR DÖVRÜNƏ AİD APARILAN ARXEOLOJİ QAZINTILARIN TARİXİ

**Vəli Cahani**
**(İran İslam Respublikası)**
**vali_jahani@yahoo.com**

**Açar sözlər:** Dəmir dövrü, Gilan əyaləti, qəbirlər, dəfn avadanlığı.

Gilanın dəmir dövrünə aid abidələrinin araşdırılmasını iki mərhələyə ayırmaq olar. Birinci mərhələ İranda islam inqilabından əvvəlki dövrü əhatə edir (Gilanda arxeoloji araşdırmaların başlandığı dövrdən 1978-ci ilədək) (şəkil1).

Bu mərhələ uzun bir dövrü əhatə edir. Bu müddət ərzində dəmir dövrünə aid bir çox ərazilərdə arxeoloji qazıntı və araşdırmalar aparılmışdır. İranlı arxeoloqlar tərəfindən qazıntı işləri aparılan Marlik və Klurz kimi abidələr Gilanın ən mühüm tarixi ərazilərindən hesab olunur və burada sistematik şəkildə qazıntı işləri aparılıb. Amma Qəlakuti, Həsəni məhəllə və Dilmanın Novruz məhəlləsi kimi qəbirstanlıqlar yaponiyalı arxeoloqlar tərəfindən araşdırılıb və onlar ilk dəfə 40-cı illərdə dəmir dövrünün xronologiyasını tərtib ediblər (şəkil 2).

İkinci mərhələ 1978-ci ildən (islam inqilabından sonra) başladı. Bu dövrdə islam inqilabının qələbə çalması ilə dəmir dövrünə aid bir çox ərazilərdə icazəsiz qazıntı işləri aparıldı və bu zaman torpağın dərinliyindən bu dövrə aid çox qiymətli əşyalar çıxarılaraq dünya muzeylərinə göndərildi (şəkil 3).

**İslam inqilabından əvvəlki dövr:**

Gilanda arxeoloji tədqiqatların tarixi yüz ildən çox müddəti əhatə edərək Qacar hökuməti dövrünə qədər davam etmişdir. Qacar şahları xaricilərə İranın tarixi əsərləri haqqında araşdırmalar aparmağa imkan yaratdı. Bu zaman bir çox qiymətli mədəniyyət abidələri ölkədən çıxarıldı və bu bir çoxlarında tarixi ərazilərdə xəzinə axtarmaq həvəsi oyatdı (10, s.34-35).

Tarixi ərazilərdəki mədəni irslərə əl uzatmaq və hətta bəzi tarixi binaların hissələrini aparmaq kimi hadisələr də baş verdi. Qacar əyanlarının zəifliyi mədəni irsin dəyəri barədə məlumatsızlığından və bunun müqabilində qərb dövlətlərinin günbəgün artan maraqları, öz mənfəətlərini güdmələri onların diqqətinin İran mədəni və tarixi xəzinələrinə cəlb olunmasına səbəb oldu. Həmin günlər bu tarixi abidələrin bir çoxunun dünya muzeylərinə bəzək verdiyinin şahidi oluruq (10, s.33).

Rusiyanın Rəştdəki səfiri Aleksandr Xodezko özünün kitabında çayın iki sahilində apardığı qazıntı işlərindən və məhəllə qadınlarının əllərində müşahidə etdiyi bəzək əşyaları haqqında məlumat verir (3, s.38).

1899-1901-ci illər ərzində Dəmerqan qardaşlarının rəhbərliyi altında bir fransalı işçi qrupu İranın və hazırki Azərbaycan Respublikasının talışlar yaşayan geniş ərazilərində araşdırmalar aparmağa başladılar. Bu tədqiqatın nəticələri Duxliyan, Daş körpü, Xacə Davud körpüsü, Ağevlər, Həsən zəmin, Qilaxanə, Mordaği, Calik, Şəkiladərə və Nəmin şəhərinin ətrafındakı ərazilərlə tanışlıq məqsədi daşıyırdı. Bu ərazilərdə aşkar edilmiş abidələr ümumiyyətlə dəmir dövrünə aid olublar və onların qədimliyi miladdan əvvəl II minilliyin II yarısı və I minilliyə qədər davam edir. Tomulus və Qurvanlar qəbirləri Daş Kəlan qəbirləri kimi tanınır (8, s.520). Bu ərazidə elə bir coğrafiya mövcuddur ki, zaman ötdükcə kaduslar adı altında tarixi mədəni zəminlər yaradırdılar. Bu araşdırmalardan sonra uzun müddət ölkənin şimal ərazisində arxeoloji fəaliyyətlər donduruldu. İctimai və siyasi şərait arxeoloqları Gilanın qədim əraziləri və tarixi abidələri üzərində elmi tədqiqatlar aparmaqdan uzaqlaşdırdı (11, s.8). 1955-ci ilində doktor Həbibulla Səmədi Əmləş ərazisinin tərkibində olan Təməcan ərazisində qazıntılar apardı. Bu tədqiqatın ilk nəticələri yalnız məqalə şəklində jurnalda çap olunmuşdur. 1956-1965-ci illər arasında İran və İraqın yaponiyalı arxeoloqlardan ibarət işçi qrupu Şinci Fukayinin rəhbərliyi altında Dilman və Rudbar ərazilərində qazıntı işləri aparıblar. Bu araşdırmalarda Qələkuti, Novruz məhəllə, Həsəni məhəllə, Xürrəmrud, Las lukan, Həliməcan kimi ərazilər qazıntı obyekti olmuşdur və bu ərazilərdə tunc və dəmir dövrünə aid yeni əşya və abidələr aşkar olunmuşdur. Yaponiyalı qrupun axtarışlarının nəticələri yapon və ingilis dillərində Dailaman və Həliməcan adı ilə dörd cilddə çap olunmuşdur (12, s.30).

1960-cı ilində doktor Möhsün Müqəddəm ölkənin arxeoloji atlasını tərtib etmək məqsədilə bir işçi qrupu ilə Gilanın şərq ərazilərinə ezam olunmuşdur. Bu geniş tədqiqatın nəticələrinin bu günədək çap olunmamasına baxmayaraq, ölkənin mədəni irsinin qorunması təşkilatında onlar haqqında ilkin məlumatlar mövcuddur. Həmçinin bu haqda çap olunan məqalələrdə dəmir dövrünə aid qiymətli abidələrin kəşfi barədə də məlumatlar mövcuddur. Yuxarıda qeyd olunan işçi qrupunun tədqiqatında Təmacan, İmam, Səmam, Pirkuh, Kəlişən, Niyavəl, Siyahkuh, Çakurd çayı ətrafı ərazi, Qiyasabad, Bəne zəmin, Buyə, Mərbu, Şir çak və s.kimi ərazilər araşdırma obyekti olmuşdur. Dəmir dövrünə aid bir çox ərazilər araşdırıldı və qazıntılar aparıldı (13, s.133-134).

1961-cı ildə arxeologiya institutunun araşdırma bölümünün rəhbəri doktor İzzətulla Nigəhban bir işçi qrupu ilə Gilana ezam olundu. İşçi qrupu Gilanın şərqindəki dağətəyi yerlərdə və Gohrud təpəsində qazıntılara başladı. Bu təpədə qazıntıların aparılması ölkə arxeologiyasının tarixində yeni və fərəhli bir mərhələnin başlanğıcı idi.

Çırağəli (Marlik) təpəsində aparılan qazıntılar 14 aya yekunlaşdı və araşdırmalar nəticəsində yerli Amardi sultanlarına məxsus 53 tarixi qəbir qazılmış və onlarda döyüş sursatı, çox bahalı zinyət əşyaları və avadanlıqlar aşkar olunmuşdur. Bu təpənin dərinliklərindən əldə olunan abidə və qiymətli əşyalar bütün dünyanın diqqətini Marlikdə gizli qalan parlaq mədəniyyətə tərəf yönəltdi. Pile qaladakı (Böyük qala) qəbiristanlığın kənarında Marlik təpəsindən 200 metr şərqdə yerləşən ərazidə miladdan əvvəl II minlliyin sonundan islam dövrünədək 17 yaşayış məskəni qalığı aşkar olunmuşdur. Durbicar təpəsinin, Zeynəb bicar, Cazim kül ərazisinin aşkar olunması bu araşdırmanın digər uğurlarından biridir. Amma təəssüflər olsun ki, arxeoloji araşdırmaların davam etməməsi nəticəsində bu qiymətli mədəniyyətin böyük hissəsinin abidələri məhv olmuşdur. 1961-ci ildə Rudbar rayonu və Sefidrud çayı ətrafında aparılan araşdırmalar parlaq elmi nəticələrin əldə olunmasına səbəb oldu (10, s.40-41).

1963-68-ci illər arasında mərhum Əli Hakiminin rəhbərliyi altında iranlı arxeoloqlardan ibarət başqa bir qrup Sefidrud çayı ətrafında arxeolji qazıntılara başladılar. Bu tədqiqatlar zamanı Kafirkeş qəbiristanlığı, Klurz ərazisi, Cubən, Sərамərz, Doqamiyani, Leylican, Navə, Siyahdərə kimi ərazilərdə qazıntı işləri aparıldı və bu zaman əldə olunan abidələrin böyük hissəsini miladdan əvvəl II minilliyin sonundan Sasanilər dövrünədək mövcud olan abidələr təşkil edirdi.

1968-ci ildə Əbdülhüseyn Şəhidzadə Xers Çak, Sepəstənək ərazisi və qədim Damaş Emarlı qəbiristanlığında qazıntılar aparmağa başladı. Həmin ildə Seyid Mahmud Musəviqədim Dimacankəs qəbiristanlığında aparılan qazıntılara rəhbərlik edirdi. Mahmud Kərdavani də həmin vaxtlar Rudsər ərazisinə Divrud şayının Rəhimabad körpüsündə qazıntı işləri ilə məşğul idi.

Həmin il Yəhya Kənsəri və Seyid Mahmud Musəvi Korfəs çak və Çak Emarluda qazıntı işlərinə başladılar. Elə həmin ildə Şəmam kəndi ətrafı Cahangir Yasi tərəfindən araşdırılırdı. Amma təəssüflər olsun ki, bu araşdırmaların da son nəticələri haqqında hesabat verilməyib.

1972-ci ildə Şəhidzadə yeni bir yanaşma ilə Duxalkuh və Talarək Talış ərazisində qazıntılara başladı və Gilanın arxeoloji qazıntılarını şərq və mərkəz hissələrdən qərb hissələrinə doğru yönəltdi. Bu ərazilərdə aparılan qazıntı işləri miladdan əvvəl I minilliyə aid abidələrin kəşfinə səbəb oldu.

1973-cü ildən 1978-ci ilədək Seyyid Mahmud Musəvi Əmarlu Rudbar və Eşkuratda qazıntı işləri aparmışdır. Sibun və Kəmənidə, Səncəd dərədə, Ləşkestan, Miyarkeşədə, Zərgər çeşmə və Şahcanda miladdan əvvəl I minilliyə aid abidələr kəşf olundu. 1973-1978-ci ilər arasında Şinci Fukayunun rəhbərliyi altında bir işçi qrupu Həliməcan kəndi və Şahpir, Aşurməhlə, Qurəş, Nəhdəli, Rudxanbər, Nəczar Ziyayi və Rəzək ərazilərində qazıntılar aparmağa başladı. Bu araşdırmalar miladdan əvvəl II minilliyin sonundan

Sasanilər dövrünədək mövcud olan abidələrin kəşfinə səbəb oldu (13, s.521-523).

Bu işçi qrupu həmçinin Şəhran kəndinin möhtəşəm İmamzadə qəbi-ristan-lığında, Ləme təmin və aşağı məhəllə ərazilərində də qazıntı işləri apardılar və bunun ardınca dəmir dövrünə aid abidələr kəşf etdilər. Bu tədqiqatın nəticələri ingilis dilində iki cildlik kitabda nəşr olunub və arxeoloqların xidmətinə verilib.

**İkinci dövr: Bu dövr 1978-ci ildən başlayır.**

1986-88-ci illərdə Məhəmməd Rza Xələtbərinin rəhbərliyi ilə arxeoloqlardan ibarət bir işçi qrupu Şəhram kəndi və onun meşəliklərində qazıntı işlərinə başladılar. Bu qazıntıların nəticəsində miladdan əvvəl I minilliyin başlanğıcından Sasanilər dövrünə aid olan abidələr kəşf olundu.

1990-cı ildə Sefidrudun qərb sahili Məncildən İmamzadə Haşimə qədər ərazidə Məhəmməd Rza Xələtbərinin rəhbərlik etdiyi işçi qrupu tərəfindən qazıntı işləri aparıldı və nəticədə 50-dən artıq qədimi abidə aşkar olundu ki, bu abidələrin mühüm hissəsi dəmir dövrünə aid idi. Amma bu araşdırmanın nəticələri barədə hələ də əldə kamil bir məlumat yoxdur.

1971-ci ildə Rudbarda baş verən dəhşətli zəlzələdən sonra Tehran-Klurz yolunda aparılan qazıntı işləri zamanı qədim qəbir qalıqları kəşf olunmuşdu.

Cənab Xələtbərinin rəhbərliyi ilə bir işçi qrupu həmin əraziyə ezam olundu. Qeyd olunan işçi qrupu 45 gün ərzində dəmir dövrünə aid 15 qədim qəbir aşkar etdi. Bu qazıntılar zamanı sadə və dörd bucaqlı qəbirlər, filiz və saxsı abidə qalıqları aşkar olunmuşdur.

1992-ci ildə yenidən Gilan ərazisinin qərbində və Şəfarud çayındakı Miyanrudda qazıntı işləri başladı və arxeoloji qazıntılar Talışa doğru istiqamətləndi. Qeyd olunan əməliyyatın rəhbəri cənab Xələtbəri bu qəbiristanlığı miladdan əvvəl II minilliyin II yarısına aid edir. Bu qəbiristanlığın böyük bir hissəsi yol tikintisi və Şəfarud çayının tuğyan etməsi səbəbindən zaman keçdikcə məhv olub. Qəbirlərin içərisindəki əşyalar bu qəbiristanlıqların ən mühüm özəlliklərindən idi.

1994-cü ildə Məhəmməd Rza Xələtbərinin rəhbərliyilə Məran və Ağevlər Talış ərazilərində qazıntı işləri aparılmağa başlandı. 1996-ci ilin araşdırmaları əsasında Məryanın 400 hektar ərazisi olan qəbiristanlığı və onun ətrafı Gilanın arxeoloji tarixinə yazıldı.

1996-cı ildə Rza Sədr Kəbirin rəhbərliyi ilə Buyedə su anbarı tikilən ərazidə aparılan qazıntılarda miladdan əvvəl I minilliyə aid qəbiristanlığın qalıqları aşkar olunmuşdur. Bu ildə həmçinin cənab Fəlahiyan tərəfindən Gilanın dəmir dövrünə aid mühüm abidələrdən hesab olunan Cəmşidabad ərazisində ilk qazıntı işləri aparıldı. Bu qazıntılar nəticəsində miladdan əvvəl II minilliyin II yarısına və I mininlliyə aid qəbiristanlıq aşkar olundu. 2003-

cü ildə Vəli Cəhaninin rəhbərliyi ilə Emlaş rayonunda dəmir dövrü abidələrinin öyrənilməsi məqsədilə arxeoloji araşdırmalar aparıldı. Bunun nəticəsində I və III dəmir dövrünə aid bir çox qəbiristanlıqlar aşkar olundu. Nəticədə dəmir dövrü ərazilərinə aid "Emlaş" adlı kitab çap olundu.

2004-cü ildə Yusif Fəlahiyan miladdan əvvəl I minilliyə aid olan Dilman ərazisində Xosrovxani təpəsini aşkar etməyə nail oldu. Həmçinin mən həmin ildə Siyahkol rayonunun arxeoloji araşdırmasını yerinə yetirdim. Nəticədə 220-dən artıq tarixi abidə aşkar olunmuşdur ki, onların da əksəriyyəti dəmir dövrünə aid idi (13, s.14-29).

2000-2005-ci illrər arasında iranlı və yaponlardan ibarət işçi qrupu Cəbrayıl Nukəndi və Tadahiki Ostunun rəhbərliyi və Vəli Cəhaninin iştirakı ilə beş illik plan çərçivəsində Sefidrudun qərb sahillərində araşdırmalar apardılar. Bu tədqiqatın nəticəsi ingilis dilində 5 cilddə çap olunmuşdur və onun ardınca 130-dan çox tarixi və qədimi abidə aşkar olunmuşdur. Bu işçi qrupu həmçinin Cəlaliyyə Klurz təpəliyində də qazıntılar aparıblar və nəticədə dəmir dövrünə aid abidələr kəşf olunmuşdur.

2003-cü ildə mənim rəhbərliyim altında bir işçi qrupu Gilanın müxtəlif ərazilərində tarixi və mədəni abidələrlə tanışlığa və onların araşdırılmasına başladı. Bu qrup 1000-dən artıq tarixi abidə müəyyən etmişdir. Onların böyük hissəsini dəmir dövrünə aid qəbiristanlıqlar təşkil edirdi.

2005-ci ildə Məhəmməd Rza Baqiryanın rəhbərliyilə Çərə və Xaskul tarixi qəbiristanlıqlarının bir hissəsinin qorunması məqsədilə qazıntılara başlanmışdı. Bu iki ərazidəki qəbirlər qaz borularının keçdiyi ərazidə yerləşirdi və ağır texnika vasitəsilə ərazidəki torpağın daşınması nəticəsində yerin altında olan tarixi abidələrə ziyan dəymişdi. Qəbirlərin kəşf olunması və meyitlərin yanında qoyulan əşyalara nəzər yetirməklə onların miladdan əvvəl I minilliyə aid olduqlarını təxmin etmək olar.

2006-cı ildə Məhəmməd Xələtbərinin rəhbərliyilə Gəncpor və Rüstəmabadın Klurz təpəliyində qazıntı işləri aparılmışdır. Bu qazıntılar zamanı müdafiə və yaşayış vəsaitləri ilə təsis olunmuş bir qala aşkar olunmuşdur. Bu təpəlikdə memarlıq abidəsinin aşkarlanması Gilanda daimi yaşayışın olmadığı fərziyyəsini sual altına aldı və memarlıq və divar tikinti üslubu haqqında yeni dəyərli məqamları müəyyən etdi. Bu araşdırmanın yarımçıq qalmasına baxmayaraq, mövcud əşyalara əsasən kəşf olunan abidələrin miladdan əvvəl I minillikdən Sasanilər dövrünədək olan müddətə aid etmək olar.

Elə həmin ildə Vəli Cəhaninin rəhbərliyilə işçi heyəti Rudbar ərazisinə daxil olan Vatildə miladdan əvvəl I minilliyə aid tarixi qəbiristanlıq aşkar olunub. Dörd bucaqlı və sadə qəbirlərin kəşfi və yaşayış məskənlərinin araşdırılması bu qrupun uğurlarından idi.

Həmin ildə Şəhram Ramin Rizvanşəhrin Siyahbil qəbiristanlığında miladdan əvvəl I minilliyə aid qəbirlər aşkar etmişdir (5, s.12).

2007-ci ildə Şəhram Raminin başçılığı ilə Kəlan səngidə II və III dəmir dövrünə aid bir qala kəşf olunmuşdu.

2007-ci ildə Vəli Cəhaninin rəhbərliyilə Mətlakuh ərazisində aparılan araşdırmalar nəticəsində miladdan əvvəl I minillikdən Arşakilər dövrünədək olan müddətə aid memarlıq abidələri kəşf olunmuşdur.

2007-2009-ci ildə Məhəmməd Rza Baqiryan, Vəli Cəhani və Kidvəngin rəhbərliyilə iranlı və koreyalı birgə işçi qrupu Gilanın şərqi, mərkəzi və cənub ərazilərindəki mağaralarda qazıntılar aparmışdılar. Araşdırmalar nəticəsində mağaralardan əldə olunan abidələrin 60%-dən çoxu dəmir dövrünə aid idi.

2009-ci ildə Qasım Əslaninin rəhbərliyi və mənim müavinliyim altında qədim Buyə ərazisində qazıntılar aparılmışdır. Nəticədə dəmir dövrünə aid 43 qəbir aşkar olunmuşdu. Elə həmin ildə mənim tərəfimdən Astaraçay ərazisində qazıntılar aparılşmışdır. Astaraçay ərazisinin arxeoloji xəritəsinin tərtibi və dəmr dövrünə aid ərazilərin kəşfi bu qrupun ən mühüm nəaliyyətlərindən hesab olunurdu.

2010-cu ildə müəllif tərəfindən II və III dəmir dövrünə aid yaşayış məskənləri və qəbiristanlıqlara malik Kaferestan Dilman ərazisində arxeoloji qazıntılar aparılmışdı. Yaşayış məskənlərinin və memarlıq abidələrinin, qəbirlərin və s. kəşfi bu qrupun ən mühüm nəaliyyətlərindən hesab olunurdu.

## ƏDƏBİYYAT

**1**. Hamran,B, Marlik sivilizasiyası, İlya, Rəşt, 2006, s.34-35

**2**. Mosavi, M, Arxeologiya Gilan, kitab Gilan, İran alimlər nəşriyyat group İkinci Printing,Tehran,1901 s. 507

**3**. Sadrekabir,R, Tool mezarlığı Gilan arxeoloji qazıntılar üçüncü mövsümündə yaşayış memarlıq nəticələri oldu, şimal və şimal şərq sahələri Gorgansayı: İran arxeologiya üzrə beynəlxalq konfran S. gorgan, 2004

**4**. Moghadam, M, Ərazilərdə arxeoloji tədqiqatlar omam, Somaml, və …İran arxeologiya üzrə beşinci konqresi, Tehran,1972

**5**. Negəhban, İzzətullah, İran arxeoloji ümumiəlliil, İranın Mədəni İrs Təşkilatı, Təhsil və Nəşriyyat İdarəsi, Tehran, 1997

**6.** Mosavi M, Jahani V, Mərkəzi şəhər Siahkəl, Deylaman üçün arxeoloji tədqiqatlar, " Gilan vilayətinin mədəni ir S. əl işləri sənayesi və turizm təşkilatı, 1, 2 ci-cild, Rəşt, -2005

**7.** Xələtbori Mohəmmədrza, Kalouraz kəndinin arxeoloji qazıntılar (Tehran universiteti magistr dissertasiyası,1992

**8.** Xələtbori Mohəmmədrza, "Talış bölgəsinin (Gilanın vaska və meyanroud məntəqəsi) qədim ərazilərində arxeoloji qazıntılar"-, Gilanın Mədəni İrs Baş İdarəsi ölkənin Arxeologiya İnstitutu ilə birgə, Rəşt, 2004,

**9**. Sadrekabir, R, Buye kəndinin arxeoloji qazıntılar " Gilan vilayətinin Mədəni İr S. Əl işləri Sənayesi və Turizm Təşkilatı, Rəşt, -1996, səh. 19
**10**. Cahani Vəli "Vatel, Roudbar, kəndinin arxeoloji qazıntılar " Gilan vilayətinin mədəni ir S. əl işləri sənayesi və turizm təşkilatı, Rəşt, -2006
**11**. Cahani Vəli "Matlakoo, kəndinin arxeoloji qazıntılar " Gilan vilayətinin mədəni ir S. əl işləri sənayesi və turizm təşkilatı, Rəşt, -2006
**12**. Aslani Qasam " Buye kəndinin arxeoloji qazıntılar " Gilan vilayətinin mədəni ir S. əl işləri sənayesi və turizm təşkilatı, Rəşt, -2007, səh. 91-93
**13**. Cahani Vəli "Kaferestan, Deyləman, kəndinin arxeoloji qazıntılar " Gilan vilayətinin mədəni ir S. əl işləri sənayesi və turizm təşkilatı, Rəşt, -2010

## THE HISTORY OF ARCHAEOLOGICAL MONUMENTS OF THE IRON AGE IN GILAN.

**Vali Jahani**

### Summary

**Key words:** Iron Age, Gilan province, graves, burial equipment.

History of the study of archaeological sites can be divided Gilan in two stages. The first stage covers more than one hundred years since the beginning of archaeological research to the Islamic revolution in 1978 the second phase began after the Islamic revolution. Iranian and Japanese archaeologists have a number of sites (Marlyk, Klurz, etc.) During the period of the Islamic Revolution, many valuable archaeological finds have been taken out of the country. The article is written about the settlements and funerary monuments of this period. After the Islamic Revolution in Gilan province continued excavation and study of settlement and burial grounds.

These excavations are actively involved and the author of this article.

Many people learned in this time of the monuments belong to the Early Iron Age.

The article is written on all the monuments studied by many archaeologists in Gilan province.

# ИСТОРИЯ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК ПАМЯТНИКОВ ЭПОХИ ЖЕЛЕЗА В ГИЛАНЕ

**Вели Джахани**

## Резюме

**Ключевые слова:** железный век, провинция Гилан, могилы, захоронения.

Историю изучения археологических памятников Гилана можно делить на два этапа. Первый этап охватывает более ста лет-со времени начала археологических исследований до Исламской революции 1978 г., второй этап-после революции. Иранскими и японскими археологами изучен целый ряд памятников (Марлык, Клурз и др.) В период исламской революции многие ценные археологические находки были вывезены из страны.

В настоящей статье пишется о поселениях и погребальных памятниках этого периода. После революции в Гиланской провинции были продолжены раскопки по изучению археологических памятников.

В этих раскопках активно участвовал и автор статьи. Многие изученные в это время памятники относятся к эпохе раннего железа.




Şəkil 1. İranın xəritəsi




Şəkil 2. Gilan əyaləti haqqında məlumat

## KÖMƏKÇİ TARİXİ FƏNLƏR
## SUBSIDIARIES
## ВСПОМАГАТЕЛЬНЫЕ ДИСЦИПЛИНЫ

# AZƏRBAYCANDA MALDARLIĞIN YARANMASINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

**Nasir Quluzadə**
(Milli Azərbaycan Tarixi Muzeyi)
nasir_quluzade@yahoo.com

**Açar sözlər: maldarlıq, əhliləşdirmə, eneolit, iqlim, Ön Asiya**

İstehsal təsərrüfatının əsas sahələrindən biri olan maldarlıq uzun minilliklər boyu Azərbaycanın qədim cəmiyyətlərinin iqtisadi həyatında aparıcı mövqelərdən birinə malik olmuşdur. Dediklərimizə əyani sübut kimi Milli Azərbaycan Tarixi Muzeyində qorunub saxlanılan, xalqımızın zəngin tarixini və mədəniyyətini özündə əks etdirən arxeoloji və təsadüfi tapıntılardan ibarət eksponatları – ev heyvanlarının gil və tunc fiqurlarını (1) (şəkil 1-2), saxsı və digər sənətkarlıq məhsulları üzərindəki təsvirlərini (2) (şəkil 3-4), sümük məmulatını (3) (şəkil 5-7), eləcə də süd məhsullarının hazırlanmasında istifadə olunan qabları (4) (şəkil 8-9) misal göstərmək kifayətdir. Adı çəkilən bu maddi mədəniyyət nümunələrində maldarlıq təsərrüfatının müxtəlif dövrlərdə oynadığı əhəmiyyətli rolu, digər sahələrə bu və ya digər dərəcədə göstərdiyi mütərəqqi təsirləri aydın sezmək mümkündür. Lakin özünəməxsus inkişaf qanunauyğunluqlarına məxsus maldarlıq təsərrüfatı bu bölgədə heç də təsadüfi, kor-təbii şəkildə yaranmamış və inkişaf etməmişdir. Aparılan elmi tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, bu qədim istehsal təsərrüfatının təşəkkülünə və inkişafına təbii-coğrafi və antropogen amillər təsir etmişdir. İlk öncə qeyd etmək istərdik ki, həmin amillər sırasında öncül yerlərdən birini təbii-coğrafi amili tutur. Belə ki, maldarlıq təsərrüfatının yaranmasını ölkənin əlverişli təbii şəraiti və coğrafi mövqeyi kifayət qədər böyük rol oynamışdır.

Sirr deyil ki, Avrasiyanın bir çox bölgələrindən fərqli olaraq Qafqazda iqlimin, hidroqrafiyanın, torpaq və bitki örtüyünün ərazinin relyefindən və geoloji quruluşun özəlliklərindən asılılığı özünü daha çox qabarıq göstərir. Belə ki, Böyük Qafqaz dağ silsiləsinin və eləcə də relyefin iri köndələn yüksəkliklərinin yaratdıqları sədlər Cənubi Qafqazı digər qonşu bölgələrin təsirindən təcrid etməklə burada təbii landşaftın özünəməxsus rəngarəngliyinə və müxtəlifliyinə şərait yaratmış və hal-hazırda da yaratmaqdadır (5).

Zənnimizcə, maldarlıq təsərrüfatının yaranmasında və inkişafında rol oynamış təbii-coğrafi amillərdən birincisi məhz e.ə. XII-III minilliklərdə Azərbaycanda mövcud olmuş təbii-iqlim şəraitidir. Bir mənalı qeyd etmək olar ki, bu və ya digər təsərrüfat sahəsinin yaranmasında münasib iqlim şəraitinin müsbət təsiri danılmazdır.

Tozcuq-tumurcuq diaqramlarının analizləri əsasında belə bir nəticə hasil olunmuşdur ki, Xvalın və Yeni Kaspi (Holosen) əsrlərində (e.ə. XV-II minilliklər), bir neçə quru iqlim dövrlərini çıxmaq şərti ilə, əsasən çayboyu tuqay meşələrlə birlikdə, çöl landşaftı hökm sürmüşdür. Bu dövrdə yalnız Muğan düzündə yovşan-şoranlı ot örtüyü üstünlük təşkil edirdi. Eyni zamanda bölgənin iqlimində tədricən baş verən istiləşmə rütubətliyin artımına da səbəb olmuşdur (6).

Ümumiyyətlə, Azərbaycan ərazisində holosen epoxasında dörd iqlim dəyişilmə dövrü müəyyən olunmuşdur. Birincisi temperaturun tədricən artması, ikincisi (10-8 min il bundan əvvəl, boreal epoxa) holosendə ən maksimal temperatura malik olması ilə, üçüncüsü (8-4,5 min il bundan əvvəl, atlantik epoxa) ən minimal temperatura və ən az yağıntının olması ilə, dördüncüsü (son 4,5 min il) temperaturun və yağıntının müəyyən hədd daxilində tərəddüd etməsi ilə səciyyələnir (7).

Tədqiqatlar nəticəsində o da müəyyən olunmuşdur ki, e.ə. V minilliyin ortalarına doğru Cənubi Qafqazda iqlimin istiləşməsi özünün zirvə nöqtəsinə çatır. Lakin bu istiləşmə yağıntının miqdarına təsir etməmiş və öz səviyyəsini qoruyub saxlamışdır. Bu dövrdə iqlim şəraiti çöl zonasının iqlimini xatırladırdı. Quraq keçən yay aylarında yağıntının miqdarının azalması süni suvarmanın meydana gəlməsini zəruri etmişdi. Eneolit dövrü sakinləri tərəfindən primitiv irriqasiya sisteminin quraşdırılması da məhz bu dövrə təsadüf edir. E.ə. IV minilliyin əvvəllərində isə bölgənin iqlim şəraitində kəskin aridizasiya prosesi baş verir. Belə ki, yağıntının illik miqdarının azalması qışın daha soyuq və sərt, yayın isə uzun müddət quraq keçməsinə şərait yaratmış, iqlimin kontinental xarakter almasına səbəb olmuşdur. Belə iqlim şəraitinə malik bölgələrdə əkinçilik təsərrüfatının inkişafı yalnız inkişaf etmiş irriqasiya sisteminin mövcud olduğu zaman və yaxud çayların subasarlarında mümkündür (8).

Eneolit və erkən tunc dövrlərini əhatə edən Atlantik epoxasının birinci yarısında Cənubi Qafqazın, o cümlədən Azərbaycanın iqlimi olduqca quraq keçirdisə, lakin ikinci yarısından etibarən iqlim rütubətli olmuşdur. E.ə. III minilliyin ikinci yarısından etibarən isə iqlim şəraiti yenidən dəyişmiş, tez-tez quraqlıq halları baş vermişdir (9). Hətta belə hesab olunur ki, Azərbaycanın paleometal dövrünün təbii mühiti müasir dövrlə oxşarlıq təşkil etmişdi: hamar ovalıqlar, alp düzənliklər, subtropik meşələr, səhra və şoran ərazilər və s. (10).

Azərbaycan ərazisində aparılmış kompleks elmi tədqiqat işləri zamanı məlum olmuşdur ki, antropogenin əvvəllərindən bu günə qədər respublikamızın iqliminin əlverişli vəziyyətdə olmasına Xəzər dənizi həmişə təsir etmişdir. Xəzər dənizinin qalxması və enməsi ilə əlaqədar olaraq Azərbaycan ərazisində fauna və floranın rayonlaşmasına şərait yaranmışdır (11).

Maldarlıq sahəsinin yaranmasına təsir göstərən amillərdən biri Azərbaycan florasıdır. Məlumdur ki, maldarlığın inkişafını təmin etmək üçün əsas şərt yem bazasının olmasıdır. Bunun üçün isə Azərbaycanda mövcud təbii iqlim şəraiti, yem bitkilərinin bolluğu, otlaq sahələrinin zənginliyi və genişliyi imkan yaratmışdır. Bitkilərin çoxluğu və keyfiyyətli olması maldarlığın inkişafını təmin edən əsas amildir (12).

Azərbaycan alimləri tərəfindən aparılmış tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, respublikamızın mövcud bitki aləmi təbaşir dövrünün axırlarında və 3-cü dövrün əvvəllərində yaranmışdır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Azərbaycanda yer kürəsindəki mövcud bitki qruplaşmalarının əksəriyyətinə rast gəlmək olur (13). Təsadüfi deyil ki, Cənubi Qafqaz bitki mədəniyyətinin formalaşdığı Ön Asiya ocağına daxil olan əsas üç mərkəzdən biri hesab olunmuşdur (14).

Azərbaycan florasının botaniki tərkibcə çoxunu yemlik əhəmiyyətli bitkilər, 20%-ni dənli-paxlalı, 17%-ni efir-yağlı, 15%-ni efirli, 10%-ni isə dərman bitkiləri təşkil edir. Azərbaycan florasında taxıllar, paxlalılar, çətirçiçəklilər, mürəkkəbçiçəklilər, qaymaqçiçəklilər və s. fəsillərə mənsub olan yüzlərcə ot bitkiləri geniş yayılmışdır. Son dövrlərdə mütəxəssislər tərəfindən aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, indi Azərbaycan florasında 150-dən artıq fəsiləyə və 1000-ə yaxın cinsə mənsub olan 4500-ə qədər bitki növü mövcuddur. Azərbaycanda bitkilər aləminin bu dərəcədə zənginliyinə, hər şeydən əvvəl, onun torpaq və iqlim şəraiti səbəb olmuşdur (15) (şəkil 10).

Məlum olduğu kimi Azərbaycanın münbit torpaqları, rəngarəng təbiəti və iqlimi çox zəngin çəmənliklər yaratmışdır. Çəmənliklər təbiətdə baş verən bir sıra mürəkkəb təbii-bioloji proseslərin gedişində bilavasitə iştirak edirlər. Onu da qeyd etmək lazımdır ki, torpağın əvəzsiz bir sərvət kimi formalaşmasında, onun daim cavan və bərəkətli qalmasında, orada baş verən saysız-hesabsız mikrobioloji proseslərin müntəzəm davam etməsində, tərkibinin qidalı elementlərlə zənginləşməsində də çəmənlərin əhəmiyyəti olduqca böyükdür.

Təbii çəmənlər Azərbaycan florasının, yəni onun zəngin bitki aləminin əsasını təşkil edir. Maldarlığın inkişaf etdirilməsi üçün tükənməz yem mənbəyi olan Azərbaycan çəmənləri təkcə mal-qaranın otarılması, yem istehsalı ilə məhdudlaşmır, həmçinin müxtəlif bitki növləri və heyvan cinslərinin tarixən inkişaf edib formalaşdığı məskən olub, bir sıra nadir və qiymət-

li təbii sərvətlərlə bəzədilmiş muzeyi xatırladır. A.A.Bakıxanov özünün «Gülüstani-İrəm» əsərində Şirvanın timsalında Azərbaycanda çoxlu sayda təmiz su mənbələri və bulaqları ilə zəngin olan gözəl otlaqların və çəmənliklərin mövcud olmasını xüsusi vurğulumaışdır (16). Bu baxımdan daha geniş sahəni əhatə etmiş və öz zəngin təbiəti və maldarlıq üçün daha əlverişli otlaqlara malik olan Cənubi Azərbaycan ərazisi də istisna deyildir (17).

El arasında məsəl var, deyirlər: «İnəyin südü ağzındadır». Şübhəsiz ki, süd inəyin ağzında olmur. Ata-babalarımız bu sözləri deyərkən yemi, yemləməni nəzərdə tutmuşlar. Onlar öz təcrübələrindən yaxşı bilmişlər ki, inəyi yaxşı yemləsən, yaxşı da süd sağarsan. Zəngin yem mənbəyi olmadan, möhkəm yem ehtiyatı yaratmadan heyvandarlığı inkişaf etdirmək və onun məhsuldarlığını artırmaq mümkün deyil. Mal-qaradan ötrü tam yararlı yem yaşıl yemdir. Çəmənliklər isə tükənməz yaşıl yem mənbəyidir. Azərbaycan şəraitində davar ildə orta hesabla 280, bəzi hallarda 300 günə qədər çöl şəraitində, açıq havada saxlanılır, təbii yemlə yemləndirilir (18). Aparılan hesablamalar göstərmişdir ki, təsərrüfat heyvanı olan qoyun Azərbaycan otlaqlarında bitən 600 növ müxtəlif ot bitkilərinin 540-dan, qaramal 56-dan, atlar isə 81 növündən istifadə edir (19).

Əlbəttə, maldarlığın formalaşmasında yuxarıda qeyd olunan əlverişli təbii-coğrafi şərait və Azərbaycan florasının zənginliyi ilə yanaşı, bu təsərrüfat sahəsinin əsasını təşkil edən ev heyvanlarının vəhşi əcdadlarının bu bölgədə yaşaması da kifayət qədər böyük rol oynamışdır. Belə ki, 1938-ci ildə geoloq A.S.Məstanzadə tərəfindən tədqiqinə başlanılmış Binəqədi gölündən pleystosen dövrünə aid 39 növ məməli heyvan, o cümlədən ibtidai öküz, ulaq, çöl donuzu və vəhşi at sümükləri tapılmışdır (20). Binəqədi vəhşi atının kəlləsi hazırda Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında nümayiş olunur (21) (şəkil 11). Vəhşi fauna qalıqlarına çoxtəbəqəli Azıx paleolit düşərgəsinin qədim və orta aşel mədəniyyətinə aid təbəqələrində də rast gəlinmişdir. Bu dövrlərə aid tapıntılardan məlum olur ki, Quruçay dərəsində merka kərgadanı, nəhəng maral, qədim at, mağara ayısı, mağara kaftarı və sair fauna qalıqları ilə yanaşı cənub filləri də yaşamışdır. Bu fauna qalıqlarının növcə zənginliyindən aydın olur ki, qədim və orta aşel mədəniyyətləri zamanı heyvanat aləminin tərkibində azalma olmamışdır. Əksinə Azərbaycanın təbii coğrafi şəraitində bunların növcə tərkibi daha da artmışdı. Belə ki, Azıx düşərgəsinin qədim aşel dövrünü əks etdirən VI təbəqəsindən 11, orta aşel dövrünə aid olan V təbəqədən isə 35-dən artıq növə məxsus fauna qalıqları tapılmışdır (22).

Ümumiyyətlə, Azərbaycanın çoxtəbəqəli qədim insan məskənlərindən tapılan çoxsaylı vəhşi heyvan sümükləri arasında Azərbaycanın maldarlıq təsərrüfatında geniş yayılmış ev heyvanlarının güman olunan vəhşi əcdadlarına məxsus osteoloji materiala da rast gəlinmişdir (23). Azıx düşərgəsindən

digər heyvanlarla yanaşı ibtidai öküzün sümükləri tapılmışdır ki, onların da yaşı 600 min ilə bərabərdir (24).

Tədqiqatlarla müəyyən olunmuşdur ki, artıq eneolit dövründə Cənubi Qafqazda ev heyvanlarının əsas növləri əhliləşdirilmişdi. Buna səbəb Cənubi Qafqazda vəhşi heyvan növlərinin əhliləşdirilməsi və maldarlığın meydana gəlməsi üçün münasib faunanın mövcud olmasıdır. Qeyd olunduğu kimi, Azərbaycanın faunası qədim dövrlərdən vəhşi Qafqaz öküzü, muflon, dağ keçisi, qaban və bu kimi digər vəhşi heyvan növlərilə zəngin olmuşdu. Məhz bu heyvanlar iri və xırda buynuzlu heyvanların əhliləşdirilməsi prosesində ilkin formanı təşkil etmişlər. Əlbəttə, bu fikri Cənubi Qafqazın arxeoloji abidələrindən əldə olunmuş osteoloji materiallar da təsdiq edir (25).

Yuxarıda qeyd olunan fauna resursları Qafqazda maldarlığın yaranması üçün ilkin əsas rolunu oynasa da, lakin həmin heyvanların əhliləşdirilmə prosesinə cəlb olunması da əsas amillərdən hesab olunmalıdır. Buna görə əhliləşdirilmə prosesinə də xüsusi diqqət ayrılmalıdır.

Ehtimal etmək olar ki, Cənubi Qafqazda ev heyvanlarının əhliləşdirilməsi prosesinə əsasən mezolit dövründən başlanılmışdır. Bundan başqa Azərbaycanda maldarlıq təsərrüfatının Ön Asiya və Yaxın Şərq ölkələrindən gətirilmiş ev heyvanları əsasında inkişaf etdirildiyi kimi fikirlər həqiqəti tam əks etdirmir. Dediklərimizi Qobustanın (26) və Gəmiqayanın (27) bəzi qayaüstü təsvirləri də təsdiq edir. Etnoqrafik materiallar əsasında müəyyən olunmuşdur ki, ibtidai dövrdə heyvanları əhliləşdirmənin iki üsulu – imprintinq və ac saxlamaqla zorakılıq tətbiq edərək ələ öyrətmə üsulları mövcud olmuşdur. Onlardan birincisi daha erkən dövrlərdə, sonuncu isə sonrakı dövrlərdə mövcud olmuşdur. İmprintinq üsuluna ontogenezin erkən mərhələlərində olan heyvana insanın ana tək göstərdiyi qayğı və diqqət aiddir. Heyvanları ac saxlamağın köməyilə zorakılıqla əhliləşdirmək daha inkişaf etmiş üsul hesab olunur. Bu üsulla heyvanları kütləvi şəkildə əhliləşdirmək mümkündür. Heyvanları əhliləşdirmək üçün bu üsul şüurlu və məqsədyönlü şəkildə aparılmışdır. Bu üsul daha çox vəhşi heyvan sürülərinin qovularaq çəpərlənmiş xüsusi ərazilərə salınmasından, giriş və çıxışların bağlanaraq həmin heyvanların kifayət qədər fərağat olana kimi ac və susuz saxlanmasından ibarətdir (28) Mövzunun öyrənilməsində Qobustandakı boynuna ip bağlanmış öküz təsviri xüsusi əhəmiyyət kəsb edir (şəkil 12).

Beləliklə, qeyd olunduğu kimi Azərbaycanda maldarlığın yaranması üçün münasib təbii-coğrafi mühit, bu mühitin təsiri altında formalaşmış flora və sonradan əhliləşdirmə prosesinə cəlb olunmuş müvafiq vəhşi fauna növləri olmuşdur. Bundan başqa maldarlıq təsərrüfatının inkişafına təbii-coğrafi amillərlə yanaşı, insani amillər də böyük stimul vermişdir. İnsani amillər dedikdə əsasən bölgənin məhsuldar qüvvələri, qismən isə bölgəyə gəlmə, xüsusilə də Ön Asiyadan Qafqaza daxil olmuş etno-mədəni element-

lər nəzərdə tutulur. Xüsusi olaraq qeyd etmək istərdik ki, sonuncuların Qafqazda istehsal təsərrüfatının formalaşmasına təsiri əsasən yardımçı xarakter daşımışdır. Cənubi Qafqazda və Azərbaycanda maldarlıq təsərrüfatı əsasən yerli resurslar, mənbələr əsasında formalaşmışdır (29).

Bununla belə bəzi tədqiqatçılar tərəfindən hesab olunmuşdur ki, Qafqazın Ön Asiya regionu ilə həmsərhəd olması istehsal təsərrüfatına keçidə təsir etmiş əsas amillərdəndir. Məsələn, V.A.Şnirelmanın (30) və R.M.Munçayevin (31) fikrincə Cənubi Qafqazda istehsal təsərrüfatı yerli və Ön Asiya əhalisi arasında mövcud olmuş sıx əlaqələr əsasında yaranmışdır. Hesab olunur ki, Ön Asiyanın arxeoloji abidələrindən tapılmış maddi-mədəniyyət nümunələri özündə istehsal təsərrüfatının formalaşması prosesinin e.ə. VII minillikdən başlamasını əks etdirir. Arxeoloq İ.H.Nərimanov (32) da hesab edirdi ki, Ön Asiyanın erkən əkinçilik və maldarlıq mədəniyyətlərinin tədricən qonşu vilayətlərə yayılması prosesi Qafqazdan da yan keçməmişdi. E.ə. VI minilliyin ikinci yarısından etibarən Qafqazda da erkən əkinçilik və maldarlıq mədəniyyətlərinin yaranması və inkişafı məhz Ön Asiya təsirinin nəticəsi olmuşdur.

Tədqiqatçı T.Axundovun (33) fikrincə də e.ə. VI minillikdən etibarən Yaxın Şərq Mərkəzlərindən ilkin olaraq Azərbaycanın mərkəzi bölgəsinə və cənub zolağının qərb hissəsinə Yaxın Şərq ənənələrinin daşıyıcıları olan oturaq əkinçi-maldar tayfalarının yekcins qrupu gələrək burada məskunlaşıblar. Onlar özləri ilə nəinki istehsal yenilikləri, hətta yeni mədəni bitkilər və əhliləşdirilmiş heyvanlar da gətiriblər. Onlar burada yerli ənənələrin daşıyıcıları olan tayfalar ilə qarşılıqlı əlaqəyə girərək oturaq əkinçi və maldarların yeni etno-mədəni mühütini yaradıblar.

Yuxarıda deyilənlərdən belə qənaətə gəlmək mümkündür ki, Azərbaycanda istehsal təsərrüfatlarının və ənənələrinin meydana gəlməsində, eləcə də tədqiq olunan dövrdə bu və ya digər təsərrüfat sahəsinin inkişafında Ön Asiya və ya Yaxın Şərq amili həlledici rola malik olmuşdur. Əlbəttə, biz deyildiyi kimi eneolit və erkən tunc dövrlərində Yaxın Şərq ilə mövcud olmuş mədəni əlaqələrin və miqrasiyaların Azərbaycanda istehsal təsərrüfatının, xüsusilə də maldarlığın inkişafına müəyyən təsirlərin olmasını istisna etmirik. Lakin zənnimizcə, bu təsirlər həlledici deyil, daha çox yardımçı xarakter daşımışdır. Çünki son tədqiqatlarla müəyyən olunmuşdur ki, Ön Asiya mədəniyyətinin daşıyıcıları Azərbaycanda lokal şəkildə məskən salsalar da, lakin tezliklə öz yaşayış məskənlərini tərk edərək əsasən şimal-qərb və şimal istiqamətlərində hərəkət etmişlər. Məsələn, e.ə. IV minilliyin II rübündən başlayaraq Leylatəpə ərazisində məskunlaşan Ön Asiya tayfaları e.ə. IV minilliyin II yarısından başlayaraq şimala doğru hərəkət etmişlər. Artıq e.ə. IV minilliyin sonu - e.ə. III minilliyin əvvələrində Übeyd-Uruk-Leylatəpə mədəniyyəti daşıyıcıları Şimal Qafqazda məskunlaşmışdılar (34).

Onu da nəzərdən qaçırmaq olmaz ki, bu dövrlərdə Azərbaycanda əhalinin sayı əvvəlki dövrlərə nisbətən xeyli artmışdı. Əhali təsərrüfatla daha əhatəli şəkildə məşğul olmuşdu. Təsadüfi deyil ki, əhalinin artımı və təsərrüfatla daha fəal məşğulluqları, yeni-yeni əmək vərdişlərinin və təcrübələrinin əldə olunması həmin dövrlərdə məhsuldar qüvvələrin də artımına və inkişafına müsbət təsir göstərmişdir. Belə ki, eneolit dövründən etibarən mis alətlər meydana gəlməyə və daşdan hazırlanmış alətlər isə azalmağa başlayır (35).

E.ə. III minilliyin ortalarına yaxın Kür-Araz tayfalarının təsərrüfatında maldarlığın rolu artır. Arxeoloji dəlillərdən aydın olmuşdur ki, köçmə maldarlıq artıq Kür-Araz mədəniyyəti dövründə bəzi ərazi üçün əsas maldarlıq forması olmuşdur. Köçmə maldarlıq formasının rüşeymləri hələ eneolit dövrünün inkişaf etmiş mərhələsindən yaranaraq bəzi rayonlarda müəyyən əhəmiyyət kəsb etsə də, onun Azərbaycanda tamamilə formalaşması uzun və geniş bir dövrü əhatə edərək yalnız eramızdan əvvəlki III minilliyin sonlarında tam şəkildə başa çatır (36).

Hətta Kür-Araz tayfalarının Şimal-şərqi Qafqaz və Cənub istiqamətlərində yerdəyişmələri də baş verir ki, bu da Cənubi Qafqaz hüdudlarından kənara çıxmaqla nəticələnir (37). Yuxarıda deyilənləri nəzərə alaraq belə qənaətə gəlmək olar ki, eneolit və erkən tunc dövrlərində cəmiyyətin sosial-iqtisadi həyatında mühüm irəliləyişlərə təkan vermiş məhsuldar qüvvələr əkinçiliklə yanaşı maldarlıq sahəsinin də inkişafı üçün öz töhfələrini vermişlər.

Beləliklə, Azərbaycanda neolit dövründə özünün ilkin izlərini açmış maldarlıq təsərrüfatı eneolit və erkən tunc dövrlərində daha da inkişaf etmişdir. İstər yerli təbii-iqlim şəraiti və zəngin flora-fauna ehtiyatlarının, istərsə də yerli məhsuldar qüvvələrin maldarlıq kimi istehsal təsərrüfatının yaranmasında və inkişafında həlledici rolu oldu. Məhz belə bir şəraitdə Azərbaycanda maldarlıq təsərrüfatının formalaşmasına Ön Asiya təsirinin həlledicə rola malik olması bizdə bir mənalı olaraq şübhə doğurur. Əhliləşdirmə prosesinin də məhz bölgə üçün yad etnik qruplar tərəfindən aparılması bizim tərəfimizdən qəbul olunmur. Hesab edirik ki, maldarlıq təsərrüfatı əsasən yerli ənənələr və bölgənin təbii resursları əsasında yaranmış və inkişaf etmişdir.

## ƏDƏBİYYAT:

1.Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondu: 7823, 7784, 27280, 27279, 27278, 24366, AF 1856, AF 2233, AF 2240
2. MATMAF: 27311, 27308, 27306, 1576, AF 228,
3. MATMAF: 8020, 23621, 21525, 23632, 27403, AF 51, AF 750, AF 52, AF 63, AF 56, AF 666, AF 57, AF 678, AF 163, AF 747,

4. MATMAF: 21459, 21424, 15003, AF 325,
5. Лисицына Г.Н., Прищепенко П.В. Палеоэтноботанические находки Кавказа и Ближнего Востока. Москва: Наука, 1977, с. 13.
6. Алиев А.И., Атакишиев Р.М., Велиев С.С. и др. Ландшафтно-климатические условия Муганской равнины в Хвалыне и Голоцене // Доклады АН Азерб. ССР, том XLV, 1989, № 2, с. 68.
7. Велиев С.С. Палеогеография Восточного Закавказья и сопредельных областей в верхнем плейстоцене и голоцене. Автореф. дис. … докт. геог. наук. Баку, 1994, с. 41.
8. Ростунов В.Л. Роль географической среды в расселении древних обществ на Центральном Кавказе в эпоху энеолита-средней бронзы. Автореф. дис. … канд. ист. наук, Владикавказ, 2003, с. 7; Он же: О роли природной среды в заселении центральных районов Закавказья в эпоху энеолита-начала ранней бронзы / Международная научная конференция «Археология (IV) и этнология (III) Кавказа». Сборник кратких содержаний докладов. Тбилиси, 2002, с. 146-147.
9. Велиев С.С. Göstərilən əsəri, s. 32.
10. Дадашев А.Н. Земледельческо-скотоводческая экономика обществ эпохи палеометалла на территории Азербайджана. Автореф. дис. … докт. ист. наук. Баку, 2004, с. 11.
11. Cəfərov Ə.Q. Azərbaycanın ilk sakinləri. Bakı: Elm, 2004, s. 88.
12. Bünyadova Ş.T. Azərbaycanın təsərrüfatı və maddi mədəniyyəti (XII-XVI əsrlər). Bakı: Elm, 2007, s. 107.
13. Behbudov H.Ə. Azərbaycanın çəmən-otlaq təsərrüfatı. Bakı: Azərnəşr, 1986, s. 7.
14. Лисицына Г.Н., Прищепенко П.В. Göstərilən əsəri, s.17.
15. Behbudov H.Ə. Göstərilən əsəri, s. 7.
16. Бакиханов А.К. Гюлистан-и Ирам. Баку: Элм, 1991, с. 11.
17. Azərbaycan etnoqrafiyası. 3 clddə, I cild, Bakı: Elm, 1988, s. 213.
18. Behbudov H.Ə. Göstərilən əsəri, s. 12.
19. Xəlilov X.D. Qarabağın elat dünyası. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1992, s. 51.
20. Cəfərov R.C. Binəqədinin dördüncü dövr faunası. Bakı: Azərb. SSR EA Nəşr., 1961, s. 4-15
21. MATMAF: 23660
22. Гусейнов М.М. Древний палеолит Азербайджана (Культура Куручай и этапы её развития 1500000 – 70 тысяч лет назад). Баку: Элм, 1985, с. 35-40.
23. Cəfərov Ə.Q. Azərbaycanın ilk sakinləri. .... s. 89-90.
24. Cəfərov Ə.Q. Azıx dünya arxeologiyasında / Akademik İqrar Əliyevin 80 illiyinə həsr olunmuş Elmi konfransın materialları, Bakı: Elm, 2004, s. 15.
25. Дадашев А.Н. Земледельческо-скотоводческая экономика обществ эпохи палеометалла на территории Азербайджана. Баку: Издательство Бакинского Университета, 2000, с. 209; Он же: Значение и источниковедческая

база древнейшего скотоводческого хозяйства на территории Азербайджана // Tarix və onun problemləri, 2003, № 2, s. 170-171.
26. Muradova F.M. Qobustan tunc dövründə. Bakı: Elm, 1979, s. 87.
27. Müseyibli N.Ə. Gəmiqaya. Bakı: Çaşıoğlu, 2004, s. 65.
28. Шнирельман В.А. Происхождение скотоводства. Москва: Наука, 1980, с. 209-210.
29. Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку: Nafta-Press, 2008, с. 131.
30. Шнирельман В.А. Göstərilən əsəri, s. 70.
31. Мунчаев Р.М. Кавказ на заре бронзового века. Москва: Наука, 1975, с. 76-78.
32. Нариманов И.Г. К вопросу возникновения и становления производящего хозяйства на Кавказе // Tarix və onun problemləri, 1997, № 2, s. 31-32.
33. Ахундов Т.И. К проблеме эпохальной периодизации на Южном Кавказе (неолит-ранняя бронза) // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2004, № 2, s. 9.
34. Akhundov Tufan. Sites de migrants venus du Proche – Orient en Transcaucasie / Les cultures du Caucase (VI[e] – III[e] millenaires avant notre ere) Leurs relations aves le Proche – Orient, Paris: CNRS EDITIONS, 2007, p. 120-121.
35. Cəfərov Ə.Q. Azərbaycanın ilk sakinləri. .... s. 114.
36. Bünyadov T.Ə. Azərbaycanda maldarlığın inkişafı tarixindən. Bakı: Elm, 1969, s. 13.
37. Ахундов Т.И. К проблеме эпохальной периодизации ... , с. 12; Он же. Северо-западный Азербайджан в свете этно-культурных процессов на Южном Кавказе в эпоху энеолита и бронзы // Tarix və onun problemləri, 1998, № 3, s. 135-143.

## FACTORS CAUSING APPEARANCE IN AZERBAIJAN OF THE CATTLE-BREEDING

**Nasir Guluzadeh**

### Summary

**Key words:** cattle-breeding, domestication, eneolithic period, climate, Near East

Representing article have been devoted to investigating of the factors where has influenced to occuring in Azerbaijan and development in Azerbaijan of the cattle-breeding economy. Author has emphasized specially that natural-geographical condition of the region and anthropogenic factors have influenced to occuring and development of the cattle-breeding economy. The article also investegates that, Asiatic influence played no decisive, but additional role in the formation and development of cattle breeding in Azerbaijan

# ФАКТОРЫ, СПОСОБСТВУЮЩИЕ ВОЗНИКНОВЕНИЮ СКОТОВОДСТВА В АЗЕРБАЙДЖАНЕ

**Насир Гулузаде**

## Резюме

**Ключевые слова:** скотоводство, приручение, энеолит, климат, Ближний Восток

Данная статья посвящена изучению тех факторов, которые обусловили формирование и развитие скотоводческого хозяйства в Азербайджане. Автор в основном отмечает, что природно-географическая обстановка региона и антропогенные факторы позитивно повлияли на формирование и развитие скотоводства. В статье также отмечается, что в формировании и развитии скотоводства в Азербайджане переднеазиатское влияние играло не решающую, а вспомогательную роль.



**Şəkil 1**



**Şəkil 2**



**Şəkil 3**



**Şəkil 4**




**Şəkil 5**



**Şəkil 6**




Şəkil 7



Şəkil 8



Şəkil 9




Şəkil 10



Şəkil 11



Şəkil 12

# ARİF ƏRDƏBİLİNİN «FƏRHADNAMƏ» ƏSƏRİNDƏ ETNOQRAFİK MƏSƏLƏLƏR

**Şirin Bünyadova**
(Bakı Dövlət Universiteti)
shirin_bunyad@mail.ru

**Açar sözlər**: məişət, mədəniyyət, etnoqrafiya, adət.

Xalqımızın məişət və mədəniyyət tarixini öyrənmək üçün vacib olan müxtəlif səpgili mənbələr mövcuddur. Belə mənbələrdə xalqımızın etnoqrafiyasına dair məlumatların olması onların dəyərini bir qədər də artırır. Azərbaycan haqqında məlumat verən belə mənbə müəllifləri öz əsərlərində tarixi baxımdan əhəmiyyətli olan müxtəlif hadisələri özünəməxsus şəkildə şərh edərkən təsvir etdikləri dövrün problemlərini qələmə almağa çalış-mışlar. Təbiidir ki, bu mənbələrin həmin dövrü öyrənmək üçün böyük əhəmiyyət kəsb etməsi şübhəsizdir. Lakin ən qiymətli mənbə kimi həmin dövrdə yaşayıb yaradan və öz xalqının məişət məsələlərini dərindən bilən şairlərinin əsərlərini də bu siyahıya əlavə etmək olar. Çünki onların yaradıcılığında Azərbaycan xalqının tarixi etnoqrafiyasına dair məsələlər başqa mənbələrə nisbətən öz əksini daha dolğun tapmışdır. Belə şairlərdən biri də Azərbaycanın tanınmış söz ustadı Arif Ərdəbilidir.

Azərbaycanın orta əsrlərdə yaşayıb yaradan görkəmli şairlərindən biri kimi Arif Ərdəbili də öz yaradıcılığında etnoqrafik baxımdan nəzəri cəlb edən məsələlərə yer vermişdir. O, XIV əsrdə Ərdəbil şəhərində anadan olmuşdur. Onun şəxsiyyəti haqqında verilən məlumatda maraqlı bir fakt nəzərə çarpır. Şair «Sultan Üveys Cəlayir zamanında böyük Şirvanşah Keykavus Keyqubad oğlunun (hicri qəməri 745-774/1344-1372) dəvətilə Şirvana gəlmiş və orada Şirvanşahın oğlunun müəllimi olmuşdur» (2, 26-27). Bu onu göstərir ki, Arif Ərdəbili hərtərəfli biliyə malik olmuş, dövrünün ən sayılan və seçilən görkəmli şəxsiyyəti kimi tanınmış və elm sənətinin uca zirvəsi sayılan müəllimlikdə də xüsusi keyfiyyətləri ilə fərqlənmişdir. Görünür, bu xüsusiyyətlər də onun Şirvanşah tərəfindən saraya dəvət edilərək daha yüksək mərtəbəyə çatmasını təmin etmişdir.

Tarixi materiallardan məlum olur ki, yeddinci Hülakü hökmdarı Qazan xanın keçirdiyi başlıca islahatlarından sonra Azərbaycan ərazisindəki vəziyyət nisbətən dəyişməyə başlamışdır. Təsərrüfat müəyyən qədər dirçəlmiş, şəhərlər də həmçinin inkişaf etmişdir. Bu da öz növbəsində Azərbaycanda müəyyən qədər elm və mədəniyyətin də inkişafına öz təsirini göstərmişdir. Ədəbiyyat sahəsində də bu inkişafın təsirini sezməmək mümkün deyildir. Belə ki, «XIV əsrdə Azərbaycan şeri nisbətən daha sürətlə inkişaf edirdi. Bu əsrin ədəbiyyatı məzmun etibarilə də əvvəlki əsrlərin ədəbi nümunələrindən

fərqlənirdi. O dövrdə həyatı daha geniş surətdə əks etdirən epik dastanlar meydana çıxmışdı. Bu əsərlərdə yaradılmış həyat löhvələri, insan surətləri poeziyanın mistikadan uzaqlaşdığını, onun həyatla əlaqələrinin gücləndiyini göstərir» (3, 129). Eyni fikir Azərbaycan ədəbiyyatı tarixində də vurğulanmışdır (7, 209). Məsələn, Arif Ərdəbili kimi görkəmli şairlərin yetişməsində heç şübhəsiz ki, yaşadığı mühitin də az təsiri olmamışdır. Arif Ərdəbili eyni zamanda dahi mütəfəkkir şair Nizami Gəncəvi irsinin təsiri altında yazan şairlərdən biridir. Onun «Fərhadnamə» əsəri maraqlı bir dastana həsr olunmaqla yanaşı, özündə orta əsrlərdəki xalqımızın məişət tərzini demək olar ki, bütün çalarları ilə əks etdirir. Qeyd etməliyik ki, poemada həmçinin, etnoqrafik baxımdan maraq doğuran məsələlər də öz əksini tapmışdır. Bunlar əsasən aşağıdakılardan ibarətdir.

Hələ qədim zamanlardan təsərrüfatın əhalinin həyatında mühüm rola malik olması aydın məsələdir. Arif Ərdəbili təsərrüfatla bağlı məsələlərə cüzi də olsa, müəyyən qədər yer vermişdir. Məsələn o, «pis toxum əkməklə faydasız çalışma, yaxşı toxum əksən yaxşıdır.»-deməklə pis toxumun bəhrə verməyəcəyini, yaxşı toxum əkilərsə, bol da məhsul almağın mümkünlüyünü söyləmişdir (1, 162). Şairin təsərrüfatın bir sahəsi olan bağçılıq haqqındakı məlumatlarında meyvə ağacını peyvənd etməkdən bəhs edilir. Bundan başqa səfalı bir bağı təsvir edən müəllif burada üzüm, alma, şaftalı, nar, armud, kimi meyvələrin olduğunu qeyd edir (1, 102-109). Yardımçı təsərrüfat sahəsi olan ovçuluqdan da əsərdə söhbət açılır. Arif Ərdəbili əsərində Fərhadı məşhur ovçu kimi təqdim edir. O, bu xüsusda belə deyir: «Əgər Arəş onun ox və kamanını görsəydi, o kaman çəkənin oxundan xəcalət çəkərdi. Əgər onun başı üzərində bir qartal uçmuş olsaydı belə, onu oxu ilə vurardı» (1, 83).

Arif Ərdəbilinin «Fərhadnamə»sində maddi mədəniyyət elementləri haqqında da məlumatlara rast gəlmək mümkündür. Xüsusən tikililərlə və sənətkarlıqla əlaqədar verilən təsvirlərə daha çox rast gəlmək olar. Çünki şairin əsərində canlandırdığı surət məhz sənətkar obrazıdır. Müəllif bu xüsusda onu öz işinin mükəmməl bilicisi kimi təqdim etməyə çalışmışdır. Arif Ərdəbilinin «Fərhadnaməsini» tədqiq edən N.Araslı əsərə istinadən yazır: «Fərhadın saray tikdirdiyi təsvir edilir. Həmin sarayı bəzəmək üçün çalışan sənətkarların olduğunu da söyləyir» (1, 9). Əsərdə onun özünə saray tikdirərkən digər ölkələrdən belə müxtəlif sənətkarlar dəvət etdiyinin şahidi oluruq. Şair burada qəhrəmanının da sənətkara necə yüksək qiymət verməsini canlandırır. Onun «sənətkarlıqla daşa siğəl verdi» - deməsi daşyonma sənətini yaxşı bilməsinə və mahir usta olmasına işarədir (1, 58). Buradan da aydın görünür ki, Arif Ərdəbili sənətə və sənətkar əməyinə yüksək qiymət verir, zəhmətkeş sənət adamını hər kəsdən üstün tutur. Əsərdən şairin sənətkara xüsusi rəğbət bəslədiyi aydın sezilir. O, Fərhadın oğlunun da məşhur

sənətkar olduğunu əlavə edir (1, 64). Müəllif həmçinin sənətkarlıqda istifadə olunan əmək alətlərindən külüng və pərgarın adlarını xatırladır (1, 84).

Arif Ərdəbili yaratdığı obrazının bir sənətkar kimi gördüyü işlərinin nəticələri haqqında məlumat verir. Məsələn o yazır: «Bakıda da dənizdə belə bir qala vardır ki, yeni şəhərin qalasını su orada örtmüşdür. Onlardan yadigar qalan başqa gözəl əl işləri də var. Bakı qəbristanlığında elə bir günbəz vardır ki, onu hər kim görsə (heyrətdən) əlini əlinə vurar. Uzaqdan dağın başında olan parlaq günəş kimi görünür. Divəndazdan çaxmaq daşları gətirib, dağın başında o binanı tikmişlər. Sənətkarlıqla elə bir günbəz düzəldilib ki, dünyanın günbəzi onun kimisini görməyib» (1, 8-9). Sonra o fikrinə davam edərək əlavə edir: «Onların məşhur olan hünərlərindən biri Axsitan şahın qalasıdır... Şamaxı Gülüstanında bir qala vardır ki, Ruyindej onun yanında alçaq görünür. Onun üzərində daşdan bir neçə surət gördüm ki, gözəllikdə dünyada misli yox idi. Hasarın yüksək yerində daşdan heykəl düzəldilmiş və ona saxsı borularla su aparılmışdı. Ustalar bir-birindən belə eşitmişdilər ki, bu Fərhadın övladlarının işidir» (1, 55). Daha sonra şair qeyd edir: «İncə sənətə malik, onu işlətməyi bacaran, nəqqaşlıqda xəyalı yüksək, məharətlə boyalar yaradan, igidlikdə daşa pəncə vuran, tişənin zərbəsilə möcüzələr göstərən, sərt daşlar üzərində insanı heyrətə gətirən surətlər nəqş edən bir adama dəli adı vermə. Belə işləri biliklə görmək olar» (1, 14). Şair burada çox maraqlı məqama toxunmuşdur. Belə ki, o haqlı olaraq göstərməyə çalışmışdır ki, bu işlərdə ölçünü düzgün götürmək, məsafəni dəqiqliklə hesablamaq, rəsm çəkməyi yaxşı bilmək üçün yüksək təfəkkürə malik olmaq lazımdır. O yazır:

Sənətkarlıqla gözəl bu abidə yaranmış,
Sənət tarixində də ona heç tay olmamış.
Daşlar o qədər möhkəm bir-birinə uyuşmuş,
Sanki günbəz əzəldən bir parça sal daş olmuş.
Qələndərdir bu günbəz, geyim dərviş ziyində,
Dinməz, sakit dayanmış o bu dağ ətəyində (2, 27).

Maddi mədəniyyət elementlərindən geyim və bəzəklər haqqında verdiyi cüzi məlumat isə bundan ibarətdir. A.Ərdəbili yazır: «örtüyü olmayan bir başa və ipək geyimi olmayan bədənə dövranın padşahı, başdan ayağa qədər can demək olar» (1, 72). Buradan da orta əsrlərdə başa örtük çəkildiyi, geyimdə isə ipək parçadan istifadə edildiyini görürük. Müəllifin başqa bir məlumatında geyim növlərindən uzun müddət istifadədə olan qəbanın adını çəkmişdir (1,106). O, həmçinin bəzəklərdə istifadə olunan ləl və yaqut kimi qiymətli daşlardan söz açımışdır (1, 96). Şairin təsvirinə diqqət yetirək:

İyirmi diş kənarlı gözəl papaq başında,
Bəzəkli xırqası var bir şah yaraşığında.
Başındakı papağı sarı yemiş görkəmi,
Ətrafında naxışlar təzə çıxmış ay kimi (2, 28).

Arif Ərdəbilinin bu əsərində etnoqrafik cəhətdən mühüm əhəmiyyət kəsb edən ailə məsələləridir. Belə ki, burada ailə məişəti ilə bağlı məqamlar digər məsələlərə nisbətən yığcam, lakin dəyərlidir. Orta əsrlərin digər müəllifləri kimi eşqə yüksək qiymət verən və aşiqin daxili emosional vəziyyətini olduğu kimi canlandıran şair belə deyir: «Aşiqin eşqi onun danışığından məlum olur. Eşqdə atəşi gizlətmək olmaz. Eşq gələn zaman ağıl işdən düşür. Heç vaxt ağıl eşqlə dost olmaz. Ürəyində atəş olan adam ah çəkməyə bilməz. Yazıq aşiqin əlaməti ah çəkməkdir. Quru dodaqları və solğun üzü şahiddir» (1, 68). Əsərin məzmununu şərh edən N.Araslı yazır: «Bu zaman Fərhadın atası ölür. Onun əmisi təxtə sahib olub, ölən qardaşının arvadı, yəni Fərhadın analığı ilə evlənir. Bu hadisə Fərhadı çox mütəəssir edir» (1, 62). Göründüyü kimi, burada şair nəinki orta əsrlərə, eləcə də ümumiyyətlə sonrakı dövrlərdə də xalqımızın mənəvi dəyərlərinə xarakterik olmayan və nadir rast gəlinən nigan növü kimi levirat haqqında söz açmışdır.

Bu nikah növünü başqa adıyla qayına getmə kimi də izah etmək olar. Belə ki, bu nikah əri ölmüş qadının subay qaynı ilə evlənməsinə deyilir. Şairin də münasibətindən bəlli olur ki, əsərdə bu məsələ təqdir olunmayan bir hal kimi yer almışdır. Burada nəzəri cəlb edən isə sadəcə levirat kimi nikah növünün mövcud olduğunu qeyd etməsidir. Cavan vaxtı əri ölüb dul qalmış qadınların başqa evə yenidən gəlin getməsini qəbul edə bilməyən və bunu istəməyən nadir ailələrdə onu evlənməmiş qaynına almaq kimi az-az rastlanan hallar da mövcud olumuşdur. Burada əsas məsələ həmçinin dul qalanın uşaqı olduğu təqdirdə onun ata ocağından ayrılmasına razılıq verilməməsi ilə bağlıdır. Təqdirəlayiq hal olmadığı onun nadir görüldüyü ilə də əlaqədardır və keçmişin ən pis, geridəqalmış nikah növü kimi əhali arasında da müsbət qarşılanmadığı və geniş yayılmadığı bəllidir. Əslində belə bir nikah növünün olması zənnimizcə ailə daxili iqtisadi durumun, maddi məsələlərlə bağlı düşüncələrin də rolu ilə izah oluna bilər. Belə ki, burada əsas amil kimi təzə gəlin üçün təzədən xərc sərf edərək yenidən toyla bağlı adətlərlə əlaqədar olaraq (məsələn, başlıq pulu və s.) əlavə xərclərə girmək istəməmək kimi niyyət özünü göstərir. Bəzi müəlliflər bu nikah növünün mahiyyətini aşağıdakı kimi də izah etməyə çalışırlar. Məsələn, Bahaəddin Ögəl özünün «Böyük hun imperiyası» kitabında belə yazır: «Levirat - oğulların dul ögey analarla və ya ölən qardaşların arvadları ilə evlənmə adətidir. Əslində, hunlarda və sonrakı türklərdə bu adət inkişaf etmiş bir adət kimi müşahidə edilirdi. Məqsədi isə ailələrin dağılmaması, ərləri ölən qadınların və yetim

uşaqların səfalətə düşməmələri idi... Ölən qardaşın arvadı ilə evlənib, onun yetim qalan uşaqlarını öz ailəsi və himayəsi altına almaq tipik və sosial bir həmrəylik nümunəsidir» (5, 193-194). Burada belə bir fikir səslənir ki, guya bu nikahda məqsəd ailənin dağılmaması və səfalətə düşməməsidir. Bu xüsusda etnoqraf alim Q.Qeybullayevin də fikri belədir: «Levirat nikah adətinin icra edilməsinin iki səbəbi vardı. Varlı zümrədə mərhumun varidatına sahib olmaq meyli əsas rol oynayırdı. Geniş əhali içərisində isə maddi mülahizələrdən başqa (qız əvəzinə başlıq verildiyinə görə), həm də mərhumun uşaqlarını saxlamaq və böyütmək zərurəti nəzərə alınırdı və ona görə xalq içərisində bu adət «yaraya yarpaq», yəni baş vermiş bədbəxtlikdən çıxış yolu adlanırdı. Xalq arasında bunu «çörək parçalanmasın»-ifadəsi ilə də izah edirdilər» (4, 150-151).

Hacı Qadir Qədirzadə isə bu xüsusda belə yazır: «Araşdırmalar göstərir ki, bu forma nikahlar daha çox ailədə (yəni ölmüş qardaşın və ya bacının yetim uşaqları) bağlanırdı. Xalq arasında «Yaraya yarpaq» adlanmaqla «qardaş qardaşın balasına öz balası kimi baxar», «anası yoxdur, xalası var», «ətini yesə də, sümüyünü çölə atmaz» və s. deyimlər bununla əlaqədardır. Qeyd edilməlidir ki, bu, hamıya belə olmurdu» (9, 24). H.Quliyev Azərbaycanın keçmiş ailə məişətində monoqam nigah forması ilə yanaşı, leviratın da qeydə alındığını söyləyir (11, 15). Bu məsələ Azərbaycan respublikasının qərb bölgələrinin müasir kənd həyatını tədqiq edən Nərgiz Quliyevanın da əsərində yer almışdır ki, o bu hadisənin əhali tərəfindən «baş vermiş bədbəxtliyə çarə» kimi dəyərləndirildiyini söyləyir (10, 59). Şəxsi fikrimə görə məgər ailə, oğlanlardan biri ölərdisə, atasız qalan uşağı və ocağa gəlin gəlib, lakin dul qalmış qadını saxlamaqda acizlikmi çəkir ki, hökmən o biri oğulla nigaha girməyi zəruri hesab edir. Əmi öz qardaşının ailəsinə öz ailəsi kimi qayğı göstərmək üçün məhz nigahamı girməlidir? Belə ki, «Arif toy mərasimi, sarayda duzələn təntənəli məclisləri, əyləncə gecələrini təsvir edərkən özünün şəxsi münasibətini bildirməklə bərabər, sarayda keçirdiyi qayğısız dəmlərini yada salır. Bunları şair öz şəxsi müşahidələrinə əsasən, sarayda keçirdiyi dəbdəbəli həyatın təsirilə qələmə aldığı üçün olduqca canlı təsvir edir» (1, 107).

Orta əsr müəlliflərinin əsərlərində rast gəldiyimiz bir fakt da ailə məişətində əhəmiyyət verilməsi gərəkli hesab olunan əsil-nəsil məsələsidir. Belə ki, bu məsələ qız bəyənilərkən diqqət yetirilməsi vacib olan məsələ kimi ortaya çıxır. Lakin xalq arasında oğlan tərəfə də qiymət verilirkən onun da nəsli mənsubiyyətinin uyğun görülüb görülməməsi əsas şərt kimi sayılır. Məsələn, Arif Ərdəbilinin «Fərhadnamə»sində bu şərt ötəri şəkildə də olsa, belə vurğulanır:

Fərhadı o görərək əhvalını yazıbmış,
Övladından, nəslindən həm də o danışıbmış (2, 27).

M.O.Kosven mövcud bir sıra terminlərin, eləcə də azərbaycanlılardakı nəsil sözünün bütövlükdə qohum qrup və həmçinin patronimiya anlamına gəldiyini qeyd edir (8, 187). Burada aydındır ki, Ərdəbilinin söyləmək istədiyi hansı nəslə (yəni qohum qrupa) aid olduğunu vurğulamaqdır.

A.Ərdəbili ailə ilə bağlı Azərbaycan xalqının əsrlərdən bəri yaşayan və böyük fərəhlə qeyd edilən toy mərasimi haqqında məlumat vermişdir. Əsərdən məlum olur ki, Gülüstan ilə Fərhad müəyyən çətinlikdən sonra nəhayət ki, bir-birinə qovuşa bilirlər. Məsələn, toydan qabaqkı mərhələ olan elçilik adəti haqqında verilən məlumat barədə deyilir: «Ziyafət zamanı Fərhad şəklini Çində görmüş olduğu Gülüstanı görür. O, fürsət düşdükcə öz məhəbbətini qıza bildirməyə çalışır. Gülüstan da bunu hiss edir. O da Fərhada hüsnrəğbət bəsləyir. Sonra Fərhad öz məhəbbətini açıb Şaura deyir. Şaur Fərhad tərəfindən Gülüstan üçün elçilik edir. Bu zaman o qızın atasına Fərhadın Çin şahzadəsi olduğunu söyləyir. Ancaq usta qəti bildirir ki, o, qızını daş sənətinə özü kimi yaxşı bələd bir sənətkara verəcəyinə and içmişdir. Onlar belə qərara gəlirlər ki, Fərhad elə sabahdan daş sənətini öyrənmək üçün usta ilə işə başlasın» (1, 62). Bu şərt qarşısında Fərhad yenilmir, əksinə qarşısında məsuliyyətli bir vəzifənin durduğunu bütün varlığı ilə hiss edir. Bu xüsusda N.Araslı belə yazır: «Bu məhəbbət Fərhada ilham verir, onu daş sənətini öyrənməyə ruhlandırır. Fərhad məhz öz məhəbbətinin şiddəti ilə az bir müddətdə məşhur sənətkarı istedad və bacarığı ilə heyrətdə qoya bilir. Poemada birinci hissədə qarşılıqlı məhəbbət ifadə olunur. Arif Gülüstanın da saf məhəbbətlə sevdiyini göstərir» (1, 67).

Əsərdə Gülüstan sevgilisinə sadiq, vəfadar bir qız kimi təqdim edilir. Əlindən gələni əsirgəməyən, sevgilisi yolunda, onun uğrunda keçirdiyi daxili sarsıntılar Gülüstanın nə qədər yüksək mənəvi keyfiyyətlərə malik olduğunun göstəricisidir. Bununla yanaşı əsərdə təqdim olunan digər qadın obrazı da vardır ki, o da Xosrovdan qarşılıqlı məhəbbət görməyən Şirindir. Şair Şirinin dili ilə bir qız ürəyinin alovlu səslənişini belə təsvir edir: «Ürəyim Xosrovdan sınmışdır. Daha bu şişəni birləşdirmək olmaz. O peymanından dönəndən dostluq gözləmək olmaz, o ürək yandırandan dildar da olmaz. Onun soyuq eşqini xatırlayarkən, o qızğın məhəbbətimin bazarı soyudu» (1, 13). Şair ölülərin tabuta qoyulduğunu da xatırladır (1, 75). Göründüyü kimi, əsərdə ailə ilə əlaqədar verilən məlumatlar nisbətən zəngindir. Q.Qeybullayev bir sıra orta əsr müəlliflərinin əsərlərinə müraciət edərək ailə ilə bağlı onların əsərlərində yer alan məsələləri işıqlandırmağa çalışmışdır. Lakin Arif Ərdəbili yaradıcılığına əsla müraciət etməmişdir.

Gülüstan ilə Fərhadın toy mərasimi yaxınlaşır. Əsərdə müəllif toydan əvvəl Fərhadın xristian dinini qəbul etdiyini təsvir etmişdir, o, eyni zamanda rahiblərin musiqi çaldığını, Davud duasının oxunmasını, evlənənlərin bir piyalədən şərab içməsini və beləliklə, toyun xristian adəti ilə aparıldığını qeyd etmişdir (7, 205). Burada biz nikah əlaqələrində dinin əngəl olmadığını görürük. Amma nəzərdən qaçmayan bir cəhət də budur ki, adətən qadının ərinin mənsub olduğu dini qəbul etməsi halı (məsələn Əfzələddin Xaqani xristian qızı olan anasının nikaha daxil olarkən islam dinini qəbul etdiyini söyləyi-Ş.B.) məlumdur. Burada isə A.Ərdəbili əksinə olaraq kişinin evlənərkən başqa dini qəbul etməsini şərh etmişdir. Bu da müəllif tərəfindən ola bilsin ki, nadir görünən hallardan biri kimi təqdim olunmuşdur.

Şair öz əsərində məşşatə kəlməsini işlətmişdir ki, bu da toylarda və müxtəlif mərasimlərdə gəlinlərə bəzək vuran qadınlara verilən addır. Hətta toylarda oynayan mütribün də adı əsərdə çəkilir (1, 118; 96). Bu da onu göstərir ki, müəllif hansı məişət tərzini təsvir etməyə çalışmasından asılı olmayaraq, yenə də öz doğma Azərbaycan mühitindən qidalanmışdır və ona xas olan adət-ənənələri və keyfiyyətləri qələmə almışdır.

Ailə münasibətlərində övlad dünyaya gəldikdən sonra mühüm bir məsələ olan tərbiyə problemində Arifin özünün ibrətamiz nəsihətlərinin də rolu və əhəmiyyəti böyükdür. Aydın məsələdir ki, şair öz əsərində tərbiyə problemini ətraflı şəkildə işıqlardırmağı qarşısına bir məqsəd kimi qoymamışdır. Bununla yanaşı, insanı bir şəxsiyyyət kimi dəyərləndirərkən o deyir ki, insanlar arasında o adam kişidir ki, ürəklə dostun qəm və kədərinə şərik olsun. Şair göstərir ki, şadlıqda dostu ilə badə içən adam bərk ayaqda da kişi kimi çalışmalıdır (1, 72). Məlumdur ki, hər bir şəxs əxlaqını onun öz daxili təbiətinə uyğun tərzdə və vicdanının səsinə müvafiq həyata keçirir. Burada müəllif sanki məhz bu xüsusiyyətə işarə etmişdir.

Arif Ərdəbilinin «Fərhadnamə» poeması haqqında düşünərkən əsərdə ülvi eşq duyğusu ilə yanaşı, eyni zamanda hünər, qəhrəmanlıq, sədaqət, dostluq, qonaqpərvərlik və s. bu kimi xüsusiyyətlərin vəsf edildiyini görürük. Eyni zamanda ibrətamiz nəsihətləri və əxlaq haqqında şairin irəli sürdüyü şəxsi mülahizələri də əsərdə öz layiqli yerini tapır və mühüm əhəmiyyət kəsb edir. Bu da gələcək nəslin tərbiyə məsələlərində əhəmiyyətli rol oynayır.

Ailə məişətində tədqiq olunan məsələlərdən biri də dəfn mərasimidir. «Fərhadnamə»də məhz Azərbaycan məişətinə xas olan dəfn adəti ilə bağlı məsələlər də verilir. Belə ki, Gülüstanın ölüm səhnəsi təsvir edilərkən onun uşaq doğarkən öldüyü göstərilir. Şair Gülüstanın ölümü ilə bağlı acını şərh edərkən dərin hüznü və kədəri bu sözlərlə şerə tökür: «nalə və fəğan səsləri göyə çatdı, ürəyin tüstüsündən heç kəs göyü görə bilmədi» (1, 64;110). A.Ərdəbili bu münasibətlə Şirin və Məhin Banunun Gülüstanın matəmində

ağlayıb başsağlığı verdikləri haqda söz açmışdır. İnsanlara ağır kədər üz verdikdə, müəyyən mənada təsəlliyə ehtiyacı olur. Bu baxımdan xalqımızın dəfn adətində məhz təskinlik vermək kimi keyfiyyət öz əksini tapır. Şair hətta öz dərdini belə qələmə alaraq yazır: «Heç kəs mənim kimi inildəyə bilməz. Heç kəs daxili yanğını mənim kimi ifadə edə bilməz. Çünki torpağın altında can kimi əziz və can kimi təmiz yatanlarım var. Ayuzlulər cinsindən bir neçə dilbər, ürək meyvəsi növündən yeddi oğul» (1, 7). Şair də öz həyatında ən əzizlərini itirmişdir. Burada o bu hisslərin ona yad olmadığını vurğulamağa çalışmışdır. Şaurun bir il gedib Fərhadın qəbri üstə ağladığını da təsvir etməklə şair el adətinə görə ölüyə bir il yas tutulduğunu qeyd etmişdir (7, 209). Gülüstanın ölümündən sonra anasız qalan uşağın başqa bir qadının - Məryəmin südü ilə bəsləndiyini deyir (1, 114). Bildiyimiz kimi, belə qadınları el arasında süd anası adlandırırlar.

Arif Ərdəbili adı çəkilən əsərində xalqımızın mənəvi mədəniyyəti ilə bağlı məsələlər də öz əksini tapmışdır. Elmi biliklər barədə Arif Ərdəbili yazır:

O yerdə köçümü saldığım gündən
Təlim qapısını xalaqa açdım mən.
Süls, nəsx, təliq adınca getdim,
Onları bir neçə kəsə öyrətdim (6, 267).

Elmlərə vaqif olan Arif Ərdəbilinin özünün elmə müsbət münasibəti onun yaradıcılığından da bəlli olur. O deyir ki, «Elmli adam hər nə danışsa, ürəyə yatan olur.» «Elmdən bəhrələnmiş adam hər nə desə xoşa gələn olur» (1, 72;161). Elmə, biliyə şairin necə yüksək qiymət verdiyinin şahidi oluruq. Şairin dünya, aləm və kainat haqqında fəlsəfi fikirləri ilə bərabər cəmiyyətlə bağlı siyasi mülahizələri, elmi düşüncələri də vardır.

Müəllif əsərdə xalq təbabəti ilə əlaqədar məsələlərə də ötəri toxunmuşdur. Məsələn, əsərdə təbibin xəncərlə yaralanmış Fərhadı sağaltmasından da bəhs edilir. Təəssüf ki, burada istifadə olunan vasitələrdən geniş məlumat yoxdur və ətraflı təsvir yox dərəcəsindədir.

Arif Ərdəbili əsərində qonaqpərvərlik adətinə toxunaraq həmin adətin başlıca xüsusiyyətlərinə yer vermişdir. Bu xüsusda N.Araslının əsərə istinadən irəli sürdüyü fikri maraq doğurur. O yazır: «Əsərdə təbliğ edilən əxlaqi-tərbiyəvi nəsihətlər içərisində səxavət, əliaçıqlıq haqqındakı fikirlər də mühüm yer tutur. Şairə görə səxavət insanı yüksəldir. Hər kəs öz adına uyğun tərzdə səxavət göstərməlidir. Verilən bəxşiş bağışlanılan adamın deyil, bağışlayanın adına layiq olmalıdır. Şair qonaqlıq məclislərini təsvir edərkən səxavət, qonaqpərvərlik kimi gözəl ənənələr haqqında da danışır, gülərüzlə qonaq qəbul etmək, qonağa ürəklə qulluq göstərmək kimi adət-ənənələri öz

əsərində əks etdirir» (1, 74). Qonaqpərvərlik xalqımızın mənəvi mədəniyyətində ən qiymətli incidir və o, məişətimizdə qərarlaşıb sabitləşən adətlər içərisində mütərəqqiliklə sıx bağlıdır. Tarixi inkişafın gedişi prosesində nəsillərdən yadigar qalan, xalqın məişət tərzində özünü büruzə verən, insanların mənəvi dünyasının göstəricisinə çevrilən adət və ənənələr mühüm əhəmiyyət kəsb edir. Həyatın müxtəlif sahələrilə sıx bağlı olan adətlər öz mahiyyətilə, məzmunu ilə xalqın özünəməxsusluğunu təsdiqləyir. Belə adətlərdən biri də xalqın məişətinə daxil olaraq dərin köklər salan qonaqpərvərlik adətidir. Düzdür, bu adət iqtisadi və ictimai qanunauyğunluqlara müvafiq şəkildə zaman keçdikcə dəyişə bilir. Lakin buna baxmayaraq, bu adət uzun əsrlər keçsə də, öz əsas mahiyyətini qoruyaraq hər dövrə uyğun icra olunmuşdur və get-gedə daha da zənginləşir.

Mənəvi mədəniyyətimizlə əlaqədar mövcud təsvirlərdə şair zəngin musiqi haqqında da söz açmışdır. Musiqi xalqın mədəni tərəqqisinə xidmət etməli və onun hiss və düşüncələrinin ifadəçisinə çevrilməlidir, çünki ən nəcib duyğuların tərənnümçüsüdür. Özü də musiqi estetik zövqün inkişafı ilə bağlı olan məsələdir. «Fərhadnamə» əsərində yalnız musiqi alətlərinin bir neçəsinin adları çəkilir. Şair deyir: «Təbilin sədası və neyin naləsi yerinə, əkri və qopuzun nəvası» və yaxud, «Türklər kimi qabaqda əkri və qopuz var idi, şam arxada, fanar qabaqda idi» (1, 51). Bununla yanaşı, ərğənunun adı çəkilir (1, 132).

Xalqın uzun əsrlər boyu yaratdığı mənəvi mədəniyyətin tərkib hissəsini təşkil edən təsəvvürlər də əsərdə yer almışdır. Məsələn, A.Ərdəbili ovsunlarla bağlı inamlara da toxunmuşdur. Şair «Səni aldadır sayıq ol, çəkin ki, ovsunçu ilanı ovsun ilə tutar»-deməsi fikrimizə sübutdur (1, 162).

Müəllif xalqın məişətində mühüm rol oynayan mənəvi mədəniyyətimizin əsaslarından biri olan bayramlardan novruzun adını çəkmişdir (1, 114). Quranın Məhəmməd peyğəmbərə nazil olduğu gecə kimi ramazanın 27-ci gecəsi hesab olunan gün qədir gecəsidir ki, şair «Çünki ay qədir gecəsində parlaq olur.» - deməklə onun da adını xatırlatmışdır (1, 113).

Əsərdən aydın olur ki, Arif də başqa orta əsr müəllifləri kimi Azərbaycanın şifahi xalq yaradıcılığı nümunələrindən geniş surətdə bəhrələnmişdir. Məsələn, nə əkərsən onu biçərsən kimi atalar sözü və s. onlarca bu səpgidə ifadələrin əsər boyu işlənməsi dediyimizi təsdiq edir. O göstərir ki, hər kəs öz işiylə tanınır, hər kəs öz işinə görə sayılır (1, 116;70). Poemada «Fərhad və Şirin haqqında Azərbaycanda yayılmış olan şifahi xalq ədəbiyyatı materialları çox mühüm yer tutur. Xüsusən, Gülüstan hekayəti xalq arasında yayılmış rəvayət və nağıllar əsasında yaradılmışdır» (7, 209). Deməli, Arif Ərdəbili şifahi xalq yaradıcılığından qidalanaraq poemasının daha da zəngin olmasını təmin etmişdir. O, Azərbaycan xalqının məişət və mədəniyyəti ilə

bağlı maraqlı material təqdim etmişdir. Bu baxımdan onun «Fərhadnamə»si etnoqrafiya elmi nöqteyi-nəzərdən mühüm əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT:

1. Araslı N. Arif Ərdəbili və onun «Fərhadnamə» poeması. Bakı, Elm,1979
2. Məhəmmədəli Tərbiyət. Danişməndani - Azərbaycan. Bakı, Azərnəşr, 1987
3. Azərbaycan tarixi. Üçüncü cild. (XIII - XVIII əsrlər) Bakı, Elm, 1999
4. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nigah.1 hissə. Bakı, Elm, 1994
5. Bahaəddin Ögəl. Böyük Hun İmperiyası.1 kitab. Bakı, Gənclik, 1992
6. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər).Bakı, Ozan, 2008
7. Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. 1 c. Bakı, AzSSR EA,1960
8. Косвен М.О. Семейная община и патронимия. Москва, АН СССР, 1963
9. Qədirzadə Q. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnoqenetik əlaqələr. Bakı, Elm, 2003
10. Кулиева Н. Современная сельская семья Азербайджанцев. Баку, Элм, 1992
11. Quliyeva N. Azərbaycanda ailə məişətinin bəzi məsələləri. Bakı, Elm, 1986

## ЭТНОГРАФИЧЕСКИЕ МОТИВЫ В «ФАРХАДНАМЕ» АРИФА АРДЕБИЛИ

**Ширин Бунядова**

**Резюме**

**Ключевые слова:** быт, культура, этнография, обычаи, традиции.

Ариф Ардебили один из выдающихся поэтов Азербайджана и уважаемый учитель, которого Ширваншах пригласил к себе в дворец, чтобы он воспитал и обучал его сына. Он жил и творил в ХЫВ веке. Известная нам его поэма «Фархадназме» впервые изучается как этнографический источник. В произведении особое место занимают вопросы семейного быта. По сравнению с другими вопросами этнографии, как сельское хозяйство, материальная и духовная культура скудна сведениями. Но тем не менее в поэме отражаются некоторые азербайджанские обычаи и традиции.

# ETHNOQRAPHIC PROBLEMS IN "FARHADNAME" OF ARIF ARDEBILI

**Shirin Bunyadova**

## Summary

**Key words:** culture, ethnography, custom, tradition, welfare.

Arif Ardebili one of outstanding poets of Azerbaijan and dear teacher who Shirvanshah has invited to itself in a palace that he has brought up and trained his son. He lived and created in 14th century. His poem "Farhadname" known to us for the first time is studied as an ethnographic source. In product the family life especially takes place. After the attitude to other questions of ethnography as an agriculture, material culture and spiritual culture the material is not so rich. But nevertheless in a poem are reflected some Azerbaijan customs.

# TƏLƏBƏLƏRƏ KÖMƏK
# FOR STUDENTS
# В ПОМОЩЬ СТУДЕНТАМ

## ARXEOLOJİ LÜĞƏTİN TƏRTİBİNƏ DAİR
## (“Əmək alətləri və silahlar” mövzusu üzrə)

**Tarix Dostiyev**
**(Bakı Dövlət Universiteti)**
dostiyev_tarikh@yahoo.com

Azərbaycan xalqı tarix boyu sosial-iqtisadi və mədəni inkişaf səviyyəsindən asılı olaraq müxtəlif tipli alət və silahlardan istifadə etmişdir. Müvafiq olaraq əmək alətlərinin və silahların ayrı-ayrı tiplərini özündə ehtiva edən terminlər yaranmışdır. Arxeoloji ədəbiyyatda tarixi inkişafın müxtəlif dövrlərinə mənsub, xarakter etibarı ilə bir-birindən fərqlənən əmək alətləri və silahları səciyyələndirən çoxlu terminlərə rast gəlinir və bir çox hallarda adi oxucu lüğət olmadan həmin istilahları anlamaqda çətinlik çəkir. Bunu nəzərə alaraq jurnalımızın bu sayında “Əmək alətləri və silahlar” mövzusu üzrə tərtib olunan lüğətdə arxeoloji ədəbiyyatda işləbilən başlıca terminlərin izahını diqqətinizə çatdırırıq.

**Akinak** - E.ə.I minilliyin ortalarında və ikinci yarısında iskit tayfalarının silahlanmasında istifadə olunan, əlbəyaxa döyüşdə tətbiq olunan batırıcı, doğrayıcı silah - gödək qılınc.
**Altıpərli gürz** - Parçalayıcı, əzici zərbə endirən silah. Bu silah növünün adı “Kitabi Dədə Qorqud”dastan;n da çəkilir : “...Bir ağ tozlu qatı yay aldılar. Bir dəxi altı pərli gürz aldılar..”
**Ayaqlıq** – Ayağı zərbələrdən qorumaq üçün metaldan halqalı müdafiə geyimi. Halqalar ilə birləşdirilən bir enli, iki dar polad lövhədən ibarət olur və baldırın formasına bənzəyir.
**Bəhtər** – (ərəb mənşəlidir) Zireh geyimi. XV əsrdən istifadə olunur. O uzunsov polad lövhələrin halqalarla birləşdirilməsi ilə hazırlanırdı. Üst lövhələr alt lövhələri yarıyadək örtüyündən iki qat müdafiə yaranırdı.
**Bıçaq-qaşovlar** – Qəlpədən hazırlanan bu alətlərin bir yanı qabarıqdır. Bəzi nüsxələr ayparanı xatırladır. Son paleolit üçün səciyyəvi alətlərdən biridir.

**Bizburun** – Müxtəlif qəlpələrdən hazırlanmış yanlarda, ucunda və ya küncündə bizi xatırladan çıxıntısı olan daş alət. Azıx mağara düşərgəsinin alt mədəni təbəqələrindən məlumdur.
**Bifas tipli alət** – Aşel mədəniyyəti üçün səciyyəvi daş alət.
**Bilak** - (fars mənşəli) Bel formasında pəri olan ox ucluğunun adı.
**Bülöv daşı** - **(**ingiliscə wherstone, rusca точильный камень**)** Dəmirdən kəsici alətlərin itilənməsində istifadə olunan daş alət
**Cilalama** – **(**ingiliscə burnish, rusca полировка**)** Əşyanın üzərinin sürtülərək səthinin parıltıya qədər hamarlanması. Cilalama texnikasının meydana çıxması daşişləmədə böyük tərəqqiyə səbəb oldu və neolit dövrünün mühüm nailiyyətlərindən biri hesab edilir.
**Cövşən** - (fars mənşəli) Halqalı zirehə qarın nahiyəsində, sinənin və belin alt nahiyələrində gəmir lövhələrin bərkidilməsi ilə hazırlanan müdafiə geyimi.
**Çaxmaq daşı** - **(**ingiliscə flint, rusca кремень**)** Bərk, amma yaxşı qəlpələnən daş. Kimyəvi tərkibinə görə kvarsdır, lakin mikrokristal quruluşu tamamilə fərqlidir. Daş dövründə əmək alətlərinin hazırlanmasında başlıca xammal olmuşdur. Çaxmaq daşından əmək alətlərinin hazırlanmasında başlıca üsul isə qəlpələmək üsulu idi. Az hallarda cilalama üsuluna müraciət olunub.
**Çaydaşı alətləri** - **(**ingiliscə pebble tool, rusca галечные орудия) Əmək alətlərinin ən qədim və ən bəsit tipi. Çaydaşının bir kənarına zərbələr endirərək işlək ağız yaratmaqla hazırlanırdı. Azərbaycanda Azıx mağara düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı alt mədəni təbəqələrdən tapılıb.
**Çapacaq** – (ingiliscə handaxe, rusca ручное рубило) – Aşel dövrünün həndəsi formaya malik, daşdan mükəmməl zərbə aləti idi. O xammalın iki tərəfdən işlənməsi ilə, arxaik formalarda 30-a yaxın, mükəmməl formalarda 60-a yaxın qəlpə qoparmaqla hazırlanırdı. Klassik forması badamvari olub uzunluğu 12-15 sm təşkil edir, hər iki üzü qabarıqdır.
**Çopper** – Çaydaşından bir kənarından mərkəzə doğru vurub qəlpələr qoparmaqla hazırlanmış kobud və bəsit alət. Bu alət Oldovan mədəniyyəti üçün səciyyəvidir. Azərbaycanda Azıx mağarasının X təbəqəsindən məlumdur.
**Çoppinq** – Çaydaşından iki üzü işlənmiş kobud, iri ölçülü alət. Oldovan mədəniyyəti üçün səciyyəvidir. Azərbaycanda Azıx mağarasının alt təbəqələrindən məlumdur.
**Dəbilqə** - (ingiliscə helmet, rusca шлем) Qoruyucu hərbi baş geyimi. Ən qədim nümunəsi İkiçayarasından məlumdur və tunc dövrünə aid edilir. Azərbaycan ərazisində ən qədim dəbilqələr Nüydi və Qəbələ abidələrindən məlumdur. Tuncdan hazırlanmış həmin dəbilqələr antik dövrə aiddir.

**Dəhrə -** Ağacların budanmasında, ərazinin kolluqdan, cəngəllikdən təmizlənməsində tətbiq olunan kəsici-biçici alət.

**Dən daşı** - (ingiliscə quern, rusca зернотерка) Dənin üyüdilməsi üçün istifadə olunan daş alət. Bu məqsədlə əsasən ovxalanmayan, bərk cinsli daşlardan istifadə olunurdu. Qayıqvari, yəhərşəkilli dən daşları neolit dövründən antik, hətta erkən orta əsrlərədək mövcud olmuşdur.

**Dər** - (fars mənşəli) Qısa qolları və qısa ətəkləri olan köynək formalı, metaldan toxunan halqalı zireh geyim.

**Dəyirman daşı** - (ingiliscə mil stone, rusca мельница) Dəni üyüdüb un və ya yarma alınmasında istifadə olunan dairəvi daş.

**Ding** – Çəltiyi təmizləmək üçün tətbiq olunan döyüm aləti.

**Dişli-gəzli alətlər** – Bu alət enli və qalın qəlpələrdən hazırlanır, ağzında gəzlər açılması onlara dişli alət görünüşü verirdi. Yonmaq, sıyırmaq, qaşımaq üçün tətbiq olunub.

**Döyəc** – Dibəkdə çəltik və digər məhsulun tapdanması, əzilməsi üçün tətbiq olunan çaydaşı və ya başqa növ daşdan bəsit alət.

**Döyüş baltası** - (ingiliscə battleaxe, rusca боевой топор) Canlı qüvvəni məhv etmək təyinatına malik olub zərbə endirici, doğrayıcı hücum silahı. Döyüş üçün istehsal olunan balta adidən fərqli olaraq doğramaq, parçalamaq təyinatına uyğun çəkisi yüngül, top hissəsi gürz formalı və ya sivri çıxıntılı, ağız hissəsi uzun hazırlanırdı. Əsasən əlbəyaxa döyüşdə tətbiq olunur, piyada döyüşçülər ondan xüsusilə geniş istifadə edirdilər.

**Döyüş bıçağı -** (ingiliscə battleknife, rusca боевой нож) Əlbəyaxa döyüşdə istifadə olunan bir ağızlı, tiyəli batırıcı, kəsici silah. Silahşünaslıqda uzunluğu 20 sm-dən artıq olan birağızlı, düz tiyəli bıçaqlar döyüş bıçağı adlandırılır.

**Döyüş yabası** –əlbəyaxa döyüşdə istifadə olunan iki və ya üç dişli, saplı batırıcı hücum silahı. Daha çox piyadalar tərəfindən istifadə olunurdu. Döyüş yabaları zirehli düşməni sıradan çıxartmaqda, süvarini atdan dartıb salmaqda da uğurla tətbiq edilirdi.

**Dulus çarxı -** (ingiliscə potter's wheel, rusca гончарный круг) Üfüqi müstəvidə fırlanan və dulusçuya gildən mükəmməl formalı qabları formalaşdırılmağa imkan verən dəzgah. Erkən nümunəsi eneolit dövründən məlumdur. Dulus çarxı qabın formalaşmasını asanlaşdırmaqla istehsal prosesini sürətləndirmiş, əmək məhsuldarlığını yüksəltmişdir.

**Duşaxe** - (fars mənşəli) Şaxələnən, iki dişli pəri olan ox ucluğunun adı.

**Əriyən model -** (ingiliscə lost wax proses, rusca выплавляемая модель) Metaltökmədə məmulatın istehsalında tətbiq olunan texnika. Fiqurlu qabların və s. hazırlanmasında xüsusilə əlverişlidir. Bu texnikaya görə ilk növbədə hazırlanacaq məmulatın mumdan modeli düzəldilir, daha sonra onun üzərinə gil çəkilirdi. Əriyən mumun axıdılması üçün gil örtükdə deşik

açılırdı və həmin deşikdən həm də metalı qəlibə tökmək üçün istifadə olunurdu. Metal soyuduqdan sonra qəlib sındırılır mum modelin formasını təkrarlayan məmulat çıxarılır, üzərində tamamlama işləri aparılırdı. Bu texnikanın ilk tətbiqi erkən tunc dövrünə təsadüf edir. Sonrakı dövrlərdə də uğurla tətbiq olunub. Məşhur "Şirvan lüləyəni" təsvir olunan texnika ilə hazırlanıb.

**Ərsin** – xəmirin, kündənin kəsilməsində, çörəyin təndirdən çıxarılmasında istifadə olunan alət. Yastı kürəkvari işlək hissəsi, en kəsiyi dairəvi, milşəkilli sapı olur. Təndir ərsinləri sapının uzun olması ilə fərqlənirlər.

**Əyircək** - (ingiliscə spindle whorl, rusca пряслице) İp alınmasında işlədilən, cəhrənin oxuna geydirilən, mərkəzində dairəvi deşik olan dairəvi əşya. Daşdan, sümükdən, saxsıdan hazırlanır, bikonik, konusvari, yastı diskşəkilli, piramidaşəkillidirlər. Diametri 2,5 sm-dən 10 sm-dək olur. İri kütləli, ağır iy başlıqları kətan, yüngül kütləlilər isə yun, ipək və pambıq əyirmək üçün tətbiq edilirmiş.

**Gəm** - (ingiliscə buckle (bit), rusca удило) At ləvazimatına daxil olan element, yüyənin bir hissəsi. Tunc dövründə, e.ə. II minillikdə meydana çıxdığı ehtimal olunur.

**Girdənə** - Daşdan silindrik yonulmuş tapdalayıcı alət. Müxtəlif məqsədlərlə, o cümlədən damın torpaq örtüyünü sıxlaşdırmaq, möhkəmləndirmək üçün tətbiq olunub.

**Harpun** - (ingiliscə harpoon, rusca гарпун) Başlığı sümük və ya buynuzdan hazırlanan sivri uclu, bir və ya iki yanı dişli mildən ibarət alət. Başlıq sapa bərkidilirdi. Üst paleolitdə icad olunmuş, həmin dövrdə və mezolitdə geniş yayılmışdı.

**Xəncər** - (ingiliscə dagger, rusca кинжал) Yaxın məsafəli, böyük olmayan tiyəli, ikiağızlı kəsici və batırıcı silah. Başlıca olaraq misdən, tuncdan və dəmirdən hazırlanıb.

**Xış** - (ingiliscə plough, rusca плуг) Torpağı yumşaltmaq üçün alət. Xış qoşqu qüvvəsindən istifadəyə əsaslanırdı və onun erkən nümunələri toxanın inkişaf etmiş formasını xatırladır. İlk dəfə e.ə. IV minillikdə Yaxın Şərqdə tətbiq edilən xış əkinçiliyin tərəqqisinə təkan vermişdir.

**İtiuclu** – Çaxmaq, bazalt, felzit daşlarından qopardılmış üçbucaq biçimli qəlpələrdən hazırlanmış uclu alət. Onların hər iki ağzı uc tərəfdə dişəklənirdi. İtiuclu alətlər deşmək, qazmaq və kəsmək üçün istifadə olunub.

**İy başlığı** – bax: əyircək

**Kaman -** (ingiliscə bow, rusca лук) Ox atan yay. Uzaqməsafəli hücum silahı.

**Kask -** (fars mənşəli) Orta əsrlərdə müsəlman Şərqində yayılmış yarımkürəvi dəbilqə.

**Kələntər** – Müdafiə geyimi. Cövşəndən fərqli olaraq metal lövhələr bütün səth boyu düzəldilirdi. Onun istifadəsinə XIV əsrdən başlanılmışdır.

**Kərki** – (ingiliscə adze, rusca тесло) Aşağı çevrilmiş tiyəsi, uzun ağac saplı yonucu alət. İşlək hissəsinin müstəvisi sapla düzbucaq yaradır. Ağacişləmədə baltadan sonra ən mühüm alət. İlk kərkilər daşdan, sonrakı dövrlərdə isə metaldan olmuşdur.

**Kirkit** - Sümükdən dişli alət. Xalça toxunarkən ilmələrin sıxlaşdırılması üçün istifadə olunurdu.

**Kəski** - (ingiliscə burin, rusca резец) Qəlpələnmiş çaxmaq daşından hazırlanmış sivri uclu alət. Sümük, buynuz, ağacişləmədə istifadə olunmuşdur. Səciyyəvi formalarda işlək hissə dar, köndələn ağızdan ibarətdir.

**Kirkirə** - Dən üyütmək üçün istifadə olunan, əl ilə hərəkətə gətirilən, fırlanan İki hissədən – yastı və dairəvi alt və üst daşlardan ibarətdir. Azərbaycanda antik dövrdən məlumdur.

**Klekton** - İbtidai daşişləmə texnikası. Qəlpənin vurma səthi olan hissə çox qalın və kobuddur.

**Kliver** - (ingiliscə cleaver, rusca кливер) Qədim paleolit dövrünün daş aləti olub nukleus və ya qəlpədən "D" hərfi formasında hazırlanıb. Texnoloji baxımdan kliver daha çox çapacağa yaxın olub aşel mədəniyyəti üçün səciyyəvidir.

**Körük** – Kürədə yüksək hərarətin alınması üçün yanları büküklü dəri və ya ağacdan düzəldilən, hava üfürülməsini təmin edən alət.

**Kuyaq** – (türk mənşəli) Sinə, qarın və bel nahiyələrini qoruyan, yaxalığı, ətəyi və qolları olmayan, metal lövhələrdən quraşdırılan müdafiə geyimi. Müxtəlif formalı metal lövhələr mahud və ya gön üzərinə tikilirdi.

**Külçəbasan** - Çörəyin üzərinə naxış salınmasında istifadə olunan gil möhürəbənzər alət. Erkən nümunələri tunc dövründən məlumdur.

**Kürə -** (ingiliscə klin, rusca горн) İstehsal üçün yüksək hərarətin alınmasını təmin edən kamera. Arxeoloji qazıntılar zamanı daha çox dulus kürələrinə rast gəlinir. Sadə, bəsit kürələrdə ocaqlıq və qabxana ayrılmayıb. Mükəmməl quruluşlu kürələr ikiqatlı olub ocaqlıqla qabxana arasında arakəsmə vardır və hərarət həmin arakəsmədəki açırımlar və ya kanallar vasitəsi ocaqlıqdan qabxanaya ötürülürdü. Metal, şüşə istehsalı ilə bağlı kürələr bir qədər fərqlidir.

**Qalxan** - (ingiliscə shield, rusca шить) Müdafiə ləvazimatı olub göndən, ağacdan və ya metaldan hazırlanırdı. Hücum silahının zərbəsini dəf etmək üçün adətən qalxanı sol əldə gəzdirirdilər.

**Qaşov** –(ingiliscə skraper, rusca скеребок) Qəlpələnmiş daşdan hazırlanmış, qabarıq işlək kənarı olan əmək aləti. Ağac məmulatının işlənməsində, dərinin piydən qaşınıb təmizlənməsində başlıca alət idi. İlk nümunələri Qurucay mədəniyyətindən məlumdur. Aşel mədəniyyəti üçün xüsusilə

səciyyəvidir. Bu zaman tipoloji baxımdan sadə bir işlək ağızlı qaşovlar, sadə qabarıq işlək ağızlı qaşovlar, iki işlək ağızlı qaşovlar, künclü qaşovlar, enli qaşovlar və digər tipləri yayılır.

**Qaytarqan** – (ingiliscə cheek piese, rusca псалий) Gəmin sonluğunda yerləşdirilən, yüyənə birləşdirilən şaquli mil. Qaytarğan ilk əvvəl sümükdən olmuş, sonradan metal qaytarğanlar meydan gəlmiş və sümük qaytarğanları sıxışdırıb aradan çıxarmışdır.

**Qəlpələmə texnikası** – Paleolit daşişləmə texnikasında kənardan ortaya vurub nüvədən qəlpələrin qopardılması.

**Qılınc** - (ingiliscə sword, rusca меч) Yaxın məsafəli, kəsici, batırıcı təyinatlı tiyəli hücum silahı. Xəncərdən tiyəsinin uzun olması ilə fərqlənir. Erkən nümuləri tunc dövründən məlumdur. Orta əsrlərdə qılıncı olmayan döyüşçünün silahlanması qaneedici sayılmırdı.

**Qolcaq** – Əlbəyaxa döyüş zamanı qolu kəsici və doğrayıcı silahların zərbələrindən qorumaq üçün metaldan müdafiə geyimi.

**Qoruyucu üzük** – Hərb sənətində və ovçuluqda mürəkkəb kamanların yayının dartılmasında istifadə olunan, əsasən, sümükdən hazırlanan üzük. Bir qayda olaraq həmin üzüklərin aşağı tərəfində lövhəvari çıxıntı olur. Kamanın yayı çəkilərkən şəhadət barmağının əzilməsinin qarşısını almaq üçün həmin barmağa geyilirdi. Monqol ağalığı dövründə geniş yayılmışdı. Azərbaycanda ən qədim nümunə e.ə. II minilliyin sonu – I munilliyin əvvəllərinə aiddir.

**Levallua** - (ingiliscə levallois, rusca леваллуа) Daşın qəlpələnməsi texnikası (adını Parisin yaxınlığındakı Levallua Perreden götürüb). Bu texnika tətbiq edilərkən qəlpəyə müəyyən forma və ölçülər vermək üçün nukleus ilkin işlənir. İlkin olaraq zərbələr nukleusun kənarlarından mərkəzə doğru vurulur. Qalan nüvə tısbağayabənzər formada olub bir tərəfi yastı, digəri günbəzvari olur. Alt paleolitin əl çapacaqlarının, mustye alətlərinin hazırlanmasında tətbiq olunub.

**Limas tipli alətlər** – Qədim və orta paleolitdə geniş yayılmış daş alət. Əsasən çaxmaq və slanes daşlarından hazırlanıb. Ən qədim nümunələri Azıx mağarasının aşel təbəqəsindən məlumdur.

**Lövbər** - (ingiliscə anchor, rusca якорь) Gəmi, qayıq və bərənin suda bir yerdə saxlanılması üçün suya zəncir və ya kəndir vasitəsilə buraxılan qurğu. İlk lövbərlər kvadrat, düzbucaq və ya badamvari, yuxarı və aşağı tərəflərində zəncirin keçirilməsi üçün deşik və ya deşiklərin olduğu daşdan ibarət idi. Ilk dəmir lövbərlər Roma imperiyasında icad olunsa da, XIII əsrə qədər daş lövbərlər geniş istifadə olunub.

**Məhəgdaşı** - Qiymətli metalların əyarını müəyyənləşdirilməsində istifadə olunan qara, parlaq daş. Orta əsr şəhərlərinin arxeoloji qazıntılarından

məlumdur. Məhəgdaşının başlıca ixracatçısı Şabran şəhəri hesab olunurdu, buradan dünyanın müxtəlif ölkələrinə məhəgdaşı daşınırdı.

**Mikrolit** - (ingiliscə microlith, rusca микролит) Lövhə və ya qəlpədən hazırlanmış kiçik ölçülü daş alət. Belə alətlərin uzunluğu 2,5 sm-dən artıq almur. Adətən, həndəsi formaya malik mikrolitlər ucluq olaraq ağac və ya sümük əsasa geydirilirdi. Mikrolitlər mezolit dövrünün daşişləmə texnikası üçün səciyyəvidir.

**Mizraq** - (ingiliscə lanse, rusca пика) Batırıcı təyinatlı, orta məsafəli hücum silahı. Ox ucluğundan böyük, nizə ucluğundan kiçikdir. Daşdan, sümükdən, tuncdan, dəmirdən hazırlanıb.

**Nizə** - (ingiliscə spear-thrower, rusca копьеметалка) Orta məsafəli atıcı-batıcı hücum silahı. Ağac sapdan, daş, tunc və ya dəmirdən hazırlanmış ucluqdan quraşdırılırdı.

**Nizə ucluğu** - (ingiliscə spear-head, rusca наконечник копья) Orta məsafəli atıcı-batırıcı hücum silahının sapa bərkidilən ucluğu. Erkən nümunələri üst paleolit dövründə çaxmaq daşından hazırlanmışdır. Onlar yarpaqşəkillidir. Tunc və dəmir nizə ucluqların ağac sapa bərkidilməsi üsuluna görə sulğunclu və boru formalı olmaqla iki başlıca tipi vardır.

**Nukleus** - (ingiliscə core, rusca нуклеус) Əmək aləti hazırlamaq üçün qəlpə və ya lövhələrin qoparıldığı, təbii üzünün artlandığı çaxmaq daşı və ya obsidianın özəyi.

**Oraq** – (ingiliscə sickle, rusca серп) Başlıca biçin aləti. Erkən nümunələri ağac və ya sümük əsasa çaxmaq yaxud obsidian lövhələrin geydirilməsi ilə hazırlanıb. İlk nümunələr natufi mədəniyyətindən məlumdur. Sonrakı dövrlərdə tuncdan, daha sonra dəmirdən hazırlanıb. Şumer mədəniyyətindən terrakot oraqlar da məlumdur.

**Oraq dişi** – (ingiliscə bush, rusca вкладыш) Erkən əkinçilik mədəniyyətində obsidian və ya çaxmaq daşından düzbucaq və ya digər həndəsi formalarda hazırlanan ağac və ya sümük əsasa geydirilən kəsici hissə.

**Ox** – (ingiliscə arrow, rusca стрела) Yayla atılan itiuclu uzaqməfəli hücum silahı. Üç hissədən – ucluqdan, gövdədən və ləlɘkdən ibarət olurdu. İki səciyyəvi əlamatə malikdir. Birincisi qısa zaman kəsiyində hədəfə doğru böyük bir məsafəni qət edə bilməsini, havada sabit uçuşunu təmin edən aerodinamikliyi, ikincisi isə hədəfin daxilinə girərək onu məhv etməsi.

**Ox ucluğu** - (ingiliscə arrowhead, rusca наконечник стрелы) Oxun daşdan, sümükdən, tuncdan və dəmirdən hazırlanan ucluğu.

**Palaş** – Əlbəyaxa döyüşdə istifadə olunan düztiyəli, birağızlı doğrayıcı-batırıcı hücum silahı. Arxeoloji qazıntılar nəticəsində palaş nümunəsi (fraqmenti) Şamaxıdan aşkarlanıb.

**Puta** - (ingiliscə crucible, rusca тигель) Metalın əridilməsi üçün kobud işlənmiş, adətən, konus formalı saxsı qab.

**Rapira -** (ingiliscə rapier, rusca рапира) Tuncdan yaxın məsafəli hücum silahı. Qılıncdan tiyəsinin daha nazik olması, tiyəsinin dəstəyə rəbbetmə üsulu ilə bərkidilməsi üçün flans ilə fərqlənir. Qılıncdan fərqli olaraq rapira kəsici, doğrayıcı deyil, batırıcı, deşici silah idi. Rapiranın orta tunc dövründə xəncərin uzadılması nəticəsində meydana çıxdığı bildirilir. Son tunc dövründə isə qılıncın geniş yayılması nəticəsində tədricən sıradan çıxmışdır.
**Sapand** - (ingiliscə sling, rusca праща) daş atan silah. O ortasında açıq "səbəti" (qədim türkcə "aya") olan ip və ya qayışdan ibarətdir. İpin bir ucunda olan ilkək sağ əlin baş barmağına taxılır, səbətə daş qoyulur, həmin əlin digər barmaqları ilə ipin ikinci ucu tutularaq sapand başın üzərində firlandırılaraq, boş ucu buraxılır və daş böyük sürətlə hədəfə yönəlir. Dana və öküz dərisindən, söyüd, tut ağaclarının liflərindən, at və qadın saclarından, yun ipdən hazırlanırdı.Bir qayda olaraq arxeoloji qazıntılar zamanı sapandın özü deyil, onun daşları tapılır.
**Sıxma dişəkləmə** - (ingiliscə pressure flaking, rusca отжимная ретушь) Paleolit industriyasında daş əmək alətlərinin hazırlanmasında tətbiq olunan texnika.
**Təkrar dişəkləmə** - (ingiliscə secondary retouch, rusca вторичная ретушь) Qəlpənərəq hazırlanmış alətin dişəklənməklə tam mükəmməl formaya salınması. Paleolit daşişləmə texnikası üçün səciyyəvidir.
**Toppuz** - (ingiliscə mace, rusca булава) Parçalayıcı, əzici zərbə endirən silah. Erkən nümunələr daşdan hazırlanıb və ağac sap üçün mərkəzində deşik açılıb. Müxtəlif formalıdırlar: şar, armudvari, konus, üstü kəsilmiş konus, yastılaşdırılmış kürə və s.
**Törk** – Alçaq yan tərəfləri, alçaq konusvari uc hissəsi, hamar səthi olan qoruyucu baş geyimi - dəbilqə.
**Üçayaq** – Dulusçuluqda şirli kasa, nimçə, piyalə, boşqabların istehsalında tətbiq olunan, onların dəst halında kürənin qabxanasında yerləşdirilməsinə imkan verən saxsıdan yardımçı alət.
**Ülgüc** - (ingiliscə razor, rusca бритва) Kəsici, yonucu, təraşlayıcı alət olub tunc dövründən məlumdur. Tunc və dəmirdən hazırlanan bu alətin ağzı iti olması ilə fərqlənmişdir. Tunc ülgüclər əkzər hallarda ikiağızlıdır.
**Ülgü** – İstehsal olunac məmulatının modeli. Zərgərlikdə, misgərlikdə, silahsazlıqda tətbiq olunub. İçərişəhərdə aparılan arxeoloji qazıntılar zamanı ox ucluğunun istehsalında istifadə edilmiş ülgü tapılmışdır.
**Üzəngi** - (ingiliscə stirrup, rusca стремена) Yəhərin hər iki tərəfindən asılan, asması qayışdan, ayaqlığı dəmirdən olan əşya. Süvarinin ata minməsini asanlaşdırmaq və ayağın dirənməsi üçün ayaqlıq badamvari biçimdə, altı düz hazırlanırdı. İlk dəfə erkən orta əsrlərdə hunlar tərəfindən tətbiq olunduğu ehtimal edilir və hərb sənətində süvarilərin rolunun artması ilə əlaqədar meydana çıxmışdır.

**Vəl** – Taxılın döyümündə istifadə edilən alət. Ağac və daşdan olur. İlk əvvəllərin e.ə. III minillikdən meydana çıxdığı, daş vəllərin isə e.ə.II minillikdən tətbiqinə başlanıldığı bildirilir.
**Vurma səthi** - (ingiliscə striking platform, rusca уларная площадка) Paleolit dövründə daş alətlərin hazırlanmasında qəlpə və ya lövhə qoparmaq üçün nukleusun zərbə vurulan səthi.
**Zərbə düyünü** – Paleolit daşişləmə texnikasında qəlpənin alt üzü tərəfində izlənən qabartma. Belə qabartma güclü zərbənin izidir.
**Zireh** – (ingiliscə armour, rusca панцирь) fars mənşəlidir, hücum silahlarından qorunmaq üçün dəmir simdən toxunan və ya metal lövhələrdən yığılan döyüş paltarı.

## ƏDƏBİYYAT:

1. Azərbaycan arxeologiyası. Altı cilddə. Bakı, “Şərq-Qərb”, 2008, cild I, VI.
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. Bakı, “Şərq-Qərb”, 2007.
3. Azərbaycan etnoqrafiyası. Üç cilddə. Bakı, “Şərq-Qərb”, 2007.
4. Hüseynov M.M. Azərbaycan arxeologiyası. Bakı, 1975.
5. Kitabi Dədə Qorqud.Bakı, Yazıçı, 1988, 265 c.
6. MacMillan Dictionary of Archaeology, The / Ed. Ruth D.Whitehouse. - London: MacMillan Press Ltd., 1983. 597 p.
7. Journal of Archaeological Sciense - // www. elsevier.com/locate/jas
8. Брей У., Трамп Д. Археологический словарь. Москва, Прогресс, 1990, 368 с.
9. Матюшин Г. Н. Археологический словарь. Москва, Просвещение, АО «Учеб. Лит.», 1996, 304 с.
10. Савниди Н.Ф. Картинный археологический словарь (англо-русский). Санкт-Петербург, 1995, 64 с.

# BİZİM ARXİVİMİZDƏN
# FROM OUR ARCHIVE
# ИЗ НАШЕГО АРХИВА

## ФОЛЬКЛОРИСТСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ЖЕРТВЫ РЕПРЕССИИ ВЕЛИ ХУЛУФЛУ

**Магомед Мамедов**
(Бакинский Государственный Университет)
mehemmedmemmedli@mail.ru

**Ключевые слова:** Вели Хулуфлу, фольклористика, деятельность, жертва репрессий.

Вели Хулуфлу был одним из представителей азербайджанской интеллигенции, которые занимались сбором, публикацией и исследованием отечественного фольклора по линии общества «Исследования и изучения Азербайджана».

Вели Мамедгусейн оглу Хулуфлу родился 26 мая 1894 года в селе Хулуфлу Шамкирского района Азербайджана. В 1905-1907 годах он получил начальное образование в мусульманском духовном училище, которое затем продолжил в духовном медресе, где некоторое время занимался педагогической деятельностью. В 1917 году в Гяндже В.Хулуфлу окончил курсы учителей и в тот период принимал активное участие в революционном движении. В 1920 году он был послан депутатом на первый съезд партии от КП(б) Азербайджана, однако вскоре его исключили из членства в связи с чисткой рядов. Тем не менее, за отсутствием преступных действий в 1927 году он был восстановлен в партийных рядах. В 1922-1927 годы В.Хулуфлу учился на факультете востоковедения Азербайджанского государственного университета, в те же годы был инструктором Всесоюзного комитета нового турецкого алфавита, был редактором издательства «Бакинский рабочий» и «Азернешра». Ученый-фольклорист в 1928 году принял участие в работе первого съезда азербайджанских ашугов, проходившем в Баку, где познакомился со многими ашугами.

В 1929-33 годах он работал ученым секретарем Азербайджанского Государственного научно-исследовательского института, директором

отделения «Языка, Литературы и Искусства», в последующие годы был заместителем директора азербайджанского филиала Института истории Академии наук СССР, а также работал на других должностях (1, с. 447-448).

Исключительность заслуги этого выдающегося ученого-фольклориста в области сбора, исследования в публикации азербайджанского фольклора заключается в том, что в 1927 году он опубликовал записанные со слов Ашуга Гусейна Бозалганлы две главы эпоса «Кёроглу», а в 1929 году – четыре главы и шесть сказочных историй в виде отдельной книги. Кроме того, он был составителем книг «Народные ашуги» (1927) и «Загадки» (1928).

Командированный по линии общества «Исследования и изучения Азербайджана» в Шамкирский, Товузский, Казахский районы, он в 1926 г. в серии «Материалы из азербайджанской народной литературы» опубликовал книгу «Народные ашуги». В этой книге, наряду с биографиями Гурбани, Хаста Гасыма, Ашуга Алескера, Ашуга Гусейна Шамкирли и других ашугов, им были включены записанные из репертуара различных народных певцов более сотни гошма, герайлы, теджнисов и принадлежащий Ашугу Гусейну Шамкирли эпос «Рейхан». Значение этой книги измеряется не только сбором и публикациями ашугского творчества, она в то же время заложила основные принципы сбора и публикации стихотворных произведений ашугов.

В 1927 году В.Хулуфлу издает другую книгу под тем же названием. Здесь он также собрал образцы из творчества ашугов Шамкира и Товуза. В небольшом предисловии к этой книге автор, прежде всего, нарисовал картину отсталости и безграмотности бывшей деревни, выражая негативное отношение муллам. Говоря об отношении служителей религии к ашугам, он, с одной стороны, отмечает, что «ашуги являются живой книгой народной словесности и народной мысли» и превозносит их на вершину мудрости, а с другой стороны высказывает мысль о том, что «они ублажают вкусы правящих классов и зажиточных сельчан», «ашуги долгое время из уст в уста передают религиозные легенды и суеверия». Таким образом, автор характеризует ублажение вкусов правящих классов, веру в религиозные легенды и суеверия и т.д. как недостатки и пережитки ашугского творчества (1, с. 450-451).

Интересны заметки В.Хулуфлу о происхождении ашугов и их творчества: «Ашуги – это выходцы из сельской среды чабанов и прислуг, научившиеся стихотворчеству и игре на сазе, а затем кочевавшие по родным краям. Они всегда готовы присутствовать на народных празднествах, свадьбах и т.д.» (2, с. 193). Далее, говоря о воспитательном значении и касаясь вопроса воздействия на слушателей, В.Хулуф-

лу отмечает, что «независимо от времени года, если ашуг пришел в деревню, то все от мала до велика должны были собраться вокруг него. Крестьянские дети вместе со взрослыми слушали всю ночь напролет сказки ашуга. Отсюда и начинается вопрос о воспитании масс ашугом» (2, с. 193-194).

Главные мысли, высказанные В.Хулуфлу об азербайджанской ашугской поэзии, – это истинные слова человека, любящего, знающего, собирающего ашугскую поэзию, с трепетным вниманием относящегося к каждому отдельному творцу: «Ашуги являются живой книгой народной словесности и народной мудрости. Поэтому они могут дать достаточно материала о прошлом народа, о его истории, языке, социальных отношениях и т.д. ...» (2, с.195). В.Хулуфлу связывает творчество ашугов с жизненными событиями, историей и деятельностью народа.

